XATİRƏ QULİYEVA

# HEYDƏR ƏLİYEV VƏ MƏNƏVİ-ESTETİK DƏYƏRLƏR

BAKI - AZƏRNƏŞR- 2002

Q-58

Elmi redaktor və "Ön söz"ün müəllifi
fəlsəfə elmləri doktoru Vəli HƏBİBOĞLUDUR

Rəyçi: Telman HACIYEV,
fəlsəfə elmləri doktoru, professor
Əməkdar incəsənət xadimi

Q-58 Xatirə Quliyeva. Heydər Əliyev və mənəvi-estetik dəyərlər. Bakı: "Azərnəşr", 2002. - 176 s.

Monoqrafiyada Azərbaycan Respublikasının Prezidenti, dünya şöhrətli siyasi xadim, cənab Heydər Əliyevin irsi kontekstində Siyasət və Estetika: təsir, əlaqə, münasibətlər problemi tədqiq-təhlil olunur, Estetikanın predmet tələblərinə uyğun olaraq elmi cəhətdən qiymətləndirilir.

Monoqrafiya elmi işçilər, aspirantlar, ali məktəb tələbələri, Heydər Əliyev irsi ilə maraqlanan və onu öyrənən geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

Monoqrafiya müəyyən ixtisarla nəşr olunur.

Q-58 $\frac{0301080000}{M\text{-}651(07)\text{-}2002}$ Qrifli nəşr

© Xatirə Quliyeva - 2002.

# MƏNƏVİ ESTETİK DƏYƏRLƏRİ QORUYAN QÜDRƏTLİ ŞƏXSİYYƏT

*XX əsr Azərbaycan dövlətçilik, ictimai-siyasi fikir tarixində Heydər Əliyev siyasi lider, şəxsiyyət kimi çox mühüm yer tutur. Onun zəngin siyasi təcrübəsi, yüksək təşkilatçılıq qabiliyyəti, idarəetmə səriştəsi, mədəniyyətimizin, mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsi sahəsində gördüyü nəhəng işlər, söylədiyi qiymətli fikirlər, böyük dövlət xadimi olaraq milli dövlətçiliyimizin möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və nadir şəxsiyyətlərə məxsus başqa məziyyətləri, bütövlükdə fəaliyyəti hələ bundan sonra çox öyrəniləcəkdir. Gələcək nəsillər bu zəngin irsə müraciət edərək faydalanacaqlar, həyatın, cəmiyyətimizin bütün sahələrinə aid burada mövcud olan qiymətli fikirlərdən, ideyalardan bəhrələnəcəklər.*

*Artıq bu günün özündə, Heydər Əliyevin zəngin ideya irsi alimlər, tədqiqatçılar, siyasət adamları, bir sözlə, müxtəlif sənət və peşə adamları tərəfindən diqqətlə öyrənilir. Onun fəaliyyətinin müxtəlif sahələri ilə bağlı bir çox kitablar, monoqrafiyalar nəşr olunur, xalqımıza, dünya ictimaiyyətinə çatdırılır.*

***Tədqiqatçı, filologiya elmləri namizədi X.Quliyeva cənab Heydər Əliyevin həyat və fəaliyyətində, ideya irsində mənəvi-estetik dəyərlərin tədqiqini əsas götürərək bu istiqamətdə araşdırmalar aparmış və maraqlı bir monoqrafiya yazıb tamamlamışdır. Monoqrafiyada cənab Heydər Əliyevin siyasi fəaliyyəti ilə mənəvi-estetik dəyərlərin qarşılıqlı əlaqəsi, bir-birinə təsiri diqqət mərkəzində saxlanılır ki, fikrimizcə, bu, tədqiqatın, monoqrafiyanın ən üstün keyfiyyətlərindən biridir.***

***Müəllif monoqrafiyanın birinci - Siyasətdə Dil, Din, Sülh məsələsi və Ülvilik kateqoriyasının təzahür və inkişaf xətti hissəsində cənab Heydər Əliyevin həyata keçirdiyi siyasətdə dil, din və sülh problemi ilə bağlı məsələləri mənəvi-estetik dəyərlər prizmasından nəzərdən keçirir, bu mühüm problemin həllində Ülvilik kateqoriyasının böyük rolu və əhəmiyyətini göstərir.***

***Monoqrafiya müəllif haqlı olaraq belə bir mühüm ideya üzərində dayanır ki, cəmiyyətdə estetik kateqoriyalar inkişaf etdirilərsə gözəlliyin dialektikası, yəni inkişafı təmin olunar, həmçinin də bu dövlət başçısının ölkə daxilində yeritdiyi müdrik, düşünülmüş siyasətin xalq, cəmiyyət üçün nə qədər faydalı, gözəl olduğunu aydın nümayiş etdirər.***

***Monoqrafiyada müəllif problemin dərindən öyrənilməsi və qiymətləndirilməsi üçün dörd istiqamət müəyyənləşdirir. Bu istiqamətlərin hər biri böyük siyasətçinin dövlət idarəçiliyində estetik gözəlliyi öyrənməyə geniş imkan verir.***

***Müəllifin fikrincə, estetik gözəllik insana anadangəlmə verilir. Əgər insan bu mühüm hissi hər hansı bir digər sənət ardınca gedərək inkişaf etdirmirsə, həmin hiss itməyəcək, mütləq nə vaxtsa o şəxsin fəaliyyətində təzahür edəcək və onun cəmiyyətə və insanlara münasibətini ifadə edəcəkdir.***



***Tədqiqatçı Xatirə Quliyeva bu fikrini sübuta yetirmək üçün cənab Heydər Əliyevin görkəmli Azərbaycan dramaturqu və şairi Hüseyn Cavidin məqbərəsinin və ev muzeyinin yaradılması ilə bağlı keçirilmiş müşavirədəki çıxışından bir parçanı diqqətimizə çatdırır. Cənab Heydər Əliyevin dolğun və dərin məzmunlu bu çıxışında onun dövlət başçısı müdrikliyi, yeritdiyi siyasətin gözəlliyi ilə bərabər estetik zövqü və estetik hissi, xalqın tarixi keçmişinə, qüdrətli sənətkarlarına qayğı və diqqətlə yanaşmağı təlqin edən həyəcanları öz əksini tapmışdır. Monoqrafiyada böyük siyasətçinin idarəetmə məktəbində dövlət quruculuğu ilə sənətə və sənətkara münasibət məsələsinin nə qədər ahəngdarlıq, eyniyyət təşkil etdiyini aydın görmək mümkündür.***

***Ümumiyyətlə, qeyd etməliyik ki, cənab Heydər Əliyev təkcə Hüseyn Cavidin məqbərəsi və ev muzeyinin yaradılmasına yox, indiyədək doğma Azərbaycanımızda bilavasitə onun rəhbərliyi altında tikilən, qurulan bütün binaların, abidələrin estetik gözəlliyinə daim həssascasına yanaşmışdır. Şəhərimizin müxtəlif guşələrində görkəmli simalarımıza qoyulmuş abidələr və onların ətraflarında yaradılan estetik gözəllik kompleksləri də bir daha bu fikri sübuta yetirir, dövlət başçısının yüksək estetik zövqündən, zəngin mənəviyyatından xəbər verir.***

***Monoqrafiyada tədqiqatçının qabarıq nəzərə çarpdırmaq istədiyi fikirlərdən biri də budur ki, cənab Heydər Əliyev dövlət quruculuğu və idarəetmə siyasətini həyata keçirərkən mədəniyyət məsələlərinin inkişafında milliliyə daha çox diqqət yetirir. Tikilən binalar, qoyulan abidələr, keçirilən müxtəlif tədbirlər gözəl olmaqla yanaşı, insanların estetik zövqünü oxşamaqla bərabər, milli üslubda olmalıdır, milli mentalitetimizə cavab verməlidir, milli xüsusiyyətlərimizi özündə yaşatmalı və təbliğ etməlidir.***

*Möhtərəm prezidentimiz daim belə düşünmüş, şəxsi fəaliyyəti ilə başqalarına nümunə olmuş və yol göstərmişdir.*

*Bu cəhətdən müəllif monoqrafiyada böyük siyasətçinin həmin sahədəki fikirlərinin işıqlandırılmasına geniş yer ayırmışdır.*

*Heydər Əliyev xalqımızın böyük övladı kimi bir çox görkəmli şəxsiyyətləri yenidən xalqımıza qaytarmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, Onun bu sahədə gördüyü işləri dünyanın heç bir dövlət rəhbəri görməmişdir.*

*Monoqrafiyada tədqiqatçı alim bu sırada görkəmli şəxsiyyətlərin xalqa, dünya ictimaiyyətinə daha yaxşı tanıtdırılmasında cənab Heydər Əliyevin rolunu da qabarıq nəzərə çarpdırır. Məsələn, o, görkəmli dövlət xadimi, dramaturq və yazıçı Nəriman Nərimanova qarşı hücumları müdrik siyasəti, konkret işləri ilə aradan qaldırdı. Bakıda N.Nərimanova heykəl qoyuldu, "Ulduzlar sönmür" filmi çəkilib nümayiş etdirildi, əsərlərinin nəşri və haqqında yazılmış ədəbiyyatın çapına böyük şərait yaradıldı.*

*Cənab Heydər Əliyevin fəaliyyətindən yüzlərlə belə misallar çəkmək olar. Müəllif bu mühüm amillər, estetik keyfiyyətlər üzərində ayrıca dayanaraq möhtərəm prezidentimizin dövlət quruculuğu ilə Estetikanın daxili məntiqi əlaqəsinə, siyasət və estetikanın sintez münasibətləri məsələlərinə elmi aydınlıq gətirir.*

*Müəllif X.Quliyeva dövlətin idarə olunmasında həyata keçirilən siyasətin gözəl, mənəvi-estetik əsaslar üzərində tətbiq edilməsini də diqqət mərkəzində saxlayır. Tədqiqatçı müdrik siyasətçini Azərbaycan dövlətçiliyinin, ruhunun, dilinin keşiyində durmuş, böyük sərkərdə Şah İsmayıl Xətai, habelə Hindistan xalqının qüdrətli oğlu M.K.Qandi ilə müqayisə edir, onun dövlətin idarə olunması işində məqsədyönlü fəaliyyətini tanınmış siyasətşünasların fikirlərinə istinad etməklə təhlil edir, xüsusilə 1993-cü ildən başlayaraq ölkə başçımızın dövlətçiliyimizin inkişafı və möhkəmlənməsi naminə gördüyü bir çox işlərdən ətraflı söhbət açır. Müəllifin fikrincə, bu gün Azərbaycan Respublikasında demokratiyanın geniş inkişafı, dünya dövlətləri ilə saxlanan sıx əlaqə və onların Azərbaycana böyük maraq göstərməsi məhz prezident Heydər Əliyevin dövlətin idarə olunması sahəsində düzgün, deməli, Gözəl siyasət həyata keçirməsi ilə bağlıdır.*

*Tədqiqatçı Xatirə Quliyeva möhtərəm prezident, cənab Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətini diqqət mərkəzində saxlamağa çalışmış və onun mənəvi-estetik dəyərlərin inkişafına böyük qayğısının dövlətçilik siyasəti ilə sıx bağlı olduğunu açıb göstərmişdir. Dövlət başçısının fəaliyyətinə məhz bu prizmadan yanaşan və bütün monoqrafiya boyu bunu tutarlı faktlarla elmi surətdə əsaslandıran müəllif maraqlı bir monoqrafiya meydana çıxarmışdır.*

*Respublikamızın prezidenti, cənab Heydər Əliyev haqqında indiyədək çox kitablar yazılmışdır. İnanırıq ki, Azərbaycan MEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq İnstitutunun Etika və Estetika şöbəsinin elmi işçisi, filologiya elmləri namizədi X.Quliyevanın "Heydər Əliyev və mənəvi-estetik dəyərlər" kitabı öz sanballı, mövzu aktuallığı, yeniliyi və nəhayət, böyük öndərin fəaliyyətində mühüm yer tutan mənəvi-estetik dəyərlərin dövlətçilik siyasəti ilə əlaqəsini ilk dəfə olaraq tədqiq etməsi ilə bu kitablar arasında özünəməxsus yer tutacaqdır.*


Vəli HƏBİBOĞLU,
*Azərbaycan Respublikası*
*Milli Elmlər Akademiyasının*
*Beynəlxalq Münasibətlər*
*İnstitutunun direktor müavini,*
*fəlsəfə elmləri doktoru*

# GİRİŞ

*İnsanların ürəyinə, qəlbinə təsir edə bilən ədəbiyatımız olubdur, şerimiz olubdur və həmin şerlər, həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil. Yəni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır və bunun üzərində işləyirik.*[1]

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Həyat qlobal bəşəri problemlərinin, müxtəlif - gərgin və ya ümidverici, ara-sıra dəhşətli - insanı ani surətdə "qəzavü-qədər"lə üz-üzə qoyan vulkanlarının, zəlzələlərinin və neçə adlı hadisələrinin daxili və zahiri dinamikası ilə inkişaf edir.

Bu dialektik inkişafda estetik kateqoriyalar, onların daxil olduqları elm sahəsi Estetikanın ictimai-siyasi fikrə, ümumilikdə dövlət quruculuğu və idarəetmə məsələlərinə göstərdiyi



təsir, birincinin ikincini (yəni Estetikanın siyasəti) irəli aparma, inkişafını müəyyən etmə problemləri ilk anlarda diqqəti tam cəlb etməsə də, bu gözə görünməz proses öz-özlüyündə elmi əhəmiyyət kəsb edir, ciddi tədqiq-təhlillər üçün zərurət yaradır.

Belə ki, zaman yaşanır, lakin cərəyan edən müxtəlif ictimai-siyasi hadisələrin mürəkkəblik "toru" cəmiyyət qanunlarının Gözəlliyin əbədiyyət qələmi ilə yazıldığını diqqətdən uzaqlaşdırır, həmçinin bu "tor", qanun relsləri üzərində hərəkət edən insan cəmiyyətinin estetik şüurun bağlı olduğu mənəvi dəyərləri irəli apardığını görünməz edir. Bu "tor", maneə nəzərə alınmazsa və ya tamamilə aradan götürülərsə, harmonik olan Gözəlliyin təmsil olunduğu Estetikanın predmet mahiyyəti, Ülvilik, Gözəllik və digər əbədi mənəvi-estetik dəyərlərin, eyni zamanda Eybəcərlik, Qorxu, Dəhşət, Faciliyin siyasətdə böyük bir qüvvə təşkil etdiyi aydın surətdə görünər.

Əslində bütün zamanlarda Gözəlliklə insanların arzu və diləkləri üst-üstə düşmüşdür.

Məsələn, qədim Şumerlər reallıq tələbatlarına görə maddi nemətləri vacib hesab ediblər. Bununla da Gözəlliyi təbiət, xüsusən təsərrüfat sahəsində qazandıqları uğurlarda tapıblar.

"...Günəş allahı Utu bacası İnannanı çobanlar allahı Dumuza ərə getmək üçün dilə tutur. İnanna əkinçilik allahı Enkimdiyə ərə getməli idi. Ço-

banlar allahı Dumuzu "Əkinçi, o nə də məndən yaxşıdır?" - soruşur və sübut edir ki, o nə qədər ki, insanlara pendir, qaymaq, dəri, yun verir, onları doydurur, geydirir. O yalnız çörək verən əkinçilik allahından daha faydalıdır. İnanna çobanlar allahını sevir" [2].

Antik dövrün görkəmli filosofu Sokratın nəzəriyyəsinə görə də xeyirli olan, fayda verən Gözəl hesab olunurdu.

Böyük türk ailəsinə mənsub "Kitabi-Dədə Qorqud" abidəsində də biz həmçinin Gözəlliyin məhz faydalılıq konsepsiyası ilə qarşılaşırıq. Belə ki, bütün boylarda ayrı-ayrı obrazların, hətta qadınların qəhrəmanlıq sınağı ilə öz tayfası, eli üçün faydalı olduğu təsdiqlənir.

Məlumdur ki, monoteist dinlərə qədər bütlər, bütxanələr bəşər övladının dünyəvi Gözəllik rəmzi hesab olunmuşdur. Onlar - hər bir büt formasından asılı olaraq ona inanan təbəqəyə su, çörək, süd və s. vermiş və zaman-zaman insanların istər mənəvi, istərsə də Gözəllik təsəvvürünü təmsil etmişlər.

Orta əsrlərdə dünyanın bütün millətləri, bütövlükdə bəşəriyyət əsrlər boyu öz qlobal ehtiyacına, ən nəhəng qayğısına Yerdə əlac tapa bilməyib, İlahi qüvvəyə tapınıb. Beləcə, Mütləq ideya Gözəl hesab olunub.

İnsanın hər şeyə qadir olduğu, habelə təbiətin, sənətin, tərəqqinin Gözəl kimi qəbul edildiyi dövrlər tarixə məlumdur.



Ağılı, tərəqqini cəmiyyətin xilası, Yeni cəmiyyəti, yeni insanı dövrün Gözəllik məzmunu kimi səciyyələndirən dünya maarifçiləri iki əsr bu ideya, estetik ideal uğrunda mübarizə aparıblar. Onlar bütün sahələrdə yeniliyə əsaslanan "milli mədəniyyət nəzəriyyəsi" proqramı ilə çıxış edir, ağlın, tərəqqinin qələbəsi siyasətini həyata keçirirdilər.

Fikirlərimizin bu istiqamətində sual yaranır: Bəs, müasiri olduğumuz bu dövrün Gözəllik idealı nədən ibarətdir? Dünyada baş verən hadisələrin ümumi məzmununa əsaslanaraq deyə bilərik ki, yaşadığımız tarixi mərhələnin "Gözəli" gözəl, müdrik Siyasətdir.

Gözəl-müdrik siyasət insanların rifahını, dövlətlərin sərhədlərinin qorunmasını və çoxsaylı sosial-siyasi problemlərin həlli yollarını tənzimləyir.

Siyasətin "gözəl" olduğunun təsdiqi üçün artıq Planetimizin qüvvə imkanlarından çıxaraq Kainatı narahat etməyə başlamış müharibə həqiqətlərinin meydana çıxması, güclənməsi, öz cazibəsinə bütün maddi aləmi bağlaması misallarını gətirmək olar.

Gözəl siyasət bəşəriyyəti insan düşüncəsinin məhsulu olan müxtəlif növ silahların yaratdığı - dəhşətli faciələrdən xilas etməklə Ülvilik, Gözəllik kateqoriyalarını möhkəmləndirir, fəciliyin, hər cür eybəcərliklərin aradan qalxmasına şərait yaradır.

Demokratiya prinsiplərinə əsaslanan, son vaxtlar öz tədqiqatçılarının sırasını genişləndirməkdə olan Vətəndaş cəmiyyəti müdafiəçiləri hüquqi dövlətlərdə olduğu kimi bu sistem daxilində də Siyasətin mühüm rol oynadığını irəli sürürlər. Bu fikrin kökündə məhz dövrün Gözəl ideyasının SİYASƏTdə ifadə olunması düşüncəsi dayanır.

Fəlsəfə elmləri doktoru İlham Məmmədzadə Vətəndaş cəmiyyəti problemini təhlil edərkən belə bir maraqlı fikir söyləyir: "Yetər ki, L.Lokk, T.Peyn, J.J.Russo, A.Tokvil kimi filosofların yaradıcılığını xatırlayaq. Onların yaradıcılıqları bu və ya digər dərəcədə milli ideyadan kənar - mütləq-hökmdar üzərində milli müstəqilliyin qurulması ilə bağlı olmuşdur. Vətəndaş cəmiyyətinin qeyd olunan demokratizmi məhz bundadır.

Lakin bu heç də o demək deyildir ki, vətəndaş cəmiyyəti Azərbaycanın bir çox alim və siyasətçilərinin müəyyən etdikləri kimi demokratiya formasıdır. Vətəndaş cəmiyyəti təkcə demokratiya ilə deyil, hüquqi dövlət quruluşu ilə də mövcud ola bilər" [3].

Deməli hüquqi dövlət quruculuğundakı mühüm xüsusiyyətlər demokratik quruluşda da xarakterik atributları təşkil edəcəkdir. Bu baxımdan konstitusiya, hüquqi kodekslər sistemi, onların ifadə etdiyi dövlət siyasəti bizim təhlilinə çalışdığımız problem - müasir dövrdə, xüsusilə, daxil olduğumuz, vətəndaşı sayıldığımız Azərbaycan məkanında Gözəlin təyini məsələsinin ətraflı şəkildə dərki üçün zəruri şərtlərdəndir.



Bəs Siyasətin daxil olduğu, siyasətin ifadə etdiyi Gözəllik estetik məzmununu hansı meyarlar müəyyən edir? Xüsusilə də xalqların, millətlərin iradəsinin əks olunduğu, hüquq və azadlıqlarının təminatçısı olan Konstitutsiyalı cəmiyyətlərdə Gözəlin taleyi hansı qüvvəyə bağlı olur?

Fikrimizcə, bu dialektik hadisəni cəmiyyət qanunlarını yazan, dövləti idarə edən sistemlər, dövlətlərin rəhbərləri, tarixən şahlar, hakimlər, müasir düşüncə terminləri ilə desək, siyasi lider, prezident təmin edir.

Fikri bir qədər də aydınlaşdırsaq, belə bir məntiqi nəticədən çıxış edə bilərik ki, Dünyanın Gözəllik məzmunu siyasi liderin, prezidentin, ölkə rəhbərinin ziyalı mənindən, bu mənin ifadə etdiyi siyasi səriştədən, dünyagörüşündən və s psixoloji-intellekt cəhətlərindən asılı olur.

Ölkə rəhbərinin ziyalı mənindən asılı olaraq cəmiyyətdə yaşam fəlsəfəsi müsbət kateqoriyaları, məsələn, Gözəlliyi, Ülvülüyü, eləcə də fəciliyi, eybəcərliyi inkişaf etdirə bilər. Nəticədə dövrün gözəli Sülh də ola bilər, Müharibə həqiqətləri də... Bunun nəticələri isə istər-istəməz insanların şüurundakı gözəllik keyfiyyətlərini bu və ya digər istiqamətdə hərəkət etdirər.

Bu iki amil insanlığı kamilliyə də, tənəzzülə, məhvə də apara bilər.

Dahi Sokrat hakimin, rəhbərin kütlədən fərqləndiyi, xüsusi istedada və bacarığa malik olduğu fikrini təsdiqləmişdir. Sokrat rəhbərin əsas cəhəti kimi təcrübəni, idarəetmə qabiliyyətini əsaslandıraraq demişdir: "...bəzi adamlar heç bir istedada malik olmadıqları halda dövləti idarə etmək işində məharət sahibi olduqlarından danışırlar. Heç kəs dənizdə belə olmadığı və gəmi sürməyi bacarmadığı üzündən gəmiçiliyə cəsarət eləmədiyi halda qəribədir ki, hər yerindən qalxan bir an belə tərəddüd eləmədən çox asan iş kimi dövlətə başçılıq eləməyə hazır olduğunu bildirir. Fleytaçılıq sənətinə böyük zəhmət hesabına yiyələnməyin zəruri olduğunu bir adam belə danmadığı halda, bir nəfər belə tapılmayır ki, şəhəri idarə etmək üçün əvvəlcədən böyük hazırlıq keçməyin lazım gəldiyini etiraf etsin" [4].

Qədim yunan filosofu Platona görə əsl usta - ədalətli qanunvericidir. Filosof - hakimdir!

Hətta Platon böyük Homer sənətini müdriklik sınağına çəkir və əhəmiyyətli fikirlər irəli sürür: "Homer, əgər sən belə müdriksən, de görək nə vaxtsa bir gözəl qanun kodeksi yazmısanmı? Hər hansı bir dövlət quruculuğu işlərinin əsasını qoymusanmı? Elə bir müharibə olubmu ki, sənin köməyinlə qələbə ilə bitsin?" [5].

Ensiklopedik alim, Azərbaycan filosofu Nəsrəddin Tusi "Əxlaqi-nasiri" əsərinin "Ölkəni dolandırmaq siyasəti" və "Şahların xisləti haqqında" hissəsində bu fikirləri təsdiqləyən dolğun fi-



kirlər söyləyir. O yazır: "Xalqın xeyri, əmin-amanlıq, sakitlik, bir-birinə kömək (Hormoniya - *X.Q.*), dostluq, ədalət, sədaqət, iffət, mehribanlıq (Ülvilik - *X.Q.*) və bu kimi işlərdə olar.

Xalqın zərəri qarışıqlıq, istirab, qorxu, vahimə, iğtişaş, dava-dalaş, zülm, əziyyət (fəcilik - *X.Q.*), paxıllıq, riyakarlıq, xəyanət, təhqir, qeybət (eybəcərlik - *X.Q.*) və bu kimi işlərdə olar.

Hər iki halda camaat gözlərini hökmdara dikər" [6].

Nəsrəddin Tusinin hökmdar, yəni rəhbər, ölkə başçısının konkret olaraq göstərdiyi əsas cəhətləri barədə danaşmazdan əvvəl xüsusilə qeyd etmk istərdik ki, onun nəzərdən keçirdiyimiz fikirləri estetik kateqoriyaların keyfiyyət təbiətini aydın ifadə edir.

Tusinin müəyyən etdiyi cəhətlər həmin ideyanı ardıcıllıqla davam etdirir. "Əxlaqi-nasiri" əsərində oxuyuruq: "Ölkə sahibi olmaq istəyənin yeddi xisləti olmalıdır: Birinci - atalıq. Bu, hər kəsin özünə görə münasibət, xalqın ürəklərinə yol tapmaq, hamıya mehribanlıq göstərmək, hirs və qəzəbini uda bilmək vasitəsilə asanlıqla əldə edilə bilər.

İkinci - alicənablıq. Bu nəfsani qüvvələri tərbiyə edib, saflaşdırdıqdan; "qəzəb" qüvvəsini mülayimləşdirdikdən; "şəhvət" qüvvəsini məhv etdikdən sonra əmələ gələr.

Üçüncü - mətinlik. Bu qəti nöqteyi-nəzər, fitri-iradə, dərin mühakimə, ciddi müsahibə,

düzgün fikir, böyük təcrübə və keçmişdəkilərin tərcümeyi-hallarından ibrət dərsi götürməklə əmələ gələr.

Dördüncü - tam əzm. Buna kişilik əzmi, şahlar əzmi də deyilir. Bu düzgün səy və tam iradənin birləşməsindən əmələ gələn mürəkkəb bir fəzilətdir. Heç bir fəzilətə sahib olmaq, heç bir rəzilətdən can qurtarmaq bu fəzilətsiz mümkün olmaz. Bu fəslin əsas məqsədi də məhz bu fəzilətin məziyyətlərindən danışmaqdır. Çünki şahların hamıdan çox buna ehtiyacı vardır.

Beşinci - səbirli olmaq. Bu, ağır və çətin günlərdə, ümidsiz anlarda çıxılmaz vəziyyətdə davam gətirə bilməyə deyilir. Bütün mətləblərin açarı səbirdir deyiblər...

Altıncı - var-dövlət. Bu xalqın malına göz dikməmək və tamah salmamaq üçün lazımdır.

Yeddinci - sadiq və əməlisaleh köməkçilər" [7].

Tusi bu cəhətlərdən geniş bəhs etdikdən sonra xüsusilə vurğulayır: "Bu xislətlərdən "atalıq" böyük təsirə malik olsa da zəruri deyildir. Dövlət və əməlisaleh köməkçilər isə yerdə qalan dörd xislət, yəni alicənablıq, mətinlik, əzm və səbr vasitəsilə əldə edilə bilər" [8].

Beləliklə, bizim üçün tarixən müsbət qəbul edilən rəhbərin əsas xüsusiyyətləri tam aydınlaşmış olur və alınan nəticə deməyə imkan verir ki, rəhbərin bütün bu cəhətlərini onun ziyalı "məni" müəyyənləşdirir.



İlk əvvəl gəlin Ziyalı mənin rişələndiyi Ziyalılar ifadəsinin tarixi anlamı, anlayışın daşıdığı mənanın ensiklopediya izahına diqqət yetirək. ASE-də ziyalılar haqda yazılır: "Ziyalılar - peşəyə görə zehni əməklə məşğul olan sosial qrup. Əvvəllər ziyalılar termini ümumiyyətlə, savadlı adamlara aid edilirdi. ...Ziyalılar hələ quldarlıq və feodalizm cəmiyyətində meydana gəlmiş, Renasans dövründə elmi, ədəbi-bədii mühəndis-texniki ziyalıların sayı çoxalmışdır. Kapitalizm dövründə bu proses sürətlənmişdi. Elmi-texniki inqilab nəticəsində Ziyalıların sayı, onların cəmiyyətdəki rolu daha da artmışdır" [9].

Doğrudur, burada inkişaf tarixi baxımından Ziyalıların cəmiyyətdəki rolunun artmasına müəyyən qədər toxunulur. Lakin bu təbəqədən ayrılan ayrı-ayrı fərdlərin əsl Ziyalı mənində, şəxsində formalaşmış xüsusi cəhətləri dolğun şəkildə açıqlanmır. Halbuki, ziyalılar anlayışında müasir şəraitdə kəmiyyət göstəricisi o qədər böyükdür ki, istər-istəməz keyfiyyətə əsaslanan məsələyə də diqqət yönəltmək, artıq ya anlayışa yeni məna əlavələri etmək, ya da terminin daha zəngin təhlilini düşünüb vermək lazımdır. Çünki xalqlar, millətlər tarixi elə böyük şəxsiyyətlər, simalar yetirmişdir ki, onları təkcə savadbilik dərəcəsinə görə ziyalı adlandırsaq, kütləvi təhsillilərlə bu şəxslər, fərdlər arasında süni bərabərlik yaranmış olar.

Məhz bizim düşüncəmizdəki, bu ziyalı "mən" Tusinin zəngin dünyagörüşünün müəyyən etdiyi "xislətləri" özündə birləşdirə bilən yüksək zəka sahibi, müdrik Ziyalı mən, kütlədən seçilərək ölkəyə, xalqa rəhbərlik edə bilər. Nəhayət, məhz bu ziyalı mənə malik ölkə başçısı, rəhbər, prezident dünyanın əbədi gözəllik meyarlarını qiymətləndirər, bəşəri dəyərləri, etik, estetik, fəlsəfi, psixoloji və s. keyfiyyətləri inkişaf etdirə bilər. Bu fikrin təsdiqi üçün tarixdən çox misallar gətirmək olar. Tarixin Şərq, Qərb, Şimal, Cənub qütblərində dünyaya tanıtmış olduğu onlarla ölkə rəhbərinin fəaliyyəti bu problemin müsbət və ya əksinə mənfi prizmadan təhlili üçün zəngin mənbə verir.

XX əsrin bizim Azərbaycan gerçəkliyinə, bütünlükdə xalqımızın ictimai-siyasi, mədəni həyatına bəxş etdiyi dünyaşöhrətli siyasətçi, ümummilli lider, Azərbaycan Respublikasının prezidenti, cənab Heydər Əliyevin siyasi fəaliyyəti kontekstində də bu problemi dərindən öyrənib, qiymətləndirmək mümkündür.

Hər şeydən əvvəl cənab H.Əliyevin ümumiyyətlə, ziyalılıq probleminə münasibəti, onu şərh və qiymətləndirməsi xüsusi əhəmiyyət kəsb edir. cənab Heydər Əliyev 1995-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinin ilk iclasındakı nitqində demişdir: "Hər bir xalqın onu təmsil edən qüvvələri var, onlar da bir gündə meydana çıxan qüvvələr deyil. Xalq öz içində illər boyu,



əsrlər boyu istedadlı, bacarıqlı insanları, yüksək təhsilə malik olan, yüksək intelektə malik olan, yüksək tərbiyəyə malik olan, yüksək əxlaqa malik olan insanları hazırlayır, yetişdirir və onlar xalqın tanınmış adamları, hörmətli adamları, ziyalı adamları hesab olunur. "Ziyalı" sözü məhz bu mənanı daşıyır və bu baxımdan hesab edirəm ki, yeni seçilmiş parlament Azərbaycanın, xalqımızın intellektual səviyyəsini, mədəni səviyyəsini, əxlaqımızın mənəvi varlığını təmin edən, təcəssüm edən bir parlamentdir" [10].

Prezident Heydər Əliyevin ziyalılara münasibəti baxımından aşağıdakı sitatda verilmiş fikirlər də mühüm əhəmiyyət daşıyır. Bu fikirlər onun dövlət siyasətində prinsip mahiyyətində özünü doğruldur.

"Fürsətdən istifadə edib, ziyalıların cəmiyyətdə rolu barədə bir neçə kəlmə də demək istəyirəm. Son illər bu proseslər o qədər zəngin keçib, qarmaqarışıq olub ki, ziyalının cəmiyyətdə rolu xeyli aşağı düşüb. Ziyalıya hörmətsizlik halları çoxalıb.

...Amma xalqın içərisindən çıxan bu ziyalılar tək-təkdir. Bunlar kütləvi deyil axı! Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir - bunlar fitri istedada malik olan nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, ziyalılığı, fəaliyyəti ilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırırlar. Bu adamları təhqir etmək, onlara hörmət etməmək son il-

lərdə cəmiyyətimizdə rast gəlinən eybəcərliklərdir. Biz bunlara son qoymalıyıq.

Ziyalının hörməti qalxmalıdır, müəllimin hörməti qalxmalıdır, şairin, yazıçının, alimin hörməti qalxmalıdır. Onlar hörmətli olmalıdırlar. Həmişə bu məsələ məni narahat edir. Bu, şübhəsiz ki, sizdən asılı deyil - siz hamınız ziyalı adamlarsınız. Bu bizim cəmiyyətdən asılıdır, bizdən asılıdır. Biz öz hərəkətlərimizlə, öz münasibətlərimizlə, öz tədbirlərimizlə gərək ziyalıların cəmiyyətdə hörmətini qaldıraq.

Ancaq siz də çalışmalısınız. O tərəfdən də, bu tərəfdən də təşəbbüs olmalıdır ki, bu işləri görək. Məhz bu yolla - mədəniyyətin, ədəbiyyatın təsiri ilə biz cəmiyyətimizdə olan mənfi halları, bizi biabır edən halları aradan götürəcəyik. Cəmiyyətimiz sağlamlaşacaq. Müstəqil dövlətimiz yaşayacaq, böyüyəcək, inkişaf edəcəkdir" [11].

Yüksək ziyalı mənəviyyatına malik olan cənab Heydər Əliyevin qısa fasilə ilə 30 illik siyasi rəhbər fəaliyyəti həcm, kəmiyyət, bunlarla bərabər məzmun, keyfiyyət baxımından o qədər dolğundur ki, istənilən elmi problem, o cümlədən siyasət və estetika mövzusunun tədqiqatı üçün geniş imkan verir.

Uzun illər Heydər Əliyevlə bərabər çalışmış, onun siyasi fəaliyyətinin gözəl bilicisi və təhlilçisi olan fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin aşağıda stat gətirdiyimiz fikirləri bu baxımdan xüsusi ilə diqqəti cəlb edir.



"...XX əsrin son otuz ilində Azərbaycanda, bütün keçmiş SSRİ məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən kənarda təsəvvür etmək mümkün deyildir. Təbii ki, bu da onun haqqında yeni maraqlı tədqiqat əsərlərinin meydana gəlməsinə təkan verəcəkdir. "Heydər Əliyev və Azərbaycan elmi", "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", "Heydər Əliyev və Azərbaycanda ictimai-siyasi fikrin inkişaf mərhələləri" kimi sanballı tədqiqat əsərlərinin meydana çıxacağı şübhəsizdir. Çünki Prezidentimiz bütün bu sahələrə dair öz qiymətli sözünü demiş, fikirlərini söyləmiş, onların hər birinin inkişafında müstəsna rol oynamışdır" [12].

Doğrudan da prezident Heydər Əliyevin zəngin, analitik biliyi artıq bir çox tədqiqatçıların qeyd etdiyi kimi ən böyük faktlardan tutmuş, ən xırda, bəlkə çoxunun unutduğu və ya adi yanaşıb üzərindən sükutla keçdiyi tarixi həqiqətləri lazımi məqamında fikrin dolğun şərhi, ideyanı əsaslandırma, məntiq və obyektivliklə üzə çıxarır, qiymətləndirir, dəyərləndirir.

Buna görə də elmi məsuliyyət hissi ilə deyə bilərik ki, möhtərəm prezidentimiz Heydər Əliyevin 3 onillik qədər geniş bir dövrü əhatə edən siyasi fəaliyyəti həm də milli elmimizin bir çox sahələrinin canlı salnaməsidir. Tariximiz, mədəniyyətimiz, o sırada estetik fikrimiz, iqtisadiyyatımız, tibbimiz, səhiyyəmiz və neçə-neçə elm sa-

həsi cənab Heydər Əliyevin hakimiyyətdə olduğu illərində böyük inkişaf yolu keçmiş, xeyli formalaşmış, dünya səviyyəsinə yüksəlmişdir.

Heydər Əliyevin Dil, Din məsələləri sahəsində məlum tarixyüklü qərarları, Sülh sazişləri, dünya üzünə səpələnmiş azərbaycanlıların birliyi naminə apardığı məqsədyönlü işlər, qadın problemlərinə diqqət və başqa ümumxalq əhəmiyyətli tədbirlər milyonlarla insanın ülvi duyğularının zənginləşdirilmiş və estetikanın əbədi ülvilik və geniş gözəllik kateqoriyalarının inkişafına böyük təsir göstərmişdir.

Prezidentin yüksək ziyalılığı onun əsl insan təbiətinin təzahürü olan estetik şüurun zövq, estetik hiss, ümumilikdə estetik xüsusiyyətlərini gözəl ifadə edir.

Bu isə bilavasitə deyil, birbaşa dövlət quruculuğuna öz təsirini göstərir, nəticədə ölkənin möhkəmlənməsi, insanların rifahı, mədəniyyətin, ədəbiyyat və sənətin estetik məzmununun yüksəlişi gerçəkləşir.

Burada möhtərəm prezidentin hələ 70-ci illərin əvvəllərindən başlayaraq həyata keçirdiyi şəhərsalma siyasəti, respublikanın şəhər və kəndlərinin, küçə və yollarının gündən-günə abadlaşdırılması və ən müasir zövqə uyğun olaraq simasını gözəlləşdirməsi, tarixi məzmun kəsb edən, həmçinin insanların gündəlik tələbatlarına cavab verən abidələrin yaradılması, teatrların, muzeylərin ən müasir dünya mədəniyyəti ocaqları formasında yenidən təmir və bərpa edilməsi və s. əhəmiyyətli işlər yada düşür.



Heydər Əliyev insan azadlığını bəşərin ən həllivacib problemi kimi dəyərləndirdiyindən, onu konkret iş prosesində cəmiyyətin Gözəlliyi, siyasətdə ali məqsəd olaraq əsaslandırır.

Böyük öndərin müdrik siyasət yeridərək Şərqdə ilk dəfə olaraq Ölüm hökmünü ləğv etməsi, demək olar ki, tez-tez verilən əhv, bağışlanma fərmanları, qaçqınlar və məcburi köçkünlərin problemlərinə daimi nəzarəti, əsirlərin taleyi məsələlərini həll etməsi və bir çox humanist tədbirlərin həyata keçirilməsinə əsaslanan müdrik siyasəti xalqımıza yaxşı məlumdur. Bu müdrik siyasətin tətbiqi vətəndaşlarımıza dinclik, rahatlıq, dünyaya harmoniya, simmetriya bəxş edir, siyasətin gözəlliyi məsələsini işıqlandırır.

Digər bir tərəfdən hormoniya və simmetriya mahiyyət etibarilə dünyanın əbədi gözəllik ifadəsidir.

Heydər Əliyevin siyasi fəaliyyətində dövrümüzün "gözəlinin" siyasətlə şərtləndiyi ideyasını Müstəqil Respublikamızda qəbul edilmiş yeni Konstitusiya, imzalanmış onlarla fərman, sərəncam, habelə verilmiş bəyanatlar da təmsil edir. Eyni zamanda rəhbərin xarici ölkələrə səfərləri, bu səfərlərdə müstəqil Azərbaycanın zəruri, mühüm problemlərini səriştəli, peşəkar siyasətçi kimi təmkinlə, yüksək mədəniyyət nümunəsi göstərərək böyük uzaqgörənliklə həll etməsi,

Azərbaycana gəlmiş xarici dövlət rəsmiləri ilə görüşlərində ölkəmizin mənafeyini müdafiə edən, uca tutan qərarlar qəbul etməsi zamanı bu ideya daha da möhkəmlənmiş, estetik kateqoriyaların inkişaf prosesi xeyli sürətlənmişdir.

Bütün bu deyilənlərdən alınan elmi qənaət bundan ibarətdir ki, Respublikamızda Sülhə, demokratik prinsiplərə, insan azadlığına, hüquq bərabərliyinə, sosial-siyasi mühitin sakit və sabitliyinə nail olmaqla dünya şöhrətli siyasətçi, cənab Heydər Əliyev müdrik siyasət həyata keçirir.

Əgər insanlar öz mənsub olduqları Dini əqidəyə leqal formada xidmət etmək üçün Dövlətdən dəstək ala bilərlərsə, əgər insanlar öz ana dillərində danışmaq üçün Dövlətin qarant hüquqlarından bəhrələnirlərsə, əgər insanlar orduya oğul göndərəndə Ataşkəsdən rahatlıq hiss edib, evlərinə övladlarının sağ-salamat qayıdacağına inanırlarsa, həyətlərdə yas mağarları deyil, toy-şənlik mağarları qurulursa, dünyanın ən mütərəqqi ideyalarını əks etdirən konvensiyalar Azərbaycan rəhbəri tərəfindən qəbul edilirsə və tezliklə həyata keçirilirsə, bu zaman şər qüvvələr, insan mənəviyyatını, eləcə də əməllərini, bütünlükdə simasını eybəcərləşdirən hisslər geri çəkilir, itir, görünməz olur və ya əriyir, yox olmaqla nəticələnir.

Deməli, müasir dünyanın, cəmiyyətimizin gözəllik xilaskarı məhz siyasətdir. Daha dəqiq desək, yalnız gözəl, müdrik siyasət bir an içərisində qızışacaq ehtirasları, silahlara hökm edəcək "başları" qandan, ölümdən, bu cür fəcilik məzmunlarından xilas edib, susdura bilər.

Buna görə də siyasət və estetik kateqoriyaların qarşılıqlı əlaqəsi mövzusu bir elmi problem kimi qarşımızda dayanır və bizi bu istiqamətdə tədqiq-təhlillərə cəlb edir.

Akademik Bəkir Nəbiyev möhtərəm prezidentimizin "hər bir alimin qiymətli olması, hər bir alimin yaratdığı elmi əsərlərin özünəməxsus qiymət alması, ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini təbliğ edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən alimlərin xüsusi yer tutması" - qənaətlərini qiymətləndirərkən qeyd edir ki, "hazırda öz tarixinin çox təlatümlü, məsul, mürəkkəb, lakin həm də şərəfli mərhələsini yaşayan Azərbaycanda nəzəriyyəni təcrübə ilə böyük uğurla birləşdirən, öz fikirlərini ictimai həyatımızın, beynəlxalq əlaqələrimizin müxtəlif sahələrində yüksək istedadla təbliğ edən, çoxsahəli siyasi-ictimai, diplomatik, nəhayət elmi-nəzəri fəaliyyəti ilə cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən ən böyük Azərbaycan vətəndaşı, elə məhz bizim Prezidentimiz Heydər Əliyev cənablarının özüdür" [13].

Möhtərəm prezidentimiz Heydər Əliyevin zəngin fəaliyyəti ilə bağlı yazılmış, böyük bir kitabxananı təşkil edən kitablar, burada irəli sürülən yüksək ideyalar tanınmış ədəbiyyatşü-

nas-alim, akademik Bəkir Nəbiyevin bu təhlillərinin həqiqi olduğunu, elmi obyektivliyini təsdiqləyir.

Artıq 10 ilə yaxındır ki, xalqımız hər gün öz ümummilli liderini televiziyada görməyə, qəzetlərdən çıxışlarını oxumağa adət edib. Bu "görüş"lər isə əlbəttə ki, xalqın ölkədə gedən quruculuq işlərinin əsas nəbzini tutmasına, ölkə başçısının yeritdiyi siyasətlə geniş kütlənin yaxından tanış olmasına imkan verir.

Digər bir tərəfdən Prezidentin daima diqqət mərkəzində olması, öz iş rejimi ilə xalq qarşısında sanki "hesabat" verməsi müstəqil dövlətimizin demokratik prinsiplər əsasında və ruhunda dinamik inkişafını göstərir. Bunun özü qeyd-şərtsiz münasibətin gözəlliyini, xalqla əlaqə ünsiyyətindən yaranan estetikliyi büruzə verir.

Cənab Heydər Əliyev bu idarəçilik məktəbinə, başqa sözlə desək, idarəçiliyin estetiklik keyfiyyətlərinə hələ 30 il bundan əvvəl 70-ci illərdə alışmağa başlamış, ötən keşməkeşli tarix boyunca həm siyasətçi səriştəsini, həm də bu keyfiyyətləri inkişaf etdirmişdir.

Heydər Əliyev siyasi məktəbinin xarakterik cəhətləri barədə Ramiz Mehdiyevin təhlilləri obyektivliyi və tarixiliyi ilə diqqəti cəlb edir. R.Mehdiyev yazır: "Heydər Əliyev DTK orqanlarında çalışanda da, Azərbaycan KP MK-ya rəhbərlik edəndə də, faktiki olaraq SSRİ Nazirlər Sovetinin işlərini aparanda da, 1988-1990-cı illərin məcburi, lakin nisbi fəaliyyətsizlik dövründə də, yenidən Azərbaycanda hakimiyyət sükanı arxasına qayıtdığı indiki çətin zamanda da - həmişə Azərbaycan xalqının maraq və mənafelərinin real təmsilçisi, fəal qoruyucusu olmuş, bütün qüvvə və enerjisini, təcrübə və zəkasını milli inkişafa, xalqımızın rifahının yüksəlməsinə və ictimai tərəqqiyə sərf etmişdir" [14].

Bu sitatda cəmlənən, ifadə olunan fikirlərin həqiqiliyi özünü onda təsdiqləyir ki, bu gün Azərbaycan dünyada Heydər Əliyev siyasi idarəçilik prinsipləri ilə tanınır və ən inkişaf etmiş ölkələrlə respublikamız arasında mühüm əhəmiyyət kəsb edən sazişlər həyata keçirilir.

Prezidentin aforizm kimi nəzəri cəlb edən aşağıdakı fikirləri isə bu siyasətin rişələndiyi ideya kökləri haqda dolğun məlumat verir: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam" [15].

Biz Estetikanın predmet mahiyyətinə kateqoriyaların, onların məzmun çalarlarına, keyfiyyətlərinə əsaslanaraq Azərbaycan prezidenti, cənab Heydər Əliyevin siyasi fəaliyyəti və estetik kateqoriyaların inkişaf məsələləri" və ya Siyasət və Estetika: təsir, əlaqə və münasibətlər mövzusunu aşağıdakı plan istiqamətində təhlil etməyi zəruri hesab edirik.

Birinci hissə: Siyasətdə dil, din, sülh problemi və Ülvilik kateqoriyasının təzahür və inkişaf məsələləri.

İkinci hissə: Siyasət və Estetik gözəlliyin əbədi keyfiyyətlərinin yüksəliş məsələləri.

Üçüncü hissə: Dövlət İdarəçiliyində Siyasətin gözəlliyi məsələsi.

Dördüncü hissə: Siyasət və faciəlik, eybəcərlik, dəhşətlilik, kateqoriyalarının Gözəlliyin xeyrinə zəifləmə prosesi.

Bu hissələrin daxilində isə Azərbaycan Respublikasının prezidenti, cənab Heydər Əliyevin siyasi fəaliyyətində estetik kateqoriyaların inkişaf prosesinin əsasını təşkil edən estetik hiss, estetik zövq, estetiklik keyfiyyətləri, təbiətdəki, təcrübi aləmdəki, habelə estetik kateqoriyaların ilkini və əsası gözəlliyin ədəbiyyatda və sənətdəki gözəlliyə ölkə başçısının münasibəti, insanın, şəxsiyyətin azadlığı, diplomatik proseslər və s. siyasətin gözəlliyini şərtləndirən hadisələr öyrənilib elmi cəhətdən qiymətləndirilir.

Beləliklə, ayrı-ayrı hissələrdə problemin öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərə diqqəti yönəldirik.



# I HİSSƏ

## SİYASƏTDƏ DİL, DİN, SÜLH MƏSƏLƏSİ VƏ ÜLVİLİK KATEQORİYASININ TƏZAHÜR VƏ İNKİŞAF XƏTTİ

Əskilərdən deyildiyi, böyük maarifçi Həsən bəy Zərdabinin xüsusi olaraq vurğuladığı kimi millətin millət olması üçün dili və dini olmalıdır: "...Elm təhsil etmək ilə tərəqqi edib irəli gedən vaxtda hər tayfa gərək iki şeyi bərk saxlasın ki, bu şeylərin birisi dil və birisi din və məzhəbdir. Elə ki, bunların birisi əldən getdi, tayfanın beli sınan kimidir. İkisi də gedəndə qeyri-tayfalara qarışar, mirər ilə yox olar" [16].

Siyasi fəaliyyətinin məqsədi Azərbaycan xalqının rifahı, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsi olan Heydər Əliyev təbii olaraq dövlət siyasətində Dil və Din məsələsini diqqət mərkəzində saxlayır, ən mühüm milli məsələ kimi həyata keçirir.

Azərbaycan dilinə, öz ana dilinə hörmət və məhəbbətlə yanaşan, xalqın dilində onunla səlist, mükəmməl danışan, hətta gözəl natiqlik istedadı[1] göstə-

1. Qeyd edək ki, bu xüsusiyyət, yəni natiqlik elmi-estetik ədəbiyyatda Gözəlliyin ayrıca davranış keyfiyyətinə daxil olub xüsusi bir sahəni təşkil edir.

rən Prezident hələ müstəqilliyimiz xülya olduğu, bu möhtəşəm, nəhəng tarixi hadisədən hələ xeyli əvvəl münasibət bildirmiş, onun uğrunda çalışmışdır. Buna 1977-ci ildə qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasına 73-cü maddənin daxil edilməsi hadisəsini misal göstərmək olar.

Bu bir həqiqətdir ki, həmin maddə digər sovet respublikalarında olmadığı üçün Moskvada narazılığa səbəb olmuş, cənab Heydər Əliyev sovetlər birliyinin rəhbəri L.İ.Brejnevlə ciddi danışıqlar aparaq, öz amalını, öz ideyasını sübut edərək həyata keçirmişdi [17].

Müstəqil Respublika dövründə xalqın ümumi arzusu və tələbi ilə rəhbər kürsüsünə əyləşdiyi ilk ildə cənab Heydər Əliyev Ana dilimizi inkişaf etdirmək üçün mühüm əhəmiyyət daşıyan, milli ruhu gücləndirən tarixi Qərar imzaladı. Azərbaycan dilimizə dövlət statusu verdi.

Bu qərar dövlətin simasını, onun milli-mənəvi xəzinəsinə ehtiramlı münasibəti müəyyən etdi. Milli-mənəvi dəyərlər isə MEA-nın müxbir üzvü Yaşar Qarayevin göstərdiyi kimi "...Neçə yüz il, neçə min il tarixi olan ən qədim ölkələrdə sabitliyin əsas səbəbi elə o olub ki, burada milli-mənəvi dəyərlər həmişə dövlətin, dövlət də öz növbəsində milli-mənəvi dəyərlərin keşiyində ayıq-sayıq dayanıb. Mentalitet tərbiyəsinə, milli "mən" yaddaşına və şüuruna biganə qalmamaq cəmiyyətdə əbədi, sabit müstəqilliyin, suverenliyin taleyinə və gələcəyinə də biganə qalmamağın şərti və zəmini olub..." [18].

Çox həyatı, maraqlı faktdır ki, H.Əliyev daima xalqla öz ana dilində danışmış, ən çətin gündə onun əsrarəngiz Ana dilimizdə xalqa müraciəti milyonlarla insanı onun ətrafına toplamışdır.

Elə bilirəm ki, bu gün də, ya hər hansı bir vaxt daha müşkül bir milli problem ortaya çıxdıqda, dövlətçiliyimiz təhlükə qarşısında olduqda möhtərəm Prezidentimizin ana südü kimi pak, saf ana dilimizdə ürəklərimizi, beyinlərimizi titrədib, bizi ən ali qərarlar ətrafında səfərbər edəcəkdir.

Heydər Əliyevin müxtəlif illərdə və müxtəlif məzmunlu tədbirlərdəki məruzə və çıxışlarında söyləmiş olduğu və xalqımızın dilində aforizmə çevrilmiş kəlamlardan bir neçəsini burada yada salmaq istəyirəm: "Hər bir xalqın milliliyi, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir"; "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır"; "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik... Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur"; "Azərbaycan dili bizi keçmişdə də, indi də, gələcəkdə də birləşdirəcəkdir";

"Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir" [19].

Bu fikirlər yalnız müdrik düşüncədən qopa bilər... Düşüncə isə əlbəttə ki, bütöv insanın beyin hüceyrələrinin, ürək kapilyarlarının iradəsinin naxışı, rəngi, səsidir!.. Müdrik düşüncə əmələ çevriləndə İnsan, onun daxili aləmi, varlığı daha aydın görünür.

Azərbaycanda 1991-ci ildə əldə edilən milli Müstəqilliyimiz İdarəçilik işindən xəbərsiz, siyasi səriştəyə malik olmayanların zəifliyi ucbatından təhlükə altına düşdükdə indiki müxalifətin - o vaxtkı iqtidaların yekdil çağırışı ilə hakimiyyətə gələn H.Əliyev böyük zəhməti hesabına onu sürətlə inkişaf etdirməyə başladı. Bu zamandan başlayaraq, xalq, millət özü haqda, mənəvi dəyərlər barədə düşünməyə başladı. Yenə öz milli lideri ona (xalqa) düşüncəsini bölüşməyi, öz-özünü dəyərləndirmək yolunu göstərdi.

Beləliklə, Müstəqillik dövrünün ən böyük uğurlarından biri fikrimizcə, milli Dil məsələsi, Azərbaycan dilinin Dövlət dili kimi qəbul edilməsi oldu.

Milli dil haqqında qərar dövlətin simasını müəyyən etdi. Onun milli-mənəvi xəzinəsinə münasibətini müəyyənləşdirdi.

Milli-mənəvi dəyərlər heç şübhəsiz ki, xalqın, millətin ülvi hisslərinin ən parlaq ifadəsidir



və dediyimiz kimi Ülviliyin həyati nəticələri dünyanın əbədi gözəllik qanunlarının möhkəmlənməsini, Dünyada harmonik sabitliyin bərqərar olmasını şərtləndirir.

Xalqa Din də, Dil qədər mühüm, zəruri təsir vasitəsidir. Bu iki şüur hadisəsi insanları doğulandan qəbir evinə qədər müşayiət edir, onların bütün adət-ənənələrinin əsasında dayanır.

Demokratik ruhlu insanlar xalqların milli hissi olan bu keyfiyyətlərə hörmət bəsləyir, əsl milli liderlər isə onu bütün rəhbərlikləri ərzində daima diqqət mərkəzində saxlayırlar. Bunun üçün ziyalı "mən" mühümdür və ən əsas bu ziyalı mən öz gen yaddaşından bu hər iki şüur hadisəsinə bağlı olmalıdır. Heç şübhəsiz prezidentin müqəddəs islam dinimizə bağlı ailədə doğulması, dini əqidəmizə uyğun dini adət-ənənələrimiz ruhunda tərbiyə olunması onun gələcək fəaliyyətinə də təsirsiz olmamışdır.

Akademik Bəkir Nəbiyev prezidentlə bərabər olduğu səfərlərdən birində cənab Heydər Əliyevin dinimizə bağlılığı haqda xatirəsini bölüşərək yazır: "...müqəddəs Mədinə şəhərindəki peyğəmbər məscidində minlərlə müsəlmanın iştirak etdiyi mərasimdə bizimlə birlikdə diz çöküb, namaz qılan H.Əliyev əslində mənsub olduğu xalq haqqında təsəvvürü obyektiv surətdə xeyli təravətləndirmiş oldu. Bu hərəkətilə O, beynəlxalq aləmdə, xüsusən, öz din qardaşlarımız qarşısın-

da sübut etdi ki, keçmiş Sovetlər İttifaqının ucqar respublikalarından biri olan Azərbaycanda kommunist ideologiyası bütün ciddi - maddi-mənəvi, fiziki, siyasi, inzibati təqib və təzyiqlərinə baxmayaraq xalqın öz müqəddəs dininə olan inamını ürəklərdən, beyinlərdən qazıyıb çıxara bilməmişdir" [20].

Bəkir Nəbiyevin gətirdiyi digər bu səpkili misallar onu deməyə əsas verir ki, belə bir əqidə, amal sahibi ölkəsində xalqın müqəddəs dininə qovuşması, din azadlığı idealının müstəqillik qazanmasına dövlət səviyyəsində geniş imkanlar yaradacaqdır.

Hər bir kəsə məlumdur ki, möhtərəm prezidentimizin yenidən hakimiyyətə qayıdışından sonra dinə münasibət kökündən dəyişdiyindən indi əhalinin böyük əksəriyyəti dindarlıqla azad məşğul olur. On il əvvəl əgər qadınlarımızın çox az bir hissəsi müsəlman adət-ənənələrinə uyğun olaraq hicab qəbul edirdilərsə, indi qadınlar, hətta gənc qızlar İslam mədəniyyətinin buyurduğu libasda, yəni hicabda gəzir. Bu dini əqidəyə hörmət bütünlükdə insan azadlığı ideyasını da gözəl əks etdirir.

Əvvəllər, sovet dövründə aşura günləri müəllimlər məscidlərin qapısı qarşısında keşik çəkər, uşaqları ibadət evlərinə buraxmazdılar. Bu gün bunun tam əksini görürük. Aşura günlərində insanların rahatlığı üçün avtobusların sayı artırılır, maşını olanlar könüllü olaraq din mücahidlərini yad etməyə gedən qardaş və bacılarını təmannasız olaraq tədbirlər keçirilən yerlərə aparırlar.



Xalqın inandığı bir sıra ziyarət yerlərinə birbaşa avtobusların gündəlik işləməsi də dövlətin dinə münasibətinin bir əlamətidir.

Möhtərəm Prezidentimiz respublikamızda və habelə xaricdə Din mövzusunda keçirilən tədbirlərdə müntəzəm surətdə, həm də dolğun məzmunlu məruzə və çıxışlarla iştirak edir. Bu da maraqlı faktdır ki, son dövrdə Respublikamızda dini mövzularda bir sıra beynəlxalq konfranslar keçirilmişdir.

Bu baxımdan Prezidentin Azərbaycanda keçirilmiş Beynəlxalq konfransda və Qafqaz müsəlmanları qurultayında nitqi xüsusi əhəmiyyət kəsb edir. Bu nitqində möhtərəm prezident İslam tarixi, onun inkişafı və digər məsələlərdən böyük qürur hissi ilə danışır, İslam dininin insanların mənəvi kamilliyinə, onların yüksəlişinə təsirindən tutarlı faktlarla bəhs edir. Prezidentin nitqindən gətirəcəyimiz aşağıdakı misal daha mühüm əhəmiyyətli bir məsələni əks etdirir: "...məlumdur ki, biz 70 il kommunist ideologiyası təsiri altında tərbiyələnərək dinimizdən və dinin bizə bəxş etdiyi mənəvi dəyərlərdən məhrum olmuşduq. Kommunist ideologiyasının bəşəriyyətə vurduğu zərbələrdən ən böyüyü 70 il müddətində dinə qarşı aparılmış təbliğat və xüsusən dinin qadağan olunması və dinin təhrif edilməsi olmuşdur. Ancaq eyni zamanda bu tarix onu da göstərir ki, din, o

cümlədən bizim mənsub olduğumuz İslam dini o qədər qüdrətə malikdir ki, o qədər gücə malikdir ki, heç bir ideologiya, heç bir hakimiyyət, heç bir hökmdar onunla bacara bilməz və 70 illik tarix də göstərdi ki, bunu bacara bilmədi" [21].

Prezidentin maarifçilik baxımından əhəmiyyət kəsb edən fikirləri arasında aşağıdakı sitatda ifadə olunmuş ideya da çox dəyərlidir: Prezident 70-ci illərdə bir xarici qonağın gənclərin hər yerdə yaşlılar gəldikdə ayağa qalxmasına təəccüb edib ondan buna necə nail olduğunu soruşarkən "biz buna nail olmamışıq. Bu bizim xalqımızın mənəvi dəyərləridir" - cavabını verdiyini qeyd etdikdən sonra tam səmimiyyətlə bildirir ki, "Sizinlə açıq danışıram, - o vaxt deyə bilmirdim ki, bu, İslam dininin mənəvi dəyərləridir. Çünki biz hamımız o vaxtlar İslam dinini qadağan edən adamlar idik. Amma bu gün deyirəm ki, bu, həqiqətən İslam dininin bəşəriyyətə və İslam aləminə bəxş etdiyi çox yüksək dəyərlərdir" [22].

Prezident Heydər Əliyevin bütün digər nitqləri kimi burada söylədiyi fikirlər dərin məzmunu, aktuallığı ilə diqqəti cəlb edir, hətta aforizm tək yadda qalır.

Onlardan bir neçəsini nəzərdən keçirməyi zəruri hesab edirik: "İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhvələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir. Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz İslam dini



dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir"; "...Din, xüsusən bizim İslam dini çoxəsrlik tarixi boyu özündə elə xüsusiyyətlər formalaşdırmışdır ki, bizim üçün müqəddəs olan Qurani-Kərim, Həzrəti Məhəmməd Peyğəmbərin müsəlmanlara göstərdiyi yol və verdiyi tövsiyyələr insanların daxili mənəviyyatına o qədər uyğun olmuşdur ki, insanlar üçün o qədər faydalı olmuşdur və insanların həyatında o qədər müsbət rol oynamışdır, insanları o qədər səadətə çatdırmışdır ki, bu adət-ənənələr, bu dini qanun-qaydalar nəsildən-nəslə yaşamış və heç bir məhdudiyyət bunun qarşısını ala bilməmişdir"; "Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir"; "Mən həmişə xalqa xidmət etmişəm. Mən əməlisaleh adam olmuşam. Bu gün də bu yolla gedirəm. Ona görə də öz xalqımın yolunda həyatımın son dəqiqəsinə qədər xidmət edəcəyəm və heç vaxt heç şey məni qorxutmayıb, çəkindirməyibdir. Əgər hansı bir namərd gülləsi məni məhv edə bilərsə, mən də Azərbaycan xalqının yolunda həlak olmuş şəhidlərin biri olacağam. Ancaq əminəm ki, böyük cənabi Al-

lah məni indiyə qədər hifz etdiyi kimi, qoruduğu kimi, bundan sonra da hifz edəcək, qoruyacaqdır və mən Azərbaycan xalqı üçün öz xidmətlərimi bundan sonra da göstərəcəyəm" [23].

Əgər diqqət yetirilərsə, prezident bu fikirlərində əsasən İslamı insan cəmiyyətinin mədəniyyət hadisəsi kimi qiymətləndirir. Biz, Heydər Əliyevin "İslam Svilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq simpoziumda etdiyi nitqində də bunun şahidi oluruq. Aşağıda gətirdiyimiz bir neçə sitat fikrimizi təsdiq edə bilər. "Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik"; "İslam dini Qafqazın, demək olar ki, əksər hissəsini əhatə edib və bu gün də əhatə edir və islam mədəniyyəti hər yerdə öz izlərini buraxıbdır. Kimlərsə bu izləri dağıtmaq, pozmaq istəsə də, bəşəriyyət buna yol verməməlidir və verməyəcəkdir"; "Biz islam mədəniyyətini, islam mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır. Biz istəmirik ki, kimsə günaha batsın"; "Azərbaycan islam mədəniyyətinin, islam milli-mənəvi ənənələrinin ümumbəşəri mənəvi dəyərlərlə vəhdətindən doğulan bugünki Azərbaycandır"; "Biz hesab etmirik ki, Nizami, Füzuli, Nəsimi yalnız azərbaycanlılara məxsusdur. Onlar Azərbaycan çərçivəsindən elə yaşadıqları zaman çıxıblar. Sonrakı dövrlərdə isə onların əsərləri o qədər geniş yayılıbdır ki, onlar ümumbəşəri olublar və xüsusən bütün islam aləminə mənsub insanlardır. ...Bakının ən gözəl meydanlarında onların abidələrinin, heykəllərinin ucaldılması bizim həm tariximizə, həm şerimizə, həm mədəniyyətimizə, həm də islam svilizasiyasına olan sədaqətimizin əlamətidir" [24].

Əslində bu misalların sayını ona görə genişləndirdik ki, təhlilinə maraqlı olduğumuz mövzu üçün möhtərəm prezidentin nə qədər zəngin ideyalara malik olduğunu vurğulayaq. Doğrudan da siyasi öndər, milli lider Heydər Əliyevin öz dilinə, öz dininə bağlılığı, ona bəslədiyi müqəddəs hisslər şüurlu olaraq və bəlkə təhtəlşüur bir formada onun idarəçilik siyasətinə də təsirli olmuşdur. Əlbəttə ki, belə olduğundandır ki, O, hakimiyyətə gəldiyi təkcə 6 il ərzində məscidlərin sayı 18-dən 1000-ə, 1000-dən də artıq saya qalxmışdır. Bu yaxınlarda Respublikada "Dini qrumlarla iş komitəsi"nin yaradılması, islam təhsil məktəbləri şəbəkəsinin xeyli genişlənməsi də bu qəbildən olan əhəmiyyətli hadisələrdəndir.

Prezident Heydər Əliyev öz tarixi çıxışlarında onu da vurğulayır ki, "islam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dün-

yada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir" [25].

Biz İnsanlar üçün, başər üçün Sülhün nə qədər zəruri, vacib olduğunu izah edərkən ilk əvvəl onun pozulduğu, mövcud olmadığı vəziyyətləri fikrimizdə canlandırırıq. Odlu müharibələrdən, soyuq müharibələr məzmununa qədər bütün qeyri-sabitliklərin, insan qırğınlarının, ölüm dəhşətindən, ən sadəsi göz yaşlarına qədər bütün fəciliklərin cəmləndiyi qeyri-sülh şəraiti bütün zamanlarda, bütün millətlərin tarixində arzu edilməz, qaçılan yaşam fəlsəfəsi olmuşdur və deməli insanların bütün ömürləri boyu ən böyük arzuları, diləkləri, qəlblərinin ən dərin guşəsində daima yaşatdıqları ülvi hiss SÜLH - əmin-amanlıq olmuşdur. İnsanlara Sülh hava-su, qida, od qədər mühüm, zəruri olmuşdur.

Təsadüfi deyil ki, bütün təbəqələrdən olan insanların Tanrıdan ən ümdə dilәkləri qeyd-şərtsiz məhz Sülh olmuşdur.

Sülh insan kütləsinin əmin-amanlıq şərti olmaqla yanaşı, Kainatı da əhatə edən bir hadisədir. Misal üçün deyək ki, Sülhün əks qütbü, qeyri-sülh şəraitində - müharibələrdə Yer insanları, təbiət, ekologiya, psixologiya qarışıq zədələnirsə, millətlərin gen fondu dağılırsa, bu təsirin kainata mütləq zərbəsi olur. Ən azı fiziki natarazlıq yaranır. Təsadüf və ya zərurət göyün gözlənilməz sayılan



hadisələri başlayır, bəzi dindarların xüsusilə təbirincə "Allahın qəzəbinə gəlir, kimsə, nə isə".

Ona görə də möhtərəm Prezidentin islam dininin əhəmiyyətli bir xüsusiyyəti kimi "sülhə, əmin-amanlığa xidmət etməsini" göstərməsi obyektiv məntiqə əsaslanır.

Heydər Əliyev siyasi fəaliyyətində SÜLH - geniş məfhumu gündəlik mövzudur. Bu mövzu prezidentin demək olar ki, bütün məruzələrinin, nitqlərinin, çıxışlarının, hətta müsahibə, dialoqlarının aparıcı mövzusudur. Bu da bir həqiqətdir ki, bu mövzu bizim xalqa müasiri olduğumuz müasir mərhələdə çox doğma, çox mühüm bir mövzudur.

Heç də təsadüfi deyildir ki, möhtərəm prezidentimiz cənab Heydər Əliyev 1999-cu il noyabrın 3-də Türkiyə Respublikası tərəfindən dünyada sülhü təbliğ etdiyinə görə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülmüşdür.

Torpaqlarımızın 25 faizinin işğal edildiyi, nankor qonşularımızın hər vəchlə hüquqlarımızı pozduğu, uzun illər ərzində dünya ölkələrində formalaşdırdıqları mənfur ideyaların yayıldığı, diasporalarının valyuta imkanları ilə "qatığa qara" demək cəhdlərinin səngimədiyi, ildən-ilə milli ehtirasların coşduğu, hər an müharibə təhlükəsinin gözlənildiyi bir vaxtda SÜLHü müqəddəs bilən hər bir müdrik qoca, yüz ölçüb-bir biçən ağıllı, ağsaçlı ana, körpəsinə süd verən gəlin, nəsil artırmalı oğul, hər cür tələfatdan qorun-

malı qızlar, nəhayət, xoşbəxt böyüməli körpələr, uşaqlar timsalında müharibəyə “dayan!” deyir. Müharibə torpaqların azadlığı, milli mənin əsirlikdən xilası demək isə də Sülh ağıllı siyasət, sivil qələbə olaraq ən tədbirli siyasətçinin “gedişi”, şərəfli qalibiyyət təntənəsidir.

Sülh insanların əmin-amanlığı üçün əsas şərt olmaqla yanaşı dövlət siyasətində də əsas problem məsələlərdəndir. Elə bir dövlət, elə bir dövlət rəhbəri yoxdur ki, Sülh problemi onu düşündürməsin və O, bu tarixyüklü problemi bəşərin mühüm tələbatını - Sülh məsələsini gündəlik fəaliyyəti mərkəzində saxlamamış olsun.

Prezident Heydər Əliyevin də dərin məzmunlu siyasi fəaliyyətində Sülh ən vacib məsələlərdəndir.

Möhtərəm prezidentimizin 1994-cü ilin may ayında imzaladığı Atəşkəs onun xalqı güdaza verməmək məqsədini tam əks etdirən, qansız qələbəyə nail olmaq məramını ifadə edən Sülh siyasətinin ən bariz nümunəsi kimi yaddaşlarda yaşayır.

Bu Sülh məramlı qərar torpaqlarımız üzərində salınmış şəhid qəbirstanlıqlarının sayını birdəfəlik azaltdı. Bu gözəl siyasət gənc, cəsur vətən oğullarının şəhid olmasına, torpaqlarımızın onların qanları ilə sulanmasına yol vermədi. Bununla da dünyanın estetik şüur hadisəsi Ülviliyin varlığının möhkəmlənməsi hadisəsi baş verdi.



Beləliklə deyə bilərik ki, Din, Dil, Sülh insanların maddi və mənəvi ehtiyacları olub, özündə elə əlçatmaz, heyrət dolu hissləri birləşdirir ki, bunlar şüurda arzular, ümidlər, xəyallar və bütövlükdə estetik həyəcanlar yaradır. Bu hadisə isə elmi surətdə təsdiqini qazanmış Ülvilik kateqoriyasının varlığını, mövcudluğunu şərtləndirir.

Estetika tədqiqatçılarının göstərdikləri kimi “Ülvilik - insanda heyrət, pərəstiş, təəccüb, sevinc, fərəh, qorxu hisslərini vəhdətdə oyadan, sonsuz məzmunu konkret fərdi formada ifadə edən estetik hadisədir” [26].

Bu mənada insanların heyrət, məhəbbət, eyni zamanda qorxu, təəccüb hissəlri ilə yanaşdıqları dağ, dəniz, ümman, kəhkəşan və s. kimi onların bütün həyatları boyu düşündükləri, onlara gen yaddaşları vasitəsilə ərmağan edilmiş Dil, Din, Sülh məfhumları da Ülvilik estetik kateqoriyasına tam uyğun gəlir. Bu ülvi hissəlrin hər üçünün insanların mənəvi ehtiyacı olmaları, eyni zamanda hər üçünün insanların əlçatmaz, bu və digər subyektiv səbəbdən qovuşa bilməyəcəkləri ülvi hisslərdir.

Fikrimizin təsdiqi üçün öz milli tariximizdən tutarlı misallar gətirə bilərik. Məsələn, 70 il sovet ideologiyasının təzyiqi altında xalqımızın öz müqəddəs dini ilə istədiyi kimi məşğul ola bilməməsi, öz ana dilindən məhrum olması, dilimizin dövlət statusunun olmaması, bütün idarəçi-

lik sahələrində dil senzləri və s. Dil, Din məsələsinin insanların nə qədər ali, nəhəng arzu və diləkləri olmasını, həmçinin də əlçatmaz, onların öz iradəsi altında, eləcə də olmayan hadisələr fikrini ifadə edir.

Sülh məsələsi. İnsanlar, bəşəriyyət, Sülh, əmin-amanlıq üçün tarix boyu mübarizə aparmış, ona nail olmaq üçün hətta yüzillik müharibələrlə üzləşmiş, lakin yenə Sülh onların öz iradəsi xaricində olan bir faza olaraq əlçatmazlıq kəsb edib, Ülviliyini qoruyub saxlamışdır.

Onu da qeyd etməliyik ki, Ülvilik kateqoriyası ilə Gözəllik kateqoriyası müxtəlif dövrlərdə təbiəti, mahiyyəti, keyfiyyətləri baxımından bərabərləşdirilmiş, bəzən isə dövrün ictimai-siyasi, ümumbəşəri ideyalarından asılı olaraq zamanın "gözəl" təyinində Ülviliyə əsaslanılmışdır. Bunun ən başlıca səbəbi bu iki kateqoriyanın hadisələrə eyni müsbət münasibət prizmasını təyin etmələridir. Müqayisə zamanı daima Ülvilik və gözəllik bir qütbü, digər "ikinci dərəcəli" kateqoriyalar digər qütbü təmsil edirlər. Yəni hər iki kateqoriyanın məzmun mahiyyəti onların daxili əlaqəsini, başqa cür desək, qohumluq münasibətlərini əks etdirir.

Ülvilik kateqoriyasının təhlilləri bir əsas məsələni də əhatə edir. Bu estetika tarixində Ülviliyin eybəcərlik kateqoriyası ilə uzlaşdırılması problemidir.



Belə ki, bəzi tədqiqatçılar Ülviliyin təbiətindəki əlçatmazlıq, sevgi-istək-arzu qarışıq heyrət və qorxunun sintez təsirinin həddən artıq, sonsuz olması faktını misal gətirərək bu və ya digər Ülvi obyektin, məsələn, dənizə qovuşmağın, göyləri fəth etməyin, müharibəni sülhlə bitirməyin insanı bezdirməsini, iyrəndirməsini sübuta çalışırlar. Həmin tədqiqatçıların qənaətincə Ülviliyin əldə edilmədiyi hadisə və vəziyyətlərdə insan həmin arzunu bir daha yaşamaqdan qorxa da bilər. Məsələn, sonsuz məhəbbətlə sevməkdən. Dənizi üzüb, o biri sahilə çıxmaq ehtirasından və s.

Problemi siyasət prizmasında nəzərdən keçirəndə də eyni vəziyyətlə qarşılaşa bilərik. Məgər azmı xalq, millət vardır ki, daxil olduqları coğrafi regionun hakim siyasi sisteminin təzyiqləri altında Dilindən, Dinindən məhrum olmuşdur?! Onların ülvi ana dili, müqəddəs dini əqidəsi ilə yasaqlar bərabər addımlamışdır. Bu xalqlar öz dini ibadətlərini qorxu altında, dəhşətlərlə keçirməyiblərmi? Ana dillərində olan sözləri utana-utana dillərinə gətirməyiblərmi?

Sülhə gəlincə, torpaqları, mənəviyyatları, mədəniyyət abidələri müharibə şəraitində tapdaqlar, bombardmanlar altında olanlar, əlbəttə ki, hər şeydən çox Sülh arzusunda, bu əmin-amanlıq hissi ilə olublar. Müharibə dəhşətləri

yaşayan insanlar nəinki tək özlərinə, öz kiçik ailə cəmiyyətlərinə, öz millətlərinə, hətta irqindən, dinindən asılı olmayaraq bütün dünyaya, bütün bəşəriyyətə, Planetimizin bütün sakinlərinə Sülh diləyiblər.

Diləklər, arzular da öz növbəsində Ülvilik kateqoriyasının ən əsas cəhəti kimi diqqəti cəlb edir.

Hər üç hadisə, dil, din, sülh qeyd-şərtsiz olaraq cəmiyyət həyatına fəal təsir edərək ölkə başçısının müdrikliyi sayəsində öz inkişafının yüksək səviyyəsinə qalxa bilər.

Bu baxımdan artıq tarixinin 10-cu ildönümünü qeyd etmiş, nə qədər gənc olsa da dünyada dövlətçiliyi, müdrik siyasət sistemi ilə tanınmış bir ölkə - Azərbaycan Respublikasında Ülviliyin təbii, qanunauyğun inkişafını hər bir sahədə aydın hiss edib, görmək mümkündür. Təcrübə göstərir ki, dilimizin, dinimizin və sülhün qorunub saxlanmasında, mənəvi dəyərlərin inkişafında respublikamızın prezidenti cənab Heydər Əliyevin misilsiz xidməti var.



# II HİSSƏ

## SİYASƏT VƏ ESTETİK GÖZƏLLİYİN ƏBƏDİ KEYFİYYƏTLƏRİNİN YÜKSƏLİŞ MƏSƏLƏLƏRİ

Estetik kateqoriya olaraq Ülviliyin məzmunu nisbətən konkret olsa da, Estetik gözəllik çox geniş anlayışdır. Bu kateqoriya təbiəti, cəmiyyəti, kainatı, real aləmi və bir çox gözəllik keyfiyyətlərini ifadə edir.

Sənət və insan məsələsi gözəllik ideyasının ən əsas sahələri kimi uzun zamanlar, hətta estetikanın fəlsəfənin daxilində mövcud olduğu dövrlərdə filosofların, sonradan sırf estetika tədqiqatçılarının diqqət mərkəzində dayanmışdır.

Bəşəriyyətin estetik şüurunun inkişafına əhəmiyyətli dərəcədə təsir göstərən Gözəlliyin hərtərəfli, bütünlükdə dəyərləndirilməsi dünyanın əbədi gözəllik ideyasının yüksəlişini tənzimləyir.

İnsanlar estetik gözəlliyi sənət vasitəsilə, onun rəngarəng təbiəti ilə qavrayır, sənət də öz növbəsində ən güclü estetik fəaliyyət sahəsi qismində insanların estetik şüurunun formalaşmasına səmərəli təsir göstərir.

Təsadüfi deyil ki, estetik fəaliyyət sahələrindən teatr kütlə ilə ünsiyyət formalarından biri olub, onun tarixi keçmişi, etnik şüuru, milli psixoloji xüsusiyyətləri haqda ən zəngin təsəvvür yaradır. Teatrın repertuarı vasitəsilə xalqların estetik zövqünü, estetik hissini, hətta ictimai vəziyyətlərinin belə əks olunduğu həyəcanı öyrənmək, xalqın ülvilik, gözəllik təsəvvürlərini, estetik dünyagörüşünün səviyyəsini təhlil edib, qiymətləndirmək mümkün olur.

Eləcə də milli musiqi, milli rəngkarlıq, hətta qrafika, heykəltaraşlıq sahələri xalqın gözəllik idealını dolğun şəkildə ifadə edir.

Bir tərəfdən sənətin inkişaf etdirilməsi, onun yaradıcılarına dövlət qayğısı cəmiyyətdə gözəlin dialektikasını təmin edir. Digər tərəfdən isə dövlət rəhbərinin yeritdiyi müdrik, düşünülmüş siyasətin gözəlliyi məsələsini qüvvətləndirir.

Məlumdur ki, Estetiklik İnsan doğulandan onda ümumi maraq, müxtəlif emosiyalar, müxtəlif hisslər, həyəcanlar şəklində təzahür edir. Bu keyfiyyətlər İnsana, təbiətə, incəsənətə, çoxsaylı hadisələrə münasibətdə dərinləşir, inkişaf edir. İnsanın yaşa dolması ilə bu estetiklik də özünəməxsus təbii formada inkişaf prosesi keçirir.

Estetikliyi müəyyən edən keyfiyyətlər, estetik hiss, estetik zövq, estetik həyəcan və s. müəyyən qrup adamlarda daha qüvvətli olduğundan həmin



adamlar estetik fəaliyyət sahələrinə meyl edir, hətta onlar arasından ən məşhur sənətkar meydana çıxır.

Elə insanlar da olur ki, onlarda uşaqlıqdan özünü göstərmiş güclü estetik keyfiyyətlər sonralar sənətdə ifadəsini tapa bilməsə də heç vaxt yoxa çıxıb, itib getmir. Bu adamların estetik keyfiyyətləri daha böyük ülvi hisslərə çevrilərək onların ömrü boyu yüksək zövq, sənət və sənətkara yüksək qiymət, sənəti fitri təhlil etmə bacarığı kimi üzə çıxır.

Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevin sənətə, sənətkara, ümumiyyətlə, estetik fəaliyyət sahəsinə diqqətli münasibəti, onun uzun illəri əhatə edən siyasi rəhbərlik dövründə yaradıcılıq məsələlərini daima diqqət mərkəzində saxlaması, yaradıcı insanlara, şairlərə, yazıçılara, bəstəkarlara, rəssamlara və digər yaradıcı şəxslərə qarşı qayğı və məhəbbət nümayiş etdirməsi, hətta öz siyasi fəaliyyətində bunun sistem halına salıb, inkişaf etdirməsi dediyimiz fikirləri aydın büruzə verir.

Məsələn, prezidentin bu məzmunda olan çoxsaylı çıxışlarından birinə diqqəti yönəltməklə fikrimizi təsdiqləyə bilərik. Belə ki, H.Əliyevin böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinin və ev muzeyinin yaradılması ilə bağlı müşavirədə çıxışında estetik keyfiyyətlər aydın şəkildə hiss olunur. Həmin çıxışdan, bir qədər geniş olsa da, biz tam qənaət üçün aşağıdakı hissəni nəzərdən keçirməyi zəruri hesab edirik:

"Əgər keçmişi götürsək, Naxçıvanda çox böyük bir tarixi məqbərə vardır - dahi memar Əcəmi Naxçıvaninin əsəri. O, 800 ildir yaşayır. Bu Möminə Xatun məqbərəsidir. Bilirsiniz ki, onun altı qəbirdir. Naxçıvanda belə bir möhtəşəm məqbərəni bizim əcdadlarımız yaradıblar. Bu Azərbaycanın memarlıq tarixində, sənətində ən görkəmli yerlərdən birini tutur. Bəs indiki nəsillər nə üçün belə abidələr yaratmasın? Ona görə də Hüseyn Cavidin cənazəsi Sibirdən gətiriləndə mən məhz bu fikrin tərəfdarı oldum ki, onun qəbri Naxçıvanda olsun. Bir tərəfdə Əcəmi Naxçıvaninin yaratdığı Möminə Xatun məqbərəsi, o biri tərəfdə isə XX əsrdə bizim nəslin yaratdığı Hüseyn Cavid məqbərəsi olsun...

...Əsas fikrim belədir: qəbir məqbərənin içində olsun və orada elə bir şərait yaradılsın ki, insan girib orada ziyarət edə bilsin, qəbrin yanında dursun, düşünsün. Məqbərənin o tərəfdən, bu tərəfdən açıq olmasının tərəfdarı deyiləm. Tarixən yaradılan məqbərələrin də hamısı tamam örtülü olmayıb. Məsələn, Möminə Xatun məqbərəsi tam qapalıdır, ancaq haradansa yuxarıdan bir balaca işıq düşür. Belə də olmalıdır. Bayaq Molla Pənah Vaqifin məqbərəsini ona görə yada saldım ki, o həm qapalı idi, həm də hər yerdən içəri işıq düşürdü. Elə etmək lazımdır ki, bu məqbərənin içində sakit bir mühit olsun. Məqbərə gərək çox böyük olmasın. Hüseyn Cavidin əsərlərindən obrazlarının təsviri də səmimi olsa yaxşıdır.



Mən belə fikirləşirəm ki, bu məqbərəni xaricdən görəndə də gərək fikir cəmlənsin və onun içərisində olanda da fikir dağılmasın. Məqbərənin miqyası da buna uyğun olmalıdır. Şübhəsiz ki, biz bu layihələrdə müasirliyi nəzərə almalıyıq. Həm də burada Azərbaycanın milli memarlıq ənənələri nəzərə alınmalı və orada bunun nəticələri olmalıdır. Bu mütləq lazımdır.

Bax, bu binanı tikəndə də belə oldu. Binanın layihəsinin müəllifləri xüsusən Tahir Abdullayev tez-tez mənim yanıma gəlirdi. Mən dəfələrlə ona demişdim ki, bu binanın tamamilə milli xarici görkəmi olmalıdır. İndi bu binada gördüyünüz milli elementlər barədə biz o vaxt dəfələrlə fikir mübadiləsi aparmışdıq. O zaman mən onu məcbur etdim ki, binanın heç olmasa iki mərtəbəsinin pəncərələri milli üslubda olsun. Məndən olsaydı, o vaxt bu binanı (prezident sarayı nəzərdə tutulur - *X.Q.*) daha da milli görkəmli edərdik. Hər halda hesab edirəm ki, bu bina yaxşıdır, xarici görünüşü gözəldir.

...Bir dəfə rəhmətlik Mikayıl Hüseynova dedim ki (mən arxitektura fakultəsində oxuyarkən, o mənim müəllimim olmuşdur), vaxtilə sizin kitablarda milli ornamentlər var idi. Gətirin baxaq. Sonra Mikayıl Hüseynov və Rasim Əliyev gəldilər, mən kitabdakı həmin ornamentləri onlara göstərdim və xahiş etdim ki, bax, bunları divara salın. İqamətgahın divarında mərmərin üzərində

ornamentlər asmaq çətin idi. Bilirsiniz ki, bu ornamentləri gipsdən və başqa materiallardan düzəldirlər. Lakin Şirvanşahlar kompleksində ornamentlərin hamısı daşın üzərində yonulub və çox gözəldir. İqamətgahın divarları mərmərdən olduğu üçün bu çox çətin idi. Lakin onlar bu işi gördülər... Demək istəyirəm ki, memarlarımızda mühafizəkarlıq var. Bir tərəfdən Azərbaycanın milli ornamentlərini təbliğ edirlər, digər tərəfdən isə bunları öz işlərində tətbiq edəndə nədənsə çətinlik çəkirlər... Amma bu amili də nəzərdə tutaq ki, müasirlik də olsun, ancaq milli memarlıq ənənələri də unudulmasın. Həm gözəl, həm də sadə olsun. Gözəllik eyni zamanda sadə olanda daha gözəl görünür" [27].

Prezident Heydər Əliyev dünyada tək-tək siyasi rəhbərlərdəndir ki, xalqın mədəniyyətinin yüksəlməsinə belə böyük erudisiya ilə yanaşır, sənət adamları ilə sıx dostluq əlaqəsi saxlayır, onlarla mütəmadi görüşlər keçirir, onların sənətini özünün yüksək estetik zövqündən çıxış edərək təhlil edir, qiymətləndirir.

Prezident görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun müəllif gecəsindəki çıxışında sənət adamları ilə dostluğuna əyani bir misal gətirir ki, bu misal həm də ölkə başçısının mədəniyyətimizin inkişafına yüksək qayğısını ifadə edir:



"1973-cü ildə mən belə qərara gəldim ki, onları bazar günü Zuqulbada dəniz kənarındakı dövlət bağına dəvət edim, bir gün onlarla birlikdə olum. Dəvət etdim, Rəhmətlik Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Cahangir Cahangirov, Soltan Hacıbəyov xanımları ilə gəlmişdilər. Tofiq Quliyev, Arif Məlikov və başqaları da orada idilər. Biz bütün günü söhbət etdik. Hesab edirəm ki, çox böyük bir görüş oldu. Bundan sonra münasibətlər xeyli düzəldi. Yaxşı əsərlər də meydana gəldi. Mən sizə deyə bilərəm ki, rəhmətlik Fikrət Əmirovun "Min bir gecə" baleti çox böyük əsərdir və elə o dövrün bəhrəsidir. O cümlədən də Qara Qarayevin sonra yazdığı əsərlər.

Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm. Biz onu qorumalıyıq, ona qayğı göstərməliyik. Onun imkanları çoxdur. Arif bundan sonra da yaratmalıdır. Şübhəsiz ki, o da bu fikirlərlə, hisslərlə yaşayır. Bizim bugünki görüşümüz, bu müəllif gecəsi şübhəsiz ki, ona da çox ilham verəcək və o yeni əsərlər yaradacaqdır" [28].

Bütün bunlar isə Azərbaycan gerçəkliyində estetik səviyyənin siyasətin inkişafına təsirini qüvvətləndirir və beləliklə siyasət və estetikanın əlaqə, münasibət məsələsinə dövlət qayğısını təmin edir.

Möhtərəm prezidentimizin Azərbaycanın müstəqillik dövründə imzalamış olduğu onlarla rəsmi döv-

lət sənədində, 1995-ci ildə qəbul edilmiş yeni Azərbaycan Konstitusiyasına estetik gözəlliyin bizim təhlilinə maraq göstərdiyimiz problemi - təbiətdəki, praktik aləmdəki, ədəbiyyat və sənətdəki, siyasətdəki gözəlliklərə aid dərin məzmunlu, bəşəri əhəmiyyətli qanunların daxil edilməsi həqiqətləri də məhz bu ideyanı, siyasət və estetikanın qarşılıqlı əlaqə, münasibət məsələsini əks etdirir.

Adi bir misal Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin praktik aləmdəki gözəlliyi inkişaf etdirmək məramını təsdiqləyə bilər. Prezident hələ 1993-cü ildə "Sobesednik"ə verdiyi müsahibədə müxbirin "Deməli siz xarakter etibarı ilə yaradıcı adamsınız. Həyatınız boyu heç dağıtmamısınız?" sualına cavab olaraq deyir: "Bakıdakı uçuq-sökük daxmaları dağıtmışam. Adamlar həmin daxmalarda yaşamır - zillət çəkirdilər. Biz həmin adamları abad mənzillərə köçürdük. Həyatım boyu yaxşı çox şey tikmişəm" [29].

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Bakıda inşa edilmiş möhtəşəm binaları, metro stansiyalrını, yolları sadaladıqca qurtarmır. Bu yaradılanlar təkcə gözəlliyə mənəvi-psixoloji olaraq xidmət etmir, həm də təcrübi əhəmiyyəti ilə faydalılıq kəsb edir. Həmçinin də gözəlliklə faydalılığın birləşdirilməsi mahiyyətini daşıyır.

Məsələn, prezident digər bir söhbətində, yazıçı Aleksandr Proxonovla müsahibəsində Naxçıvanın



blokada dövründə, orada olarkən qarşılaşdığı problemləri həll etməsindən bəhs edərkən respublika üçün çox böyük tarixi əhəmiyyətli yol çəkilməsi məsələsini vurğulayır ki, bu da heç şübhəsiz praktik aləmdəki gözəllik məsələsini əhatə edir. O deyir:

"İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən onunla Tehrana gedib yardım barəsində razılığa gəldim. BİZ ELEKTRİK XƏTTİ ÇƏKDİK və İrandan enerji almağa başladıq. Eləcə də yanacaq və ərzaq... Türkiyə prezidenti Dəmirəlin özü mənə 100 milyon dollar kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən onun yanına, Ankaraya uçdum. MƏN TÜRKİYƏYƏ YOL ÇƏKDİRDİM. Araz çayı üstündən körpü saldırdım və mal təchizatını təşkil etdim" [30].

Zahirən o qədər də diqqət cəlb etməyən bu məsələ, təbiətdə və praktik aləmdəki estetikliyin siyasi fəaliyyətlə əlaqəsi dərindən yanaşdıqda mühüm elmi mənbə olub, zəruri təhlillər üçün əsas təşkil edir.

Bu problemi cənab Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 il ərzindəki siyasi fəaliyyəti kontekstində nəzərdən keçirdikdə çoxsaylı faktlar zəminində elmi-obyektiv qiymətləndirmələr üçün imkan əldə edirik.

Bunun üçün əlbəttə ki, ilk növbədə biz təbiətdəki və praktiki aləmdəki gözəlin nədən ibarət olduğunu, onun ideya mahiyyətini müəyyən etməliyik.

Təbiətdəki gözəllik dedikdə qarşımızda heç şübhəsizdir ki, bitib-tükənməyən təbiət, onun əsrarəngiz gözəllikləri gəlir.

Praktik aləmdəki gözəllik dedikdə Yer üzərindəki şəhərlər, kəndlər, metrolar, parklar, abidələr, küçələr, yollar bunların daşıdıqları şəhər quruculuğu, ekologiya, tibb, idman kimi məna gözəllikləri fikrimizdə canlanır.

Bəs təbiətdəki və praktik aləmdəki gözəlliklə Siyasətin əlaqəsi, xüsusilə estetik gözəllik məsələsi ilə siyasi fəaliyyətin əlaqəsi nə ilə xarakterizə olunur?

Fikrimizcə, bu əlaqə üçün gün-gündən çiçəklənən, gözəlləşən Azərbaycanımızın, dünyanın ən gözəl paytaxt şəhərləri ilə müqayisə ediləcək Bakımızın simasını, bir-birindən yaraşıqlı parkları, idman komplekslərini, yaranan tarixi və müasir məzmunlu abidələri, yeniləşən küçələri, yolları, dənizqırağı sahilləri misal gətirmək olar.

Hamıya, bütün Azərbaycan vətəndaşlarına məlum olduğu kimi bu gözəlliklərin rəhni, səbəbkarı, əslində ideyaçısı və yaradıcısı cənab Heydər Əliyevdir.

Bu me'marlıq təkcə mənəvi-psixoloji me'yarlarla deyil, həm də həyati misallarla təsdiqlənir.



Eyni zamanda bu fikir bizim təbiətən insanda olan estetik keyfiyyət məsələsinə münasibətimizə yaxşı misaldır.

Cənab Heydər Əliyev doğrudan da istər rəhbərliyinin birinci dövründə, istərsə də ikinci dövr - Azərbaycanın müstəqilliyi ilə başlayan müasiri olduğumuz illərdə Azərbaycanın bütün şəhərsalma işinin qayğısına əsl vətəndaş, milli lider təəssübkeşliyi ilə qalmışdır. Onun me'mar olmaq arzusu, respublikamızın dövlət quruculuğunda ən əyani misallarla özünü göstərmişdir.

Aşağıdakı sitatda cəmlənən fikirlər isə prezidentin praktik aləmdəki gözəlliyin zənginləşməsinə sistem halında yanaşmasını göstərir. "...Mən mədəniyyətə öz münasibətimi əməli işimlə həmişə bildirmişəm. Vaxtı ilə me'marlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalarda, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam. Bakının və ayrı-ayrı digər şəhərlərimizin tikilməsi, inkişaf etdirilməsi ilə əlaqədar layihələrə memarlarla birlikdə baxıb, zz mülahizələrimi bildirmişəm. Hətta zavod tikiləndə, məsələn, Bakı kondisonerlər zavodu tikiləndə də mən onun memarlıq cəhətdən gözəl olmasına çalışırdım. Həmin zavodda olanlar da görüblər ki, onun xarici görünüşü memarlıq cəhətdən dəyərlidir" [31].

Bütün bunlar deməyə əsas verir ki, ölkə başçısı, cənab Heydər Əliyevin yüksək zövqə malik olması praktik aləmdəki gözəlliyin inkişafına da öz təsirini göstərmiş və gözəl töhvələrlə nəticələnmişdir.

Deməli cəmiyyətin idarə olunmasında, siyasətin gözəl olmasında ölkə başçısının, rəhbərin estetik şüurunun zəngin olması amili də mühüm əhəmiyyət kəsb edir.

* * *

Hər bir şəhərin həyatında muzeylər xüsusi yer tutur. Cənab Heydər Əliyevin bu sahənin inkişafı üçün gördüyü işlər dövlət siyasətinin mühüm qolu olub praktik gözəlliyi, eyni zamanda onun daxil olduğu estetikanın inkişafına dövlət qayğısını əks etdirir.

Azərbaycanda muzey yaradılması ənənəsi də bu problemi əhatə edir. Xalqının mənəvi estetik dəyərlərini öz fəaliyyətində inkişaf etdirən Heydər Əliyev 70-ci illərdən başlayaraq, praktik gözəlliyin fəaliyyət sahəsi olan muzey işinin zənginləşməsinə çalışmışdir. Rəhbərin 1980-ci ildə muzey işinə aid xüsusi qərar qəbul etməsi bunun bariz nümunəsidir.

Bu gün Mədəniyyət Nazirliyi Nəzdində fəaliyyət göstərən Muzeylər idarəsi məhz Heydər Əliyevin respublikada muzey işinin genişlənməsinə diqqətli qayğısını ifadə edir.



Heydər Əliyev özü şəxsən muzeylər, ev muzeyləri, memorialların açılışında iştirak edir, onların inkişafı üçün öz tövsiyyə və tapşırıqlarını verməklə bir daha praktik aləmdəki gözəlliyə, ümumilikdə estetik gözəlliyə münasibətini bildirir.

"Heydər Əliyev və muzeylərimiz" adlı kitab Azərbaycan Prezidentinin bu sahədəki fəaliyyətinin yığcam salnaməsi kimi diqqəti cəlb edir. Kitabdan oxuyuruq:

"Heydər Əliyevin yaradıcı insanlara qayğısı göz qabağındadır. Ayrı-ayrı şəxsiyyətlərə abidələr ucaldılması, onların yubileylərinin yüksək səviyyədə keçirilməsi və bu tədbirlərdə Heydər Əliyevin şəxsən iştirakı onun mədəniyyətimizə tükənməz məhəbbət və qayğısının ifadəsidir. Məhz onun təşəbbüsü ilə Azərbaycan xalqının yetirdiyi böyük şəxsiyyətlərin - Üzeyir Hacıbəyovun, Səməd Vurğunun, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Bülbülün, M.S.Ordubadinin, Niyazinin xatirə muzeyləri yaradılmış və muzeylər mədəni irsimizin toplandığı və qorunduğu müqəddəs yerlərə çevrilmişdir" [32].

Muzeylərin yaradılması həm də öz-özlüyündə sırf estetik mahiyyət kəsb edən hadisədir. Ona görə ki, bu və ya digər şəxsiyyətə həsr olunan ev muzeyləri xalqın mənəvi-estetik hissini onunla tanış olmağa gələn nəsillərə ötürür. Bu memorialların estetik quruluşu, estetik məzmunu da bu fikri sübut edə bilər.

"Heydər Əliyev və muzeylərimiz" kitabından bir neçə xarakterik misalla tanış olaq. "Bəstəkarın iş otağı... (Üzeyir Hacıbəyovun ev muzeyinin ekspozisiyası nəzərdə tutulur - *X.Q.*) Neçə-neçə ölməz sənət əsəri, ən məşhur konsert salonlarını ehtizaza gətirən nümunələr, o cümlədən Azərbaycan musiqi mədəniyyətinin incisi sayılan "Koroğlu" operası burada yaradılmışdır. Bəstəkarın yuxusuz gecələrinin şahidi olan qara royal elə bil öz sahibinin yolunu gözləyir. Gözləyir ki, Üzeyir bəy yenidən gəlib yeni bir əsər yaratsın";

"...Böyük Bülbülün maqnitafon lentinə yazılmış əzəmətli səsi otaqlara yayıldı. Koroğlu xalqımızı birliyə, mərdliyə, parlaq gələcəyə səsləyirdi" [33].

Azərbaycanda 1982-ci il martın 23-ü "Cəfər Cabbarlı günü" də sayıla bilər. Məhz həmin gün Bakı şəhərində dramaturqun abidəsinin və ev muzeyinin açılışı olmuş, təntənəli yubiley gecəsi keçirilmişdir. Abidənin ucaldılmasının da, muzeyin yaradılmasının da, yubiley gecəsinin də təşəbbüsçüsü Heydər Əliyev idi və o özü bu mərasimlərdə iştirak edirdi.

Heydər Əliyevin ayrı-ayrı sənətkarların həyat və yaradıcılığına həsr olunmuş ev muzeylərinin yaradılmasında olduğu kimi bütün respublikamız boyunca genişlənmiş, gözəl bir təntənəyə çevrilmiş tarix-diyarşünaslıq muzeylərinin açılmasında da böyük və səmərəli təsiri olmuşdur.



1980-ci ildə qəbul edilmiş muzeylər haqqında qərarın tərkib hissəsi olan tarix-diyarşünaslıq muzeyləri şəbəkəsi bu gün də öz əhəmiyyətini qoruyur.

1980-1982-ci illərdə respublikanın rayon mərkəzlərində 30-dək yeni tarix-diyarşünaslıq muzeyləri yaradıldı. Həmin vaxtlar Astara, Ağcabədi, Neftçala, Salyan, Yardımlı, Şərur, Ordubad, Şahbuz, Qusar, Sabirabad, Oğuz, İsmayıllı, Qax, Laçın, Qubadlı və s. tarix-diyarşünaslıq muzeyləri ilk tamaşaçılarını qəbul etdi.

Heydər Əliyev bu muzeylərlə maraqlanır, imkan olduqca yeni yaradılan ekspozisiyalarla tanış olur, öz münasibətini bildirir, lazımi məsləhətlər verirdi. O, 1981-ci ilin sentyabr ayında Cəlilabad tarix-diyarşünaslıq muzeyinin açılışında iştirak etdi [34].

Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıtmasından sonra muzeylərə qayğı və diqqət yeni məzmun kəsb etmişdir.

Keçmiş V.İ.Lenin adına Mərkəzi Muzeyin Bakı filialının və keçmiş Bakı Şəhər Partiya Komitəsinin binalarının R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinə, habelə Azərbaycan Xalçası və Xalq tətbiqi sənəti, teatr, Azərbaycan İstiqlal və Din tarixi muzeylərinə verilməsi buna yaxşı misaldır.

Bundan başqa Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə yeni bina verilmiş, Nizaminin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin xatirə ev

muzeyləri açılmışdır. Respublikamızda Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsi yaradılmışdır.

Azərbaycan prezidenti, yuxarıda da qeyd etdiyimiz kimi, fitrən yaradıcı şəxsiyyət olduğuna görə, həm də dövlət quruculuğu işində siyasi və mə'nəvi gözəllik amillərini birləşdirdiyi üçün, şəhər və rayonlarımızın xarici görünüşünün estetik gözəlliyinə böyük diqqət yetirir.

Hələ 70-ci illərdə ölkənin (SSRİ-nin!) neft planını artıqlaması ilə yerinə yetirən, dövlət büdcəsinə yüz milyardlarla xeyir verən Bakının neft zavodlarının köhnə avadanlıqlarla işləməməsi üçün əsl vətəndaş qayğısı, diqqəti, ən əsası isə təəssübü göstərən Heydər Əliyev müasir avadanlıqlarla təchiz olunmuş iki böyük neftayırma zavodunun tikilməsinə nail oldu.

Bunun ardınca respublikanın ayrı-ayrı şəhər və rayonlarında, məsələn, Naxçıvan MR-də, Gəncədə, Mingəçevirdə, Əli Bayramlıda, Sumqayıtda və başqa şəhərlərdə elektrotexnika, cihazqayırma, dəzgahqayırma, kimya zavodları yaradıldı.

Artıq 80-ci illərin ortalarında Azərbaycanda 300-ə yaxın yeni zavod, fabrik və müxtəlif müəssisələrin fəaliyyət göstərməsi respublikada iqtisadiyyatın inkişafından xəbər verirdi.

Yaradılan böyük sənaye müəssisələrinin və elm ocaqlarının hesabına ölkəmiz gün-gündən daha da



gözəlləşir, estetik görkəmini tədricən dəyişirdi. Yeni salınmış gözəl binalar, mikrorayonlar, xiyabanlar, görkəmli şəxslərə ucaldılmış abidələr və bir çox maddi mədəniyyət nümunələri Azərbaycanı dünyada tanıdırdı.

Bu nəhəng yaradıcı prosesdə 1979-cu ildə Bakıda inşa edilən Kondisionerlər zavodu öz əhəmiyyəti ilə diqqəti xüsusilə cəlb edir.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin şəxsi təşəbbüsü hesabına Bakıda tikilən Kondisionerlər zavodu analoqu olmayan bir sürətlə, iki il müddətinə tikilib istifadəyə verildi. Zavodun əhatə etdiyi 155 min kv.m sahədə 4 min texnoloji və texniki avadvnlıq quraşdırılmış, min km-ə yaxın boru və kabel xətti çəkilmişdi.

Həmin illərdə Bakı heç vaxt görmədiyi geniş quruculuq işlərinin şahidi olurdu. Bütün tikililərin adı qarşısında isə möhtəşəm "Bakı" sözü yazılırdı: Bakı məişət kondisionerləri zavodu, Bakı məişət soyuducuları zavodu, Bakı "Azon" zavodu, Bakı şampan zavodu, Bakı "Ulduz" zavodu, Bakı dərin dəniz özülləri zavodu və s.

Şəhərin "insan ayağı dəyməyən" yerlərində böyük siyasətçi-memar Heydər Əliyevin düşüncəsi ilə yaradılan yaşayış massivləri də insanların estetik zövqünü oxşayırdı.

Belə ki, 70-ci illərdə Bakının 8-ci kilometr, Musabəyov, Əhmədli, Günəşli, Hövsan, Xırdalan, Bakıxa-

nov (keçmiş Razin) kimi iri çoxsaylı insan yaşayan qəsəbələri yaradıldı.

Heydər Əliyev dar, yastı, işıqsız, kommunal şəraiti olmayan evlərdə (əslində komalarda) yaşayan insanları yeni, müasir, çoxmərtəbəli evlərə köçürməklə, həm də doğma torpağın hər qarışının qiymətli olduğunu vətəndaşlara anlatdı.

Bu gün minlərlə ailə Əhmədlini, Musabəyovu (Yeni Yasamalı) özünün doğma ünvanı hesab edir, nəvələrini paytaxta yola salır. Paytaxt da öz növbəsində dünyanın bir çox dövlətlərində seçilən şəhərlər ilə müqayisədə qalib gələcək görkəmini Heydər Əliyevin hakimiyyəti illərində zənginləşdirmişdir. Bakıda inşa edilmiş Respublika (vaxtilə Lenin sarayı), "Gülüstan", "Əl oyunları" sarayları, Xoreoqrafiya məktəbi, "Azərbaycan", "Abşeron", "Moskva", "Təzə İnturist", "Qarabağ", "Bakı" və s. mehmanxanaları, "Bakı" univermağı, "Moskva" univermağı, Sirk, Aktyor evi, Bakı bulvarı, Dağüstü park, Milli Məclisin (keçmiş Ali Sovet) binası, onlarla bank və ali məktəb binaları və s. bunlara yaxşı misaldır.

Yuxarıda qeyd etdiyimiz metropoliten yaradıcılıq kompleksi də bu dediklərimizin sırasına daxildir.

Məhz Heydər Əliyevin ciddi tələbkarlığı, qayğısı nəticəsində 70-ci illərdə "Ulduz", "Əzizbəyov", "Avrora", "Qara Qarayev", "Neftçilər", "Nizami", "Elmlər akademiyası", "İnşaatçılar", "20 Yanvar", "Memar Əcəmi" metro stansiyaları yaradılaraq şəhərimizə müasirlik, gözəllik, insanlarımıza rahatlıq bəxş etmiş oldu.



Qürur hissi ilə qeyd etmək istəyirəm ki, doğulub böyüdüyüm və uzun illər sakini olduğum Sabunçu (keçmiş Lenin) rayonundan 70-80-ci illərdə Azərbaycan Respublikası və SSRİ Ali Sovetinə dəfələrlə deputat seçilmiş Heydər Əliyev öz seçicilərinin sosial problemlərinin daim qayğısına qalmış, onların yaşayıb çalışdıqları rayonun da gözəlləşməsi üçün səylərini əsirgəməmişdir.

Heydər Əliyevin Sabunçu rayonu üçün gördüyü işlər də praktik aləmdəki gözəlliyin səviyyəsini xeyli artırmışdır.

19 il fasiləsiz olaraq Sabunçu rayonunun sakinlərini dövlətin ən ali qanunvericilik orqanında təmsil edən Heydər Əliyev hələ bundan sonra da çox yaşayacaq binaların inşa olunmasında təşəbbüsçü, memar və təşkilatçı olmuşdur.

Respublikada yaxşı tanınan Keyfiyyət evinin binası, Bakı Qaz Aparatları zavodu, Sabunçu rayonunda tikilmiş iki monumental körpü, neçə-neçə təhsil ocağı, yenidən qurulan Bakı fəhləsi və Zabrat maşınqayırma zavodu, Geofizcihaz istehsalat birliyi, Balaxanı neft idarəsi və başqa müəssisələr, yaşayış evləri və s. tikililərə görə rayon zəhmətkeşləri Heydər Əliyevə minnətdarlıq hissi bəsləyirlər.

Bu sadalanan faktlara bütün şəhərimiz və eləcə də respublikamızın şəhər və rayonları boyunca salı-

nan yolları, yolətrafı bəzək işlərini əlavə etsək, hələ 70-80-ci illərdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin doğma respublikasını necə bir fədakarlıqla gözəlləşdirdiyinin şahidi olarıq.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə respublikamız, şəhərlərimiz öz simasını birə on qat gözəlləşdirdi. Ən müasir standartlara uyğun şəhərsalma işləri nəticəsində bu gün Azərbaycan dünyada seçilən ölkələrlə müqayisə olunacaq qədər gözəldir.

* * *

Praktik aləmdəki gözəllik sahələrindən biri və ən çox tanınanı kitabxanalardır. Tarixi çox qədimlərə gedən və yaradıcıları dünyanın ən məşhur şəxsiyyətləri olan (məsələn, Rusiyada Yaroslav Mudrıy, Azərbaycanda Nəsirəddin Tusi, Şah İsmayıl Xətai və b.) kitabxanalar ensiklopedik tutumlarına görə də ictimai istifadə üçün olan mədəni-maarif müəssisələridirlər.

Bu tarixi, praktik gözəllik sahəsini inkişaf etdirmək müdrik insanların əməli, dahi şəxsiyyətlərin məqsədi olmuşdur.

Azərbaycanda kitabxanaların zənginləşməsi, onların qorunması işi təkcə maddi problem kimi deyil, həm də dərin mahiyyət kəsb edən mənəvi məsələ olaraq prezident Heydər Əliyevin dövlət siyasətində diqqəti cəlb edirdi.



Təkcə 1999-cu ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanununu yada salmaq kifayət edər ki, respublikamızda bu gözəllik sahəsinə dövlət qayğısına qiymət verilə bilsin.

Azərbaycan prezidenti Heydər Əliyev bu qanunun qüvvəyə minməsi barədə 12 mart 2000-ci il tarixli fərmanı ilə bir sıra nazirliklər qarşısında kitabxana işinin gücləndirilməsi vəzifəsini qaldıraraq kitabxanalara diqqət və qayğısını ifadə etmişdir.

Qanunun hər bir müddəası və ayrı-ayrı bəndləri də bunu təsdiqləyir.

"Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri" adlı maddə 3-lə tanışlıq respublikada kitabxanalara dövlət qayğısını əyani öyrənməyə tam imkan verir.

Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

- Kitabxanalarda mühafizə olunan mədəni sərvətlərdən və informasiya vasitələrindən istifadə olunması hamı üçün əsas olması;
- Milli sərvət olan kitabxanalara dövlət qayğısı, onların fondlarının toxunulmazlığı və üstün maliyyələşdirilməsi.

Kitabxana işi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

- Kitabxana işinin inkişafına dair Dövlət Proqramının hazırlanması və həyata keçirilməsi;

- Kitabxana fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının qəbul və tətbiq edilməsi;

- Kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internetdən və s.) istifadəsi və milli fondların həmin sistemlərdə əks olunması;

- Milli və dünya sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması;

- Dövlət kitabxana fondlarının mühafizəsi və inkişafı, dövlət kitabxanalarının milli və xarici ədəbiyyatla ardıcıl təchizatı sisteminin yaradılması;

- Xarici ölkə kitabxanalarında saxlanılan, milli sərvət hesab olunan nadir kitabların və əlyazmaların (imkan olmadıqda surətlərinin) Azərbaycan Respublikasına qaytarılmasına təmin olunması;

- Dövlət kitabxana binalarının tikilməsi, əsaslı təmiri, dövlət kitabxanalarının müasir avadanlıq və texniki vasitələrlə təchiz edilməsi;

- Kitabxana işinə dair elmi tədqiqatların və metodik tədbirlərin həyata keçirilməsinə köməklik göstərilməsi;

- Kitabxana kadrları hazırlayan və ya onların ixtisasının artırılmasını həyata keçirən təhsil müəssisələrinin yaradılması və fəaliyyətinin təşkili;

- Təbii fəlakət, silahlı münaqişə və müharibə zamanı kitabxana fondlarının mühafizəsinin təşkil olunması;



- Qeyri-dövlət kitabxanalarının inkişafına şərait yaradılması;

- Kitabxana işinə dair dövlət standartlarının müəyyən olunması;

- Kitabxana fondlarının statistik uçotunun aparılması" [35].

Bu və digər bu kimi mühüm müddəalar cənab Heydər Əliyevin dövlət siyasətində aparıcı olub, onun məruzə və çıxışlarında, kitabxana işçiləri ilə görüşlərində dolğun şərh olunmuşdur. Heydər Əliyevin müstəqillik illərindəki hakimiyyəti dövründə M.F.Axundov adına Dövlət Kitabxanasında keçirilən tədbirlərdə iştirakı, məzmunlu çıxışları, xalqın mənəvi xəzinəsi olan kitabxanalar və onların qoruyucusu - kitabxana işçiləri haqda müsbət fikirləri, respublikada kitabxana işinin yüksəldilməsi üçün qabaqcıl ideyalar irəli sürməsi faktı da bunu əyani surətdə sübut edir.

Prezident belə görüşlərdən birində - "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabının təqdimat sərgisində çıxışında kitabxananı "xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi" hesab etdiyini bildirir, həmçinin "kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" [36], deyərək hamını kitabxanalara, burada çalışanlara hörmət və ehtirama çağırır.

Yeri düşmüşkən qeyd edək ki, cənab Heydər Əliyev kitab nəşri haqda da dəyərli fikirlər söyləmişdir. Bu fikirlərdə kitab yaradıcılığının əhəmiyyəti göstərilməklə bərabər qarşıda duran problemlər də işıqlandırılır və onların həlli yolları göstərilir.

Məsələn, Prezidentin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında təşkil olunmuş həmin təqdimat mərasimindəki çıxışında mühüm əhəmiyyət kəsb edən tövsiyələrini vermişdir:

"Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunun əsas vəzifələrimdən biri sayıram" [37].

Prezident Heydər Əliyevin dövlətin mənəvi kitab xəzinəsinə diqqət və qayğısı onun Dövlət Kitabxanasına özünün qiymətli kitablarından ibarət dolğun bir kolleksiyanı bağışlamasında da öz ifadəsini tapmışdır.

Bütün bunlar deməyə əsas verir ki, ölkə başçımız cənab Heydər Əliyevin dövlət siyasətində estetikanın əsas kateqoriyası bəşər düşüncəsinin



mühüm sahələrindən biri olan praktik aləmdəki gözəllik həmişə dövlət qayğısı ilə əhatə olunmuş, inkişaf etdirilmişdir.

Bu isə dünya sivilizasiyasında iki böyük ictimai hadisənin - dövlət idarəçiliyi və estetik şüurun təsir, əlaqə və münasibətlər məsələsinin gerçəkliyini üzə çıxarır.

Fikirlərimizi bir yerə cəmləyərək deməliyik ki, bu sintez hadisə mahiyyət etibarı ilə Azərbaycanın dövlət rəhbəri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində sistem halına düşmüş, təcrübi mənada öyrənilməsi üçün elmi şərtlər yaratmışdır.

* * *

Azərbaycan Respublikasının prezidenti, Heydər Əliyevin ədəbiyyat və incəsənətimizin inkişafı, yüksəlişi naminə görmüş olduğu işləri öz məzmununa görə XIX əsr Azərbaycan maarifçilərinin fəaliyyəti ilə müqayisə etmək olar. Hətta bu xidmət, bu fəaliyyət XIX əsrin görkəmli ədib və sənətkarlarının başladıqları milli mədəniyyət proqramının XX əsrdə ən parlaq və dolğun hissəsidir.

Diqqət yetirək. Maarifçilər yenilməz bir enerji ilə Azərbaycan ədəbiyyatının inkişafını istəyir və buna çalışırdılar. Azərbaycan maarifçiləri Azərbaycanda söz yaradıcılığının, publisistikanın olmasını is-

təyir və buna səy göstərirdilər. Maarifçilər Azərbaycanda dünyəvi teatrın yaranmasını, qüvvətlənməsini arzulayır və bunun üçün bütün imkan və qüvvələrini sərf edirdilər.

Biz bu prinsiplərin həyati ifadəsini cənab Heydər Əliyevin uzun illəri əhatə edən dövlət quruculuğu işlərinin dolğun məzmununda aydın görürük.

Möhtərəm Heydər Əliyev cənablarının mədəniyyətə, ədəbiyyata qayğı, diqqəti sadə xarakterdə sistem səciyyəsində formalaşmışdır.

Belə ki, Heydər Əliyevin yeni məzmunlu maarifçiliyi milli-mənəvi qaynaqlarımızı, folklorumuzu, zəngin klassik irsimizi, müasir dövrdə yaranan bədii yaradıcılıq əsərlərimizi, həmçinin çoxsahəli estetik fəaliyyəti əhatə edib, ümumilikdə estetik fikrimizin inkişafını müəyyənləşdirir.

Azərbaycan estetik fikrinin tanınmış nümayəndələrindən biri Cəfər Cəfərov özünün "Estetik fikir tariximizdən" əsərində göstərir ki, "Azərbaycanda estetik fikir bədii yaradıcılıq və sənət təcrübəsi ilə üzvi surətdə bağlı olmuşdur. Konkret bədii təcrübəyə, sənətkarın estetik baxışları haqqında mühakimə yürütməyə imkan verən bədii əsərlərə əsaslanmadan Azərbaycanda estetik fikrin inkişafına dair tam təsəvvür əldə etmək mümkün deyil" [38].

Alimin "bədii təcrübə, sənətkarların estetik baxışları haqda mühakimə yürütməyə əsas verən əsərlər Azərbaycanda estetik fikrin inkişafına



dair tam təsəvvür yaradır" fikrinə əsaslanaraq qeyd etmək istəyirik ki, Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin milli bədii yaradıcılıq tariximizi təhlilləri estetik fikrimizin inkişafını dolğun şəkildə və elmi obyektivliklə işıqlandırır və onun bu məzmunda olan dərin əhəmiyyətli fikirləri elmi estetik qiymətləndirmələrin mənbəyinə tam məsuliyyətlə çevrilə bilər.

Belə ki, Heydər Əliyev folklor-xalq yaradıcılığı qədər milli klassikanı, klassika qədər müasir ədəbi-bədii irsi, eyni zamanda miniatür və memarlığı, rəssamlığı və qrafikanı, o cümlədən musiqini, kinonu, teatrı və s. hərtərəfli şəkildə tarixi və nəzəri tərəfdən təhlil edib, dəyərləndirmişdir.

Onun bu sahədə təhlilləri zəngin bir tədqiqat əsərini xatırladır və Azərbaycan estetik fikri haqda dolğun bir elmi monaqrafiya təsiri oyadır.

Onu da qeyd edək ki, bu irs artıq alim və tədqiqatçıların diqqətini cəlb edir, meydana çıxarılan ədəbiyyatşünaslıq, sənətşünaslıq və s. tədqiqat əsərlərində istifadə olunur.

Heydər Əliyevin təhlilləri əsasında yaradılmış bu estetik irsi "Heydər Əliyevin estetik görüşləri" kimi də səciyyələndirmək olar.

Heydər Əliyev hələ 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında bədii yaradıcılıqda milli ideya məsələsini

qaldırır, bu mühüm problemi bir filosof, estetik-alim kimi dərindən və obyektivliklə qiymətləndirir. Əslində Heydər Əliyev bu nitqində filosof-estetiklərimizdən əvvəl, öncül olaraq bu milli əhəmiyyət kəsb edən hadisəyə münasibət bildirir: "Hesab edirəm ki, müstəqil Azərbaycan Respublikası marksizm-leninizm ideyasına bir daha qayıtmamalıdır. Ancaq eyni zamandi biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. İndiki ideyamız isə milli, tarixi ənənələrini, millətimizin keçdiyi tarixi yolu ulu babalarımızın yaratdıqları ümumi bəşəri dəyərlər əsasında - Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir. Əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyim şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdir" [39].

Heydər Əliyev milli tarixi, babalardan miras qalmış mənəvi irsi özü bir nümunə olaraq hifz etmək yolu ilə gedir, hər bir milli ənənənin yaşaması, gənclərə, gələcək nəsillərə ərməğan edilməsi üçün çalışır.



Bu baxımdan dövlət rəhbərinin Novruz bayramının milli dövlət bayramı kimi qeyd edilməsi haqda fərman imzalaması xarakterikdir.

Prezidentin Bakının Gənclər meydanında, Qoşa Qala qapısı önündə ənənəvi olaraq keçirilən Novruz şənliklərinə qoşulması, baharın ilk günündə Bakı zəhmətkeşləri ilə bərabər Novruzu qarşılaması xalqımızın yaddaşında ən unudulmaz xatirə kimi yaşayır və yaşayacaqdır.

Bu şənliklərdə prezidentin söylədiyi nitqlər isə milli mədəniyyətimiz, estetik fikir tariximiz üçün xüsusi əhəmiyyət kəsb edir.

Belə nitqlərinin birində Heydər Əliyev deyir: "...Bu bayram əsirlərdən-əsirlərə bizim milli, dini adət və ənənələrimizi yaşadıb bu günlərə çıxaran bayramdır. Buna görə də Novruz bizim ümumdövlət, ümummilli bayramımızdır, ümumxalq bayramımızdır. O da məlumdur ki, ümumxalq, ümumdövlət, ümumölkə alimləri hər bir insan ilə, hər bir vətəndaşla bir olanda bayram da daha yüksək səviyyəyə qalxır, insanlar da bir-biri ilə daha sıx ünsiyyətdə olurlar. Bu bayram bizim ənənələrimizi əsirlər boyu yaşadıb bu günlərə gətirdikləri kimi bu gün də bizi birləşdirir, daha da həmrəy edir, xalqımızda daha möhkəm birlik yaradır və birlik yaratmağa xidmət edir" [40].

Heydər Əliyev Novruz bayramını həmrəylik kimi qiymətləndirməklə bərabər, onu ümumbəşəri bir hadisə hesab edir. Prezidentin aşağıdakı fikirləri Novruz bayramının fəlsəfi təhlili səciyyəsində olması ilə böyük maraq doğurur:

"Novruz bayramı həm bu dünyada yaşayanların, həm də bu dünyanı tərk edən insanların ruhunun bayramıdır. Ona görə təsadüfi deyildir ki, bu bayram ərəfəsində və günlərin birində hər bir insan öz əcdadını, babasını, dünyadan getmiş qohum-əqrabalarını yada salır, dünyadan köçmüş insanların qəbri üstünə gedir, onların ruhlarına dualar oxuyurlar. Yenə də deyirəm, bunlar hamısı Novruz bayramının nə qədər insani bayram olduğunu, hər bir azərbaycanlı üçün əziz bayram olduğunu göstərir" [41].

Folklorşünas alim, filologiya elmləri doktoru Məhərrəm Qasımlının Azərbaycan prezidenti Heydər Əliyevin sistemləşmiş humanitar siyasətini təhlil edərkən gəldiyi elmi qənaətlər də siyasət və estetikanın dinamik əlaqəsindən xəbər verir. Alim "Heydər Əliyev və Azərbaycan folkloru" elmi oçerkində yazır: "Xalqımızın əsrlər boyu yaradıb yaşatdığı zəngin milli-mənəvi sərvətlərin qorunub saxlanması və dəyərləndirilməsi istiqamətində müxtəlif zamanlarda çeşidli tədbirlər həyata keçirilsə də, bu sahədə sistemli və irimiqyaslı fəaliyyətə 70-ci illərdə başlanılmışdır. Memarlıq, xalçaçılıq, xalq musiqisi, folklor və etnoqrafiya kimi müxtəlif istiqamətləri cəmləşdirən milli-mənəvi dəyərlər kompleksi xatırlanan mərhələdən etibarən əlahiddə bir qayğı və diqqətlə əhatələnmişdir. 70-ci illərdə Heydər Əliyevin müdrik və uzaqgörən bir rəhbər kimi Azərbaycanda yeritdiyi siyasətin tərkibində xüsusi bir yer tutan humanitar istiqamət məhz belə bir iqlimin yaranmasına səbəb olmuşdur" [42].



Müstəqillik dövründə bu humanitar istiqamətdə hər şeyin başlanğıcdan, ənənədən, yenidən öyrənilməsi, dəyərləndirilməsi, zəruri bir vəzifə olduğundan, vaxtilə sırf marksist-leninçi ideoloji mövqedən qeyri-obyektivliklə qiymətləndirilmiş və ya heç qiymətləndirilməmiş, tədqiq-təhlillərdən uzaqda qalmış xalq yaradıcılığımız sahəsində canlanma, müşahidə oyanmağa başlandı ki, bu da öz növbəsində mühüm əhəmiyyət daşıyan dövlət qərarları, fərmanları ilə reallaşdı.

Respublikada böyük türk abidəsi Kitabi-Dədə Qorqudun 1300 illiyinə həsr olunmuş beynəlxalq simpozium haqqında dövlət fərmanı və bu istiqamətdə respublikamızın və eləcə də dünyanın bir sıra tanınmış elm, mədəniyyət ocaqlarında Dədə Qorqud tədbirlərinin təşkil olunması buna yaxşı misaldır.

Qorqudşünaslığın qısa bir müddətdə yenidən canlanması və yeni dövrün milli ideya təsirinə uyğun olaraq daha sanballı tədqiqat əsərlərinin meydana çıxarılması dövlət rəhbərimiz cənab Heydər Əliyevin türk xalqlarının estetik şüurunun nəhəng və ca-

zibədar bir abidəsinə - bütövlükdə nəhəng milli-mənəvi estetik dəyərimizə vətəndaş münasibətini dolğun surətdə ifadə edir.

Dövlət rəhbəri, dünya şöhrətli siyasi xadim H.Əliyev gərgin iş şəraitində dönə-dönə "Dədə Qorqud" yubileyi tədbirlərinin keçirilməsi ilə maraqlanır, sədrlik etdiyi "Kitabi-Dədə Qorqud dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyası"nın iclaslarında görülən işlərlə tanış olub özünün tövsiyyələrini verməklə bu mühüm mənəviyyat məsələsinin dövlət əhəmiyyəti daşıdığını əyani surətdə göstərir.

1999-cu ilin 17 fevral tarixində keçirilmiş "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyası"nın iclasında cənab Heydər Əliyevin nitqləri fikrimizin tədqiqi üçün ciddi əsas ola bilər.[1]

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin Yunesko xətti ilə keçirilməsi qərarının şəxsən təşəbbüskarı olan cənab Heydər Əliyev bütün mənəvi dəyərlərimizin dünyada səs salmasına, Azərbaycan adlı müstəqil dövlətin qədim tarixi keçmişini, dünyəvi mədəniyyətin beşiyi olduğunu sübut etməyə çalışır. Bu isə əlbəttə ki, siyasətlə estetikanın harmonik əlaqəsindən qidalanaraq Azərbaycan gerçəkliyindəki dövlət quruculuğunun uğurlu inkişafını təmin edir.

İkinci bir tərəfdən milli qürur, dərin vətəndaşlıq

1. Bax: Azərbaycan qəz., 18-19 fevral 1999-cu il.



hissi Azərbaycan prezidentinin tamamilə özünəməxsus öndər-lider şəxsiyyətinin əsas xüsusiyyəti kimi daim diqqəti cəlb edir. İstər milli ədəbi-bədii yaradıcılıqdan, istərsə də digər estetik fəaliyyət sahələrinin tarixindən bəhs edərkən prezident Heydər Əliyevin bu mənəvi xəzinəyə görə qürur hissi keçirdiyi aydın surətdə duyulur.

Məsələn, Heydər Əliyev 1993-cü ildə Azərbaycan EA-da ziyalılarla görüşündə demişdir: "1873-cü ildə Nəcəf bəy Vəzirov və başqa böyük şəxsiyyətlərimiz ilk Azərbaycan teatrını, Şərqdə ilk teatrı yaratdılar, özü də o şəraitdə, dini təzyiqin mədəniyyətimizə məhdudiyyətlər qoyduğu bir vaxtda. 1973-cü ildə biz bütün dünyaya car çəkdik və böyük iftixar hissi ilə Şərqdə ilk müsəlman teatrının 100 illiyini qeyd etdik" [43].

Elə həmin çıxışdan başqa bir misalla tanış olaq: "...Hacı Zeynalabdin Tağıyev, Allah rəhmət eləsin, vaxtilə teatr binası qoyub getmişdir. Sonra isə o bina dağıldı. İndi yenidən tikinti işləri yaxşı gedir, ancaq binanın memarlığına baxanda narahat oldum. Axı Azərbaycanın böyük memarlıq, rəssamlıq məktəbi var. 800 il bundan əvvəl Azərbaycan memarları bütün Şərqdə məşhur olan abidələr yaratmışlar. Əcəmi Naxçıvaninin yaratdığı abidələr təkcə Naxçıvanda deyil, Şərq ölkələrinin bir neçəsində indi də qalmaqdadır. Şirvanşahlar sarayını tikən memarlar öz işlərinə əsl milli təfəkkürlə yanaşmışlar" [44].

Heydər Əliyev ümumtürk mədəniyyəti haqda da milli təəssüb hissi ilə danışır, böyük türk ailəsinin yaratmış olduğu əsərləri, yetirmiş olduğu sənətkarları, alimləri sonsuz qürur hissi ilə dəyərləndirir.

"Manas" dastanın 1000 illiyinə həsr olunmuş təntənəli yığıncaqdakı çıxışında prezidentin söylədiyi fikirlər bu qəbildəndir: "Manas"ın dili bizim hamımızın dilidir. Biz bir kökdən, bir dildən olan xalqlarıq. Ancaq əsrlərdən-əsrlərə dilimizdə müəyyən fərqlər yaranmışdır. Bir-birimizi qəlbən duyur, qəlbən anlayırıq" [45].

Filologiya elmləri doktoru M.Qasımlının aşağıdakı sitatda cəmləşən elmi qənaətləri Heydər Əliyevin folklorumuzu, klassik irsimizi, bütövlükdə mədəniyyətimizi dünyaya tanıtmaq məramı haqqında düşüncələrimizi bir daha təsdiqləyir. Alimin bir az əvvəl nəzərdən keçirdiyimiz "Heydər Əliyev və Azərbaycan folkloru" oçerkindən oxuyuruq:

"Dilimizin, ruhumuzun incəliklərinə, tariximizin dərin qatlarına, ədəbi-mədəni abidələrimizə müdrik meyarlar və dəqiq elmi-nəzəri ölçülərlə qiymət verən Heydər Əliyev təkcə Azərbaycan hüdudlarında dəyərləndirmələr aparmır. Onun mülahizə və düşüncələri Azərbaycan mənəvi-mədəni gerçəkliklərini Şərq mədəniyyəti kompleksi, ümumtürk konteksti daxilində təqdim və təhlil edir. Prezidentimizin təkcə Bakıda yox, dünyanın ən müxtəlif yerlərində, ən mötəbər kürsülərində tarixi keçmişimizlə, mənəvi dəyərlərimizlə bağlı söylədiyi fikir və mülahizələr bu baxımdan öz konseptuallığı ilə seçilir" [46].

M.Qasımlının fikirlərinin davamında cənab Heydər Əliyevin söylədiyi nitqdən gətirdiyi bir misalı da burada nəzərdən keçirmək maraqlı olar. Mənəvi mədəniyyətimizin tarixi köklərinin türk xalqlarının ortaq keçmişində - vahid etnik-mədəni sistem daxilində təşəkkül tapması fikrini Heydər Əliyev özünəməxsus məntiq və faktlarla açıqlayır: "Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqlarımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız - Nizami, Yunis İmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhdumqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir (1996-cı il, noyabrın 6-da Bakıda Türk dünyası yazıçılarının III qurultayındakı nitqindən)" [47].

Azərbaycan Prezidenti cənab Heydər Əliyevin bu fikirləri vətəndaşlıq baxımından olduğu kimi elmi baxımdan da əhəmiyyətlidir. Ümumiyyətlə, Heydər Əliyevin bütün çıxışları elmi-nəzəri nöqteyi-nəzərdən də diqqəti cəlb edir.

Bundan çıxış edərək deyə bilərik ki, istər ədəbiyyatşünaslıq, istər fəlsəfə, istər estetika elmimiz Heydər Əliyev irsi ilə öz inkişafını davam etdirir. Dediyimiz fikirlərin təsdiqi üçün cənab Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatını təhlilləri yaxşı misal ola bilər.

İlk əvvəl diqqəti bir qədər əvvəldə toxunduğumuz məsələ üzərində cəmləməyi vacib bilirik. Belə ki, Heydər Əliyevin bütün çıxışlarına, nitqlərinə şamil oluna biləcək əsas bir keyfiyyət - maarifçilik xüsusiyyəti prezidentin Azərbaycan klassik irsinin təhlillərini də əhatə edir.

Heydər Əliyev hələ 70-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışarkən klassik irsimizin öyrənilməsi, geniş tədqiq-təhlilləri üçün şərait yaratmış, Nizaminin, Füzulinin, Nəsiminin, Vaqifin, Mirzə Şəvi Vazehin və XIX əsr ədəbi klassikası nümayəndələrinin zəngin irsinin dəyərləndirilməsi üçün dövlət səviyyəli rəsmi sənədlərin həyata keçirilməsini gerçəkləşdirmişdir. Prezident Heydər Əliyev klassiklərimizi dəyərləndirərkən onların dünya miqyasında tanınması və gənc nəslə örnək olması məsələsini də daim diqqət mərkəzində saxlamışdır.

Burada Heydər Əliyevin özündə dərin maarifçilik hisslərini əks etdirən bir xatirəsini nəzərdən keçirmək yerinə düşər: “Moskvada mənə dedilər ki, Nizaminin əsərlərinin rus dilində tərcüməsi istənilən səviyyədə deyildir. O zaman Mirzə İbrahimovdan və başqalarından xahiş etdim ki, mən artıq Azərbaycanda deyiləm, görün nə etmək olar ki, Nizami Gəncəvinin əsərləri yenidən rus dilinə tərcümə edilsin... Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir” [48].

Bu böyük maarifçilik işi Heydər Əliyevin Azərbaycan şairlərinin irsinin tədqiqi, təbliği sahəsində həyata keçirdiyi dövlət humanitar siyasətinin yalnız kiçik bir hissəsidir.

Əgər diqqəti Heydər Əliyevin Nizami irsinin dəyərləndirilməsi üçün gördüyü işlərin məzmununa, bu məzmunun ideyasına yönəltsək, çoxsaylı və böyük əhəmiyyət kəsb edən hadisələrlə tanış ola bilərik.

Məlum olduğu kimi cənab Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi işlədiyi 70-ci illərdə (konkret olaraq 1979-cu ildə) “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” mühüm və tarix yüklü bir qərar imzaladı. Bu qərar Azərbaycan elmi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti qarşısında vacib bir vəzifəni həyata keçirmək tələbini qoyurdu.

Xüsusilə qeyd edilməlidir ki, bu qərar Nizami irsinə təxminən 30 illik bir fasilədən sonra fundamental

surətdə qayıdış idi. Belə ki, 1947-ci ildən sonra, yəni şairin 800 illik yubiley tədbirlərindən ötən 10 illiklər boyu dövlət səviyyəli digər bir qərar, fərman olmamış, yazılmış bir sıra tədqiqat əsərləri kəmiyyətcə az və pərakəndə vəziyyətdə nəzəri cəlb etmişdir.

Bu qərardan sonra Nizami irsi yeni tərcümələr, alimlərin tədqiqat əsərləri, şairin həyat və yaradıcılığına həsr olunmuş "Nizami" bədii filmi və başqa dövlət səviyyəli işlərlə canlandı.

Qərarın məntiqi davamı olaraq 1981-ci ildə Azərbaycan KP MK "Nizami Gəncəvinin 840 illiyinin keçirilməsi haqqında" daha bir mühüm qərar qəbul etdi ki, bunun həyata keçirilməsi, xüsusilə əvvəllər daxil olduğumuz və dünyanın ən böyük ölkəsi - SSRİ miqyasında qeyd olunması, yubiley tədbirləri istiqamətində Moskvada, Leninqradda və b. şəhərlərdə Nizami irsinin nəşr edilməsi Azərbaycan xalqının böyük oğlu, milli estetik fikrin əsl təəsübkeşi və onu inkişaf etdirən işıqlı ziyalısı Heydər Əliyevin böyük nailiyyəti, eyni zamanda siyasət və estetikanın harmonik sintezinin təntənəsi idi.

Filologiya elmləri doktoru Vilayət Quliyev çox doğru olaraq göstərir ki, "Nizami Gəncəvi irsi barəsində Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunmuş qərar yalnız konkret bir şəxsi - Nizamini deyil, ümumən Azərbaycanı, Azərbaycan xalqını tanımağa, təbliğ etməyə xidmət edən tarixi bir sənəd idi" [49].



Doğrudan da Heydər Əliyev hakimiyyəti illərində bütün klassiklərimizə, ədəbiyyatımızın estetik şüur sahəsinin yaradıcılarına eyni mövqedən, eyni ehtiram və qayğı ilə yanaşmışdır.

Məsələn, üstündən 30 ildən artıq bir vaxt keçsə də mənası, məzmunu baxımından daim təzə-tər olan bir hadisə yada düşür. Prezident Heydər Əliyev çıxışlarından birində deyir: "Xatirimdədir, Nəsiminin 600 illiyini keçirəndə də məsələ qaldırmışdılar ki, onun məzarını Hələb şəhərindən Bakıya köçürək. Hətta onun məzarını görən adamlar da çox az idi. Səhv etmirəmsə, Nəsiminin məzarını ilk dəfə rəhmətlik Rəsul Rza gedib tapmışdı. Bu barədə o özü mənə danışmışdı. Sonra mərhum Süleyman Vəzirov Hələbdə olmuşdu. Mən 1970-ci illərdə Suriyada olarkən Nəsiminin qəbrini ziyarət etmək üçün xüsusi olaraq Hələb şəhərinə getdim. Mənim Hələbə səfərimin təşkili barədə Suriya prezidenti Hafiz Əsədin xüsusi tapşırığı var idi. Hələb şəhərinin başçıları axşam mənə bildirdilər ki, səhər Nəsiminin qəbrini ziyarət edə bilərəm. Ertəsi gün üç-dörd saat gözləməli oldum, çünki qəbrin yerini bilmirdilər. Nəhayət, onun yerini bilən bir nəfər tapdılar. Yəqin siz də bilirsiniz, Nəsiminin qəbri ümumi qəbristanlıqdadır. Nəsiminin törəmələri də orada dəfn olunmuşdular. Qəbirüstü abidə və s. yoxdur, orada bu adət deyildir. Ancaq qəbir çox yaxşı vəziyyətdə idi. Ona qulluq edən adam da var" [50].

Bu misalda maraqlı bir məqam üzərində dayanmaq istərdim. Belə ki, Heydər Əliyev Suriyada olarkən Hələb şəhərinə məhz Azərbaycan şairi Nəsimini ziyarət etmək üçün gəlir. Bu ehtiram hissi Azərbaycanda uzaqda uyuyan qərib şairimizə həmin ölkənin də diqqət göstərməsinə, onu tanıyıb öyrənməsinə cığır açmaq deməkdir. Fikrimizcə, bu ziyarət-səfər Suriya Ərəb Respublikasının mətbuat səhifələrində də əks-səda doğurmuşdur ki, bu da öz növbəsində tarixilik və həyatilik baxımından öz səmərəli təsirini göstərmişdir.

Hətta prezidentin çıxışında səslənən "axşam mənə bildirdilər ki, səhər Nəsiminin qəbrini ziyarət edəcəyəm. Ertəsi gün 3-4 saat gözləməli oldum, çünki qəbrin yerini bilmirdilər..." - fikri altında məhz Heydər Əliyevin ziyarətinə qədər qəbristanlıqda, məzar ətrafında səliqə-səhman aparılması mənası da gizlənir ki, bu da Azərbaycan rəhbərinin vasitəsi ilə miras irsə qayğı, diqqət hissini meydana çıxarmışdır. Bu isə əlbəttə ki, yenə milli-mənəvi dəyərlərimizi Heydər Əliyevin dünyada tanıtmaq, təbliğ etmək məramını əks etdirir.

XIII əsr Azərbaycan klassiki Nəsiminin yubileyi də möhtərəm prezidentimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə, habelə milli öndərin Nəsimi məzarını Suriyanın Hələb şəhərində ziyarətindən sonraya təsadüf edir.



Bu tarixi hadisə 1973-cü ildə Nəsiminin 600 illiyi, həm də Yunesko tərəfindən ilk qeyd olunan Azərbaycan ədəbiyyatı tədbiri idi.

1973-cü ilin payızında Beynəlxalq Humanitar təşkilatın xətti ilə keçirilən yubiley Nəsimi irsi sahəsində çoxsaylı tədbirlərin həyata keçirilməsini şərtləndirirdi. Heç şübhəsiz ki, Nəsiminin əsərlərini bu illərdə ingilis, fransız, alman və başqa dillərdə oxuyanlar, "Nəsimi" filmini, habelə Bakının mərkəzində onun romantik məzmunlu, lakonik üslubda abidəsini seyr edənlər, əsərləri külliyyatını uzun onilliklərin Nəsimi həsrətinə son qoyaraq nəfis tərtibatda əldə edənlər ilk əvvəl bu humanist hadisəyə görə Azərbaycan rəhbəri, böyük ədəbiyyat təəsübkeşi möhtərəm Heydər Əliyev cənablarına qəlblərində minnətdarlıq hissi keçirirdilər.

Bütün bu sadalanan yubiley tədbirləri özündə estetik fəaliyyətin müxtəlif sahələrini, məsələn, heykəltəraşlığı, rəssamlığı, kino yaradıcılığını, tərcümə mədəniyyətini, hətta o qədər də gözə çarpmayan poliqrafiya ustalığını birləşdirməklə estetikanın inkişafını müəyyənləşdirir və bu gözəllik mahiyyətini daşıyan elm sahəsini zənginləşdirməklə irəli aparırdı.

Azərbaycanın dahi söz ustalarından Füzulinin yubiley tədbirləri də bu qismdən olan siyasət istiqamətli, həm də estetik forma və məzmunlu bir hadisədir. Fərq ulu şer yaradıcımız Füzulinin 500 il-

lik yubileyinin keçirilməsi dövrü ilə bağlıdır ki, bu da daha böyük nailiyyətlərin rəhnini, əsasını təşkil edir.

Belə ki, Məhəmməd Füzulinin möhtəşəm 500 illik yubiley tədbirlərinə hazırlıq Azərbaycanın yenicə müstəqillik qazandığı və deməli respublikamızda keçid dövrü adlanan çox mürəkkəb və gərgin bir dövrdə - 1994-cü ildə başlanmışdır. Azərbaycanda həmin ərəfədə cərəyan edən hadisələrin gərginlik dairəsində heç bir dövlət başçısı yubiley keçirmək, həm də beynəlxalq səviyyəli humanitar tədbir keçirmək gücü və həvəsində ola bilməzdi. Hətta Nizami Gəncəvinin yubileyi böyük vətən müharibəsi illərinə təsadüf edərkəy yubiley xeyli gecikmiş, 1947-ci ildə qeyd olunmuşdu.

Lakin böyük sənət aşiqi, siyasət qədər ədəbiyyat və sənəti sevən, bilən, uca tutan Heydər Əliyev təbiətinə xas məsuliyyətlilik, milli qaynağa, irsə, kökə bağlılıq və ehtiramla "söz allahının" yubileyini, onun və dünyanın poeziya sənəti dahiləri və dühaları adına layiq şəkildə keçirdi.

Bu da maraqlı tarixi faktdır ki, yubileyin Füzuli mirasına layiq şəkildə keçirilməsinin qərara alınması və qeyd olunması iki il ərzində oldu və bu müddətdə Azərbaycan elmi, ədəbi ictimaiyyəti bir çox mühüm tədbirlər həyata keçirə bildi. Ən əhəmiyyətli işlər sırasında söz ustadının 6 cildliyi və seçilmiş əsərləri kitabları, habelə yeni-yeni tərcümələrin meydana çıxmasını qeyd etmək olar.



1996-cı ilin Yunesko Beynəlxalq Humanitar Təşkilatı tərəfindən Füzuli ili elan olunması da müstəqil Azərbaycanın siyasi rəhbərliyinin təşəbbüsü və uğurlu nailiyyəti idi. Heydər Əliyevin dərin məna kəsb edən aşağıdakı fikirləri Füzulinin dünya şöhrətini daha da möhkəmlədir, ona bəşəri əhəmiyyət bəxş edir.

"...Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun. Tarixə bəşəri şəxsiyyət kimi düşsün" [51].

Azərbaycanlı olub, İraqda doğulub 3 dildə yazıb yaratmış bununla da doğrudan da bəşərin övladı, dünyavi sənətkar olduğunu sübut etmiş Məhəmməd Füzulinin yubileyinin bir sıra ölkələrdə - İraqda, Parisdə, o cümlədən Türkiyə və İranda qeyd olunması da bu nöqteyi-nəzərdən çox xarakterik bir hadisədir.

Eyni zamanda yubiley tədbirlərinin ilk əvvəl şairin doğulduğu İraqda, ondan sonra Türkiyədə keçirilməsi, Azərbaycanda yekunlaşması simvolik məna kəsb edir.

Tarixi bir həqiqətdir ki, Azərbaycan prezidenti bu tədbirləri təkcə siyasi xadim kimi qarşılayıb ke-

çirmir, vətənpərvər, milli ruhlu şəxsiyyət kimi bu tədbirlərdə yaxından iştirak edir, əsl füzulişünas kimi dərin məzmunlu nitqlər söyləyirdi.

Yuxarıda biz Nizami, Nəsimi irsinin dünyada tanınması məqsədi ilə cənab Heydər Əliyevin gördüyü işlərdən bəhs etmişdik. Füzulinin də dünyada daha dərindən tanınması və dərk olunması Heydər Əliyevin adı ilə bağlıdır və xalqımızın estetik fikir tarixində daim xatırlanacaqdır. Prezidentin yubiley komissiyasının iclasındakı çıxışından bir sitat bu fikri ifadə edər. Cənab Heydər Əliyev deyir: "...Füzuli haqqında yazılan elmi tədqiqat əsərləri onu alim, mütəfəkkir, filosof, şair və böyük bir insan kimi göstərmək üçün çox lazımdır. Bununla yanaşı, Füzulini ölkəmizdə, xüsusən xaricdə yaxından tanıtmaq üçün onun haqqında popilyar bir kitab olmalıdır. Elə bir kitab ki, onu oxuyan hər kəs Füzulini tezliklə tanıya bilsin. Tədqiqat əsərlərini alimlər Füzulinin yaradıcılığı ilə maraqlananlar oxuyurlar. Amma Füzulini hamı tanımalıdır, zənnimcə, Füzuli haqqında elə bir kitab lazımdır ki, biz onu ingilis, fransız, alman, ərəb, fars dillərinə tərcümə edib yayaq. Deyirsiniz ki, Avropada yubiley tədbirləri keçirək. Həmin tədbirdə az adam iştirak edər. Ancaq orada elə bir kitab yayılsa, Füzulini daha çox adam tanıyacaqdır" [52].

Başqa bir çıxışında: "Şübhəsiz ki, insanlara şer qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir" [53] - deyən prezident Heydər Əliyevin klassik irsə, ümumilikdə bədii estetik yaradıcılığa münasibətinin əsasında dövlətin, cəmiyyətin əsas canlı sütunu olan insan kütləri - xalqın dayandığı aydın görünür.

Xalq qeyd-şərtsiz estetik şüurun əsas, aparıcı qüvvəsi, təzahür formasıdır. Xalqın estetik şüuru isə onun tarixi psixologiyası, etnosu, mədəniyyəti, zövqü, dili, dünyagörüşü və dolğun adət-ənənələrini əks etdirən ən zəngin mənbədir. Bu mənbəyə bələd olmadan, bu zəngin frazanı mənimsəmədən şübhəsiz ki, müdrik siyasətçi, əsl milli 'ider olmaq mümkün deyildir. Həm də bu daxili rabitə təbii yolla əldə edilir, hər sahədə olduğu kimi burada da süni təsir, münasibət müsbət nəticə verə bilməz.

Azərbaycanın dövlət quruculuğunda siyasət və estetikanın qanunauyğun dialektik əlaqəsi məhz dövlət siyasəti və həyatın gözəlləşməsində, xalqın estetik şüurunun zənginləşməsində fəal təsirli olub, milli elmi fikrin inkişafını irəli aparan amillərdən birini təşkil edir.

Biz yuxarıda cənab Heydər Əliyevin bu güclü əlaqəni şərtləndirən estetik fəaliyyət sahələrini dəyərləndirən geniş məzmunlu fikirləri ilə tanış olduq.

Müəyyən olunan elmi qənaət isə bundan ibarətdir ki, Heydər Əliyevin Azərbaycan estetik fikrini dövlət əhəmiyyətli dəyərlər kimi diqqət mərkəzinə çəkməsi həm də bir tərəfdən estetika elminin inkişafı üçün böyük və işıqlı yol açmışdır.

Bu və ya digər klassikin öyrənilməsi vəzifəsi neçə-neçə elm sahələrində canlanmaya səbəb olmaqla bərabər, ölkə rəhbərinin özünün bilavasitə elmi-nəzəri təhlilləri ilə yeni bir fəlsəfi-estetik səviyyənin əsasını qoymuşdur.

Burada ilk növbədə elmi sistemlilik nəzəri cəlb edir. Demək olar ki, dövrbədövr, tarixilik prinsipinə uyğun olaraq bütün zamanların sənətkarları və sənət əsərləri milli lider Heydər Əliyevin ensiklopedik və analitik fikir selində dayanır, qiymətli, orijinal faktlar və dəlillərlə təhlil olunur və dəyərlənir.

Buna görə də biz istər xalq yaradıcılığı, istər klassik irs, Nizamidən başlayaraq XIX əsr sənətkarları, habelə XX əsrin bir çox ədəbi simaları haqqında Heydər Əliyevin məruzə və çıxışlarından, nitqlərindən bu və ya digər estetik hadisənin, estetika probleminin öyrənilməsində dolğun surətdə istifadə edə bilirik.

Beləcə prezident Heydər Əliyevin XX əsrin əvvəllərində Azərbaycanın çətin bir dövründə böyük vətənpərvərlik göstərmiş maarifçi ideoloq Nəriman Nərimanov, Azərbaycan milli şüurunun inkişafında əsl inqilabçı olmuş maarifçi və tənqidi realist ədib



Cəlil Məmmədquluzadə də bu iki tarixi simanın əməl və arzularını romantik üslubda yaradıcılığı ilə davam etdirən Hüseyn Cavid irsinə məhəbbəti, diqqət və qayğısı bizim təhlilinə maraqlı olduğumuz siyasət və mənəvi-estetik dəyərlər mövzusu üçün geniş elmi mənbə verir.

Bu dörd tarixi şəxsiyyəti - Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və Heydər Əliyevi azərbaycançılıq ideyası ilə bağlı realist və romantik hisslər bağlayır və hər birinin taleyindəki oxşarlıqlar onların xalqa xidmətlərinin tarixi mahiyyətində olan məzmunu tamamlayır. Onların dördünün də qədim Azərbaycan torpağı Naxçıvandan olması və dördünün də ictimai-siyasi və estetik şüura malik olması faktı da yenə də siyasətin estetika ilə qovuşuğundan, görünən və görünməz əlaqələrindən xəbər verir. Sanki Heydər Əliyevdən tarixən daha əvvəldə olan hər üç sənətkar xalqın istək və arzularını, milli ruhunu sözlə layihələndirib, bu ideyanı isə uşaqlıqdan arzusu memar olmaq olmuş Heydər Əliyev siyasətçi olaraq qurub yaratmışdır.

Ədəbiyyatşünas alim Vilayət Quliyevin klassik ədəbi irsin öyrənilməsinin inkişafı sahəsində Heydər Əliyevin xidmətlərinin təhlilinə həsr olunmuş oçerkində bu problemi dərindən öyrənmək, qiymətləndirmək üçün əsaslı faktlar, müqayisələr maraq doğurur. Müəllif hər üç sənətkara Heydər Əliyev münasibətini özünün elmi qənaətləri ilə də-

yərləndirərək siyasət və estetikanın qarşılıqlı əlaqə məsələsinə xeyli yaxınlaşaraq yazır: "Ümumiyyətlə, Azərbaycan xalqının XX əsrdə yetirdiyi bu iki siyasət və mənəviyyat nəhənginin (N.Nərimanov və H.Əliyev nəzərdə tutulur - *X.Q.*) şəxsiyyət və bioqrafiyasında oxşar cəhətlər kifayət qədərdir. 1920-ci ildə milli hökumətin devrilməsindən sonra taleyin ümidinə buraxılmış Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasında və yenidən dirçəlməsində Nəriman Nərimanov müstəsna rol oynadığı kimi, 1993-cü ildə də yenidən dağılmaq, parçalanmaq, dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalmış Azərbaycan bu dəfə də Heydər Əliyevin siyasi və böyük dövlətçilik təcrübəsi nəticəsində xilas edilmişdi. Heydər Əliyevin kommunist rejiminin və sovet ideologiyasının hakim olduğu bir şəraitdə N.Nərimanova xüsusi hüsni-təvəccöhlə yanaşması da ayrıca qeyd edilməlidir" [54].

Doğrudan da H.Əliyev N.Nərimanov şəxsiyyətini hələ sovet quruluşunun hakim ideologiyası şəraitində müdafiəyə qalxmış, onun uğrunda mənəvi mübarizələr aparmış, ona monimental heykəl qoydurmuş (həmçinin Ulyanovsk şəhərində), haqqında film çəkdirmiş, 100-illik yubileyini keçirmiş, ev muzeyini yaratmış, respublikanın ən nüfuzlu ali məktəbinə, Bakının ən gözəl prospektinə və rayonuna N.Nərimanovun adını verdirmişdir.



Bu irs-əlaqə hissi H.Əliyevin N.Nərimanova mənəvi abidə yaratması ilə nəticələndiyi kimi, XX əsr Azərbaycan sənətkarına, klassikinə dövlət qayğısı, deməli, siyasətdə sənətin, sənətkarın dəyərləndirilməsində gözəllik estetik kateqoriyasının əbədi yaşarlığının təminatı idi.

Eləcə də C.Məmmədquluzadə irsinə prezident Heydər Əliyevin dərin ehtiramlı münasibəti siyasətdə estetikanın ifadəsi kimi bəşəri-əbədi harmonikliyə bağlı olan gözəllik hissini bir çox tərəflərdən gücləndirir.

Yenə V.Quliyevin problemin anlamı üçün çox dəyərli olan müqayisə təhlillərinə diqqəti yönəltməyi vacib bilirik. Ona görə ki, bu əsər həm sənət məsələlərinə, klassik irsə H.Əliyev münasibətini, həm də siyasi dövlət qərarları ilə dəyərləndirilməsi faktlarını tarixi xronikal və elmi obyektivliklə canlandıran ən zəgin mənbədir. Mənbə H.Əliyevin C.Məmmədquluzadə irsinə bağlılığı məsələsini belə şərh edir: "Cəlil Məmmədquluzadənin şəxsiyyəti və yaradıcılığı Heydər Əliyev üçün hər şeydən əvvəl müasirliyi, heç zaman öz aktuallığını və təravətini itirməməsi ilə səciyyəvidir. Onun nəzərində Mirzə Cəlil bizim ən müasirimizdir. Təkcə dünənimiz deyil, həm də sabahımızdır. Ölkə prezidenti haqlı olaraq son illərdə Azərbaycan xalqının öz azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizəni də Mirzə Cəlilsiz təsəvvür etmir. Milli şüursuz və müstəqillik ideyalarının

formalaşmasında Cəlil Məmmədquluzadənin təkrarsız bədii yaradıcılığı, onun hər birindən "qan iyi" gələn felyiton və səhnə əsərləri, 25 il ərzində dəyişməz baş redaktoru və naşiri olduğu "Molla Nəsrəddin" jurnalı müstəsna rol oynamışdır" [55].

H.Əliyevin C.Məmmədquluzadə yaradıcılığının bu əsas cəhəti ilə bağlı mülahizələrini nəzərdən keçirməklə biz siyasətin estetikaya, eyni zamanda estetikanın siyasətə təsirini dolğun və aydın təsəvvür edə bilərik.

Zamanca bizə daha yaxın Hüseyn Cavid irsini təhlilləri də H.Əliyev siyasi fəaliyyətinin əsas estetik mövzularındandır.

H.Əliyev bəlkə dünyada ilk prezident, dövlət rəhbəridir ki, mənsub olduğu, rəhbərlik etdiyi xalqın, dövlətin sənətkarının nəşini uzaq Sibirin ucqar bir kənd qəbiristanlığından öz vətəninə, ulularının yatdığı torpağa gətirmişdir və onun adının yaddaşlara qayıtması, yenidən əbədiyyt qazanması üçün bu qədər misilsiz işlər görmüşdür. Təsadüfi deyil ki, H.Əliyev vətəni Naxçıvana qayıtdıqdan sonra ilk olaraq H.Cavidin məzarını ziyarət etmiş və təbii olaraq dramaturqun məzarının vəziyyəti onu təəssüfləndirmiş, təəccübləndirmiş və təsirləndirmişdir. O bundan sonra H.Cavidin adına, şəxsiyyət və sənətinə layiq bir məqbərə yaradılması haqda düşünmüş və ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu möhtəşəm fikrini həyata keçirmişdir.



Dediyimiz bu fakt tarixiliklə bağlı həm də bir çox tərəflərdən mənəvi estetik mənalara aydınlıq gətirir. Belə ki, prezident bununla sənət və sənətkara münasibətini bildirir. Bir tərəfdən rəhbəri olduğu ölkədə memarlıq sənətini inkişaf etdirir, üçüncü bir tərəfdən bu memarlıq kompleksinə özü şəxsən rəhbərlik edir. Bu üç istiqamət ölkədə gedən dövlət quruculuğu işində estetikanın yerini dolğun əks etdirir.

Bütün bunlar H.Əliyevin H.Cavid sənətinə, H.Cavid ideyalarına bağlılığının əyani nəticəsi kimi diqqətdən yayınmır.

H.Cavid sülhün, əmin-amanlığın carçısı olduğunu öz əsərləri və qəhrəmanları vasitəsilə demişdir. H.Əliyev bu ideyanı öz siyasi məqsədinə çevirərək respublikada əmin-amanlıq, sabitlik yaratmış, torpaqların azad olunmasını silah deyil, sülh danışıqları vasitəsilə həyata keçirməyi üstün bilmişdir.

Bakının mərkəzi prospektlərindən birində və ən uca bir səviyyədə H.Cavidin

"Kəssə hər kimsə əgər qan izini,
qurtaran dahi odur yer üzünü"

misralarının yazıldığı lövhənin asılması sənət və siyasətin bir-birini tamamlaması, iki elmin canlı rabitəsini gözəl ifadə edir.

Başqa bir rabitə-əlaqə - H.Cavid kimi H.Əliyevin türk dünyası ilə bağlı olması, Türkiyə ilə iqti-

sadi, siyasi-mədəni əlaqələrdə dost münasibətləri qurması, respublikanın mühüm qlobal problemlərində Türkiyəyə arxa kimi baxması və digər məsələlərdə özünü göstərir.

Daha bir məsələ - cənab Heydər Əliyev öz məruzə, nitq və çıxışlarında elə fikir və müddəalar irəli sürür ki, bunlar elmi estetik səciyyə daşıyır, Azərbaycan estetik fikrinin inkişafına öz səmərəli təsirini göstərir.

Prezidentin təhlillərindəki fəlsəfi-estetik məzmun təkcə ayrı-ayrı sənətkarları deyil, bütövlükdə klassikamız və müasir estetik prosesi əhatə edir.

Məsələn, prezident klassik irsimizin dəyərli cəhətlərindən bəhs edən belə bir elmi qənaətdən çıxış edir: "Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir... Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu münasibətlə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatşünaslar və yaxud Yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidir" [56].



H.Əliyev H.Cavid yaradıcılığı haqda da elmi estetik fikirlər söyləmişdir. Aşağıdakı sitatda cəmləşən həmin fikirlər dövlət rəhbərinin, dünya şöhrətli siyasətçinin estetik duyuma, fəlsəfi təfəkkürə malik olduğunu təsdiq edir.

Milli öndər deyir: "İndi Hüseyn Cavidin əsərləri xalqa hava, su kimi lazımdır. Təkcə abidə baxımından deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir sənətkardır. Hüseyn Cavidin "İblis" əsəri heç də Hötenin "Faust" əsərindən geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə bilmirik" [57].

Heydər Əliyevin bu cür elmi-nəzəri xarakter daşıyan fikirləri həm də estetik fəaliyyətin ən müxtəlif və ən zəngin sahələrinə yönəlmişdir.

İstər memarlıq və təsviri sənətin bir çox növləri, istər musiqi, istər teatr, kino və b. sənətlərin inkişaf məsələləri haqda təhlillər müasir elmi fikrin səviyyəsinə uyğunluğu və konkret olaraq estetikanın pridmet tələblərinə cavab verməsi müsbət keyfiyyəti ilə diqqəti cəlb edir.

Bu baxımdan Heydər Əliyevin memarlıq sənətinə xüsusi məhəbbəti və Azərbaycan memarlığının,

habelə incəsənət sahələrimizin inkişafına aid ideyaları xüsusi əhəmiyyət kəsb edir. Fikri prezidentin bir çıxışı vasitəsilə rəssamlıq sənətini professional estetik təhlillərinə cəlb etmək istəyirik. Belə ki, cənab Heydər Əliyev "Qanlı yanvar" rəssamlıq sərgisinin açılışında etdiyi çıxışında rəssamlıq əsərlərinə əsl estetik sənətşünas qiyməti verərək göstərir ki, "20 yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda öz mənliyini müdafiə etmək uğrunda göstərdiyi qəhrəmanlıq nümunəsidir.

Ona görə də qəhrəman Azərbaycan balalarının tankın altına düşüb əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Bəlkə də bu, daha çox lazımdır. Təəssüf ki, buradakı əsərlərin arasında mən belələrini görmədim. Ola bilər bu ondan irəli gəlir ki, Yanvar hadisələri baş verəndən indiyədək bununla əlaqədar ancaq ağlayırıq. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, azərbaycanın qəhrəman oğulları o böyüklükdə sovet ittifaqının ordusu qarşısında dayanmağa qadirdirlər.

...Bəs bu xalq, o qəhrəman, o üsyankar xalq, milli azadlıq uğrunda çalışanlar haradadır? Onlar niyə öz əksini tapmayıblar bu əsərlərdə? Tankın altında ölən, əzilən var, amma tankın qarşısında duran azərbaycanlı balası haradadır? Niyə onun surəti yoxdur?"



Çıxışının davamında siyasi xadim rəssamlara bir tənqidçi, sənətşünas, estetik kimi digər tövsiyələrini də verir və həmçinin bu sahəyə bələdliyini bildirərək fikirlərinin tam səmimi olduğunu göstərir: "Məsələn, o mitinqləri təsvir etsəydiniz, bunlar da çox gözəl əsərlər olardı. Onda aydın olardı ki, həmin hadisələr nə ilə bağlıdır. Yoxsa, məlum deyil axı bu tank niyə buraya gəlib? Bu adam niyə tankın altında qalıb. Mən bunu hökm kimi demirəm. Mən də bir vətəndaşam. Özü də bu yaradıcılıq məsələləri ilə müəyyən qədər tanış olan adamam və şübhəsiz ki, siyasi xadiməm. Siyasi nöqteyi-nəzərdən öz fikrimi deyirəm və güman edirəm ki, burada bir boşluq var" [58].

Göründüyü kimi, bu çıxışındakı siyasətə aid son cümlələr, qeyd-şərtsiz həm birbaşa, həm də bilavasitə H.Əliyev dövlət quruculuğunda siyasət və estetikanın bərabər addımladığını sübut edir.

H.Əliyevin estetik fikirləri S.Bəhlulzadə sənətini təhlillərində də aydın görünür.

Həmçinin də H.Əliyevin Azərbaycanın tanınmış rəssamlarından biri, fitri istedad sahibi Səttar Bəhlulzadənin 85-illiyinə həsr olunmuş sərginin açılışındakı çıxışı Azərbaycan rəssamlıq sənətinin tarixi, bu günü və gələcək problemləri haqda dolğun elmi faktlarla zənginliyi ilə seçilir.

H.Əliyev burada sənətkarın dünya görüşü kimi fəlsəfi məzmun daşıyan bir problemə toxunaraq bö-

yük rəssamın əsərlərinin məziyyətlərini, əsas keyfiyyətlərini izah edib qiymətləndirir.

Həmin çıxışdan kiçik bir hissəni nəzərdən keçirmək H.Əliyevin hərtərəfli estetik biliyi, təhlil bacarığı, elmi obyektiv qiymətləndirmə gücü haqda məlumatlanmağımıza imkan verər: "Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri-adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünya görüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər yarada bilən adam o dövrdə klassik üslubdan kənara çıxıb öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm də yaradıcılığına görə adi deyil. Çox qeyri-adi bir insandır, çox qeyri-adi bir rəssamdır, mədəniyyət xadimidir. Ona görə bizim rəngkarlıq məktəbimizdə, o cümlədən rəssamlıq məktəbimizdə S.Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır. Bu rəssam illər boyu yaşayacaq və heç şübhə etmirəm ki, zaman keçdikcə Səttar Bəhlulzadənin yaradıcılığı daha da yüksəklərə qalxacaq, onun əsərlərinin qiyməti daha da artacaqdır... Onun yaradıcılığı bizim üçün mənəviyyat məktəbidir, onun mədəniyyətini yüksəklərə qaldırır, xalqımızın mədəniyyətinin, rəssamlıq məktəbinin professionallıq səviyyəsinin nə qədər yüksək olduğunu bütün dünyaya göstərir. Eyni zamanda xalqımızın rəssamlıq məktəbinin yeni, orijinal üslubda əsərlər yaratmağa qadir olduğunu sübut edir. Bu bizim fəxrimizdir. Bu xalqımızın gələcəyi üçün, mədəniyyətimizin inkişafı üçün böyük əsasdır" [59].



H.Əliyev qeyri-adiliyi daxili fəlsəfi dünya görüşü və fitri istedadla bağlayır ki, fikrimizcə bu ideyanın özü, fikrin belə zəngin mənaları yalnız ona, onun öz qeyri-adi düşüncə tərzi, təfəkkür gücünə məxsusdur.

Sənətkara xas qeyri-adilik, "daxili fəlsəfə" keyfiyyəti məsələsinə H.Əliyevin digər sənətlər və sənətkarlar haqda düşüncələrində də rast gəlirik. Məsələn, prezident dünya şöhrətli bəstəkarımız Arif Məlikov yaradıcılığı haqda çıxış edərkən həm bu cəhətə diqqət yetirir, həm də yenə siyasət və estetika probleminin bir-birinə təsiri, əlaqəsi haqda fikir yürütmüş olur.

"Bilirsiniz ki, istedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi deyillər, adi olsalar, istedadlı ola bilməzlər. İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var. Mənim kimi siyasət adamı respublikaya rəhbərlik edən adam gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə danışdırsın. Çalışsın ki, münasibətlər yaxşı olsun" [60].

H.Əliyevin aşağıdakı fikirləri də prezident olaraq sənət adamlarına, estetik fəaliyyətlə məşğul olan, milli estetik fikrin tarixini yaradanlara münasibətini, fikri bir qədər də dəqiqləşdirsək, Azərbaycanın dövlət siyasətində sənət və sənətkarın, estetikanın əsas meyar olduğunu öz növbəsində dolğun ifadə

edir. "...Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar adamlardır... Mədəniyyətimizin xalqa verdiyi töfhələr, göstərdiyi xidmətlər bəlkə o qədər də gözə çarpmır, ancaq onun qiyməti çox böyükdür. Ona görə də mən sizin hər birinizin xidmətini bir vətəndaş kimi, tamaşaçı, eyni zamanda prezident kimi yüksək qiymətləndirirəm və hər birinizə gərəkli fəaliyyətinizə görə təşəkkürümü bildirirəm" [61].

Cənab Heydər Əliyevin çıxışlarındakı bu elmilik, sənəti elmi estetik nöqteyi-nəzərdən təhlil və qiymətləndirmə səviyyəsi əlbəttə ki, onun ensiklopedik biliyə, yüksək yaradıcı təxəyyülə malik zəka sahibi olmasından irəli gəlir.

Heydər Əliyev hətta siyasətin özünü də elm hesab edir, onu özünəməxsus düşüncə orijinallığı ilə qiymətləndirir. Həmçinin siyasət elminin tərifini verməklə, onun pridmet mahiyyətini müəyyənləşdirir. Bu qiymət və təyinat uzun illərin təcrübəli siyasətçisinin qənaəti olduğu üçün qeyd-şərtsiz olaraq da qəbul edilir. "Şübhəsiz ki, bütün elmlər cəmiyyət üçün, xalq üçün, bəşər üçün əhəmiyyətlidir. Amma siyasət elmi deyə bilərəm ki, ən çətin bir sahədir. Siyasət sahəsində fəaliyyət göstərmək, həm də bu sahədə nailiyyətlər əldə etmək, siyasətin elmi əsaslarını mənimsəmək və siyasəti bu əsaslar üzərində aparmaq böyük məharət, böyük fitri istedad tələb edir" [62].

Bu fikirlər möhtərəm cənab Heydər Əliyevin siyasətçi, siyasi xadim xüsusiyyətlərini də özündə



cəmləşdirir. Bu sitatın daxil olduğu və nəzərdən keçirdiyimiz dolğun məzmunlu çıxışda H.Əliyevin siyasətçiyə bir sənətkar münasibəti bəslədiyini müşahidə edirik. O, siyasət sahəsində elmi nailiyyətlər əldə etməyin, siyasətin elmi əsaslarını mənimsəməyin və siyasəti bu əsaslar üzərində irəli aparmağın "böyük məharət, böyük fitri istedad tələb etdiyini" xüsusi olaraq vurğulamaqla siyasətlə sənətin eyni təsir gücünə malik olduğunu, siyasətçinin də sənətkar olduğu ideyasını irəli sürür.

Bu ideyanın isə kökündə müdrik siyasət, deməli, "gözəl siyasət" daxili məntiqi dayanır ki, artıq bu sırf fəlsəfi istiqamətdə tədqiq-təhlillər üçün real zəmin yaradır.

Beləliklə, biz prezident Heydər Əliyevin estetikanın gözəllik kateqoriyasının ilkini və əsası gözəlliyin ədəbiyyatda və sənətdə ifadəsinə münasibəti, onun bu sahələri inkişaf etdirməsi məsələlərini geniş təhlillərdən sonra bu qənaətə gəlib çıxırıq ki, Azərbaycan Respublikasına arada qısa fasilələr olmaqla, 30 illik tarixi bir dövrdə rəhbərlik etmiş, dünya şöhrətli siyasətçi Heydər Əliyev mənəvi-estetik dəyərləri inkişaf etdirməklə, cəmiyyətdə estetik gözəlliyi dəyərləndirmiş və qüvvətləndirmişdir.

Bu da təbii olaraq siyasətin gözəlliyi prinsipini fərqləndirmiş, Azərbaycanda ictimai-siyasi və mədəni inkişafın harmonikliyini müəyyənləndirmişdir.

Bütün bunların tədqiqi və dərki üçün aşağıda nəzərdən keçirəcəyimiz "Dövlət idarəçiliyində siyasətin gözəlliyi" hissəsi fikrimizcə əhəmiyyət daşıyır.

Siyasətin gözəlliyi ideyasını, ədəbiyyat və sənətdəki, təbiətdəki, praktik aləmdəki gözəllik, şəxsiyyət azadlığı, sağlamlıq, xüsusi olaraq qadın varlığının müdafiəsi, söz azadlığı, demokratiya prinsipləri və s. tamamlayır. Estetika siyasətdə öz ifadəsini tapdıqda, bu sintez alındıqda isə şəksizdir ki, mənəvi-estetik dəyərlərin təntənəsi müşahidə olunur.

Buna görə də biz problemin daha dərindən anlamı üçün siyasətin gözəlliyi hissəsinə diqqəti yönəltməyi zəruri hesab edirik.



# III HİSSƏ

## DÖVLƏT İDARƏÇİLİYİNDƏ SİYASƏTİN GÖZƏLLİYİ MƏSƏLƏSİ

Məlumdur ki, tarixən ictimai-siyasi formasiyalar dövlətləri, dövlətlər idarəetmə siyasi mədəniyyətini, siyasi mədəniyyətlər özünün müxtəlif fərqli tiplərini, həmçinin çoxsaylı və özünəməxsus, ideya daşıyıcısı spesifik xüsusiyyətlərini meydana çıxarmışdır.

Təbiidir ki, bu proses öz tarixini və nəzəriyyəsini yaratmaqla dünya elmi fikrinə politologiya - siyasətşünaslıq sahəsini daxil etmiş, inkişafı ilə özünü təsdiqləmişdir.

Bu da heç şübhəsiz əsas məsələdir ki, politologiya elmi üçün müxtəlif tarixi dövrlərin yetirdikləri siyasi xadim, lider faktoru həmişə mühüm olmuşdur.

Əslində politologiya elmi ən görkəmli tarixi siyasi xadimlərin siyasi fikirləri əsasında formalaşmışdır və siyasətşünaslığın tarixi mövcudluğu hələ bir elm kimi tanınmasından xeyli əvvəl də bir çox şahların, kralların və s. fenomenlərin idarəçilik nəzəriyyəsindən bəhs edən mənbələrə söykənmişdir.

Ona görə də fikrimizcə müasir dövlət quruculuğunda cərəyan edən siyasi mədəniyyət hadisələrinin hər biri öz məzmunu, xarakteri, istiqamətləri baxımından qeyd-şərtsiz tarixi ənənəvi siyasi məktəblərin ya şüurlu olaraq, ya da təhtəlşüur formada davamıdır.

Əlbəttə, burada bütün sahələrə şamil edilən yaradıcı şüur, təxəyyül məsələsi siyasətçi və siyasətşünaslıqdan da yan keçə bilməz. Bu isə artıq elmi cəhətdən öyrənilib qiymətləndirilməli, "məktəb" səviyyəsində dəyərləndirilməli bir hadisə, problemdir.

Bizim bu hissədə təhlilinə maraq göstərdiyimiz məsələ dövlət idarəçiliyində siyasətin gözəlliyi mövzusu da öz növbəsində xarakterik və həmçinin özünəməxsus səciyə daşıyan keyfiyyətlərlə zəngin olub fəlsəfi-estetik cəhətdən tədqiq-təhlillər üçün əhəmiyyət kəsb edir.

Fəlsəfə elmləri doktoru, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev ölkə rəhbərimiz Heydər Əliyevin siyasi məktəbi ilə bağlı məsələlərə aydınlıq gətirərək yazır: "Politoloji nəzəriyyələrə görə liderlər hakimiyyətin legitimləşdirilməsi üsullarına görə üç qrupa bölünür: ənənəvi liderlik, xarizmalı liderlik, rasional-leqal liderlik. Ənənəvi lider ənənələrin gücünə əsaslanır, xarizmalı lider şəxsiyyətin qeyri-adi istedad və keyfiyyətlərinə inama, rasional-leqal lideri isə cəmiyyət üzvlərinin qanunların aliliyinə inamına və hörmətinə əsaslanır. Heydər Əliyev



müasir dünyanın siyasi xadimləri arasında çox az təsadüf edən bir rəhbərdir ki, bu müxtəlif tip liderlərdə olan keyfiyyətləri ahəngdar, üzvi bir şəkildə özündə birləşdirir" [63].

Bu xüsusiyyət Heydər Əliyevin yeritdiyi siyasətinin gözəlliyini ilk növbədə özünəməxsusluğu ilə, ayrıca məktəb xarakteri ilə təsdiqləyir. Doğrudan da Heydər Əliyev dövlət idarəçiliyində aparıcı ideya, yaradıcı siyasi təfəkkürdən qidalanır.

Belə ki, Heydər Əliyev siyasətində Şərq siyasi ənənəsinin humanist Qandizm köklərini də, Şah İsmayıl Xətainin dövlət quruculuğu ənənəsinin xarakterik cəhətlərini də görmək mümkündür. Tarixi ədəbiyyata qısa bir nəzər fikrimizi təsdiqləyə bilər.

Məlumdur ki, banisi Mohandas Karamçand Qandi olan, Hindistanda ictimai-siyasi və dini-fəlsəfi təlim, milli azadlıq hərəkatında hind burjuasiyasının ideologiyası olan Qandizmin əsas siyasi prinsipləri "Xalq kütləsini dinc yolla azadlıq mübarizəsinə cəlb etməklə (bu zaman qeyri-zorakılıq prinsipinə əməl olunmalıdır) Hindistanın istiqlaliyyətinə nail olmaq; istiqlaliyyət mübarizəsində dinindən, millətindn, kasta və epifindən asılı olmayaraq bütün hindliləri Hindistan Milli Konqres Partiyasının rəhbərliyi altında birləşdirmək; sülhə nail olmaq, siniflər arasındakı ziddiyyətləri arbitraj yolu ilə həll etmək, ölkədə kənd icmasının, kustar sənətkarlığı, xüsusilə əyi-

ricilik və toxuculuğu (Qandizmin simvolu cəhrə-çarxa idi) dirçəltməyə çağırış və s..." [64].

Qandizm fəlsəfəsinə görə mənəviyyat məsələlərinə üstünlük verilir. Əxlaqi təmizlənmə bütün hind mənəviyyatı üçün xarakterik, ənənəvi cəhət olan aximsanı, yəni "hindli, sən nə fiziki, nə də mənəvi zərər yetirmə", - əxlaqi təlimi irəli sürülür.

Ümumiyyətlə, Qandizmə görə həqiqət əldə etmək üçün əxlaq I şərt, aximsaya nail olmaq üçün "məhəbbət" ilk mənbədir.

Qandizm fəlsəfəsinin bütün bu şərtləri, prinsipləri: əmin-amanlıq, sülh (dinc müqavimət) ideyası ilə tamamlanır ki, biz bu böyük insanın siyasət nəzəriyyəsi ilə Azərbaycanın ölkə rəhbəri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin dövlət idarəçiliyi siyasətində səslənən, uyğun gələn telləri aydın görürük.

Bunu prezident Heydər Əliyevin Azərbaycanın istiqlaliyyətinə dinc yolla, siyasi danışıqlarla nail olunması, işğal olunmuş torpaqların sülh şəraitində geri qaytarılması, stabilliyin möhkəmləndirilməsi, Azərbaycanda yaşayan çoxsaylı insanlara milliyyətindən, dinindən, dilindən asılı olmayaraq Azərbaycan vətəndaşı kimi eyni, bərabər münasibət göstərilməsi ölkənin iqtisadiyyatının mövcud imkanlara uyğun tərzdə inkişaf etdirilməsi, ölkə sənayesinin qüvvətləndirilməsi problemlərini dünya birliklərinin siyasi-hüquqi qiymətləri çərçivəsində həll etmək və s. sahəsində qəbul etdiyi, təsdiqlədiyi, çox-



saylı və mühüm tarixi əhəmiyyət kəsb edən dövlət qərarları, fərmanlar, sərəncamlar bunu aydın surətdə təsdiqləyir.

Əlbəttə, dediyimiz kimi uzaqgörən bir siyasətçi, fitri siyasi səviyyəyə malik Heydər Əliyev idarəetmədə Qandizmi xeyli inkişaf etdirmiş, onda öz dövrü, öz xalqı üçün xarakterik olan siyasi məsələlərə və həmçinin fəlsəfəsindəki müəyyən prinsiplərə yaradıcı şəkildə yanaşmışdır.

Burada yeri düşmüşkən tanınmış filosof, fəlsəfə elmləri doktoru, Bakı Musiqi Akademiyasının professoru Telman Hacıyevin fikirlərini misal gətirməyi vacib bilirik.

T.Hacıyev hələ 1996-cı ildə Heydər Əliyevin öz siyasətində fəlsəfi əsaslara bağlı olduğunu əsaslandıraraq demişdir: "Mən bir filosof kimi daim dövlətimizin bütün elm sahələrinə qayğısını hiss etmişəm. Çünki respublikanın rəhbərliyi, xüsusən hörmətli prezidentimiz Heydər Əliyev həmişə elm, mədəniyyətə yüksək qiymət verib. O, reallığa, həyati fəlsəfəyə, həqiqətlərə əsaslanan müdrik siyasət yürüdür və bu da öz bəhrəsini verməkdədir.

Müstəqillik, hüquqi dövlət, demokratizm, millilik, milli irs, xüsusən də adət və ənənələr, dinə münasibət və s. bütün bunlar özü də fəlsəfi problemlərdir və onların işlənməsində, həyata keçirilməsində ölkə prezidenti yaxından iştirak edir. Bu xüsusilə özünü müstəqil dövlətimizin ilk

Konstitusiyasının hazırlanmasında da göstərdi. Məhz Heydər Əliyevin bilavasitə iştirakı və rəhbərliyi ilə hazırlanan Konstitusiyamızda dövlət hakimiyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölündü. Və bu məsələnin həllində prezident böyük filosofların, xüsusilə Monteskyö fikirlərinə istinad etdi, həmin ideallara yeni ruh verdi. Təkmilləşdirdi. Bu baxımdan Heydər Əliyev Azərbaycan tarixində fəlsəfi ideyalarla hüquqi dövləti quran, onu inkişaf etdirən yeganə dahi şəxsiyyətdir və onun həyatı Azərbaycan fəlsəfi fikrinin şah zirvəsidir" [65].

Prezident Heydər Əliyevin dövlət idarəçiliyində ənənəvi liderlik siyasi üsulu XVI əsrdə yaşamış, Azərbaycanda Səfəvilər dövlətini yaratmış iqtisadi, siyasi və mədəni sahələr üzrə sistemli surətdə inkişaf etdirmiş, xarici və daxili düşmənlərdən qorumuş, bir siyasi dövlət olaraq dünyada tanıtmış Şah İsmayıl Xətai ilə üst-üstə düşür.

Anarın 1988-ci ildə, yəni təxminən 15 il bundan əvvəl, Şah İsmayıl Xətainin 500-illiyinə həsr olunmuş "Şairin zəfəri" məqaləsində Şah İsmayıl Xətai haqda dediyi - "Şah İsmayılın ömür yolu - insanın tarixdə yeri haqqında, tarixin və taleyin çarpazlaşması haqqında müxtəlif düşüncələr oyadır. Sanki bu böyük şəxsiyyət doğulduğu gündən çox-çox qabaqlar dünyada varid olub. Axı Şah İsmayıl konkret bir varlıq - insan, hökmdar, şair deyil, - o, həm də müəyyən tarixi məqsədin və məsləkin daşıyıcısıdır, bu məqsəd və məslək isə onun dünyaya gəlməsindən çox-çox əvvəllər meydana çıxmış, cücrməyə, boy atmağa başlamışdır. Bu məsləkin ilk rüşeymi - mövcud olan siyasi-ictimai mühitdən narazılıqdır, barışmazlıqdır" [66] kimi fikirlər siyasi varis Heydər Əliyevə və tam məsuliyyət hissi ilə şamil edilə bilər və bu irs-varislik məsələsinin həyati təzahürü, ən inandırıcı müqayisələrinə gətirib çıxarır. Belə ki, necə Şah İsmayıl Xətai, Heydər Əliyev də Azərbaycan dövlətinə əsl vətənpərvər kimi xidmət etmiş, Azərbaycan KP MK-nın birinci katibi, sonra isə daha məsul vəzifəyə, həmçinin Azərbaycanın parçalanmaq, dağılmaq təhlükəsinin yarandığı, iqtisadi-siyasi qüvvəsinin zəiflədiyi bir vaxtda hakimiyyətə məhz Azərbaycan dövlətinin gücləndirilməsi naminə gəlmişdir.



Azərbaycan Şah İsmayıl Xətai dövründə olduğu kimi Heydər Əliyevin rəhbərlik etdiyi illərdə də çox gözəlləşmiş, insanların həyat səviyyəsi xeyli yaxşılaşmışdır.

Bu irs-varislik H.Əliyevin Xətai kimi öz ideya mübarizəsində xalqın yenilməz gücünə arxalanmasında da özünü əks etdirir.

Məhz bu xalq ruhu, xalqa bağlılıq hissindən irəli gələrək hər iki Dövlət Rəhbəri öz idarəçilik siyasətlərində Siyasətin Gözəlliyini şərtləndirən bir mühüm məsələnin həllinə - Milli Dilin Dövlət statusu almasına, ölkə dxilində genişlənməsinə, inkişafına çalışmışlar.

Başqa bir təsir, əlaqə bənzəyişi ilə də tanış ola bilərik. Necə ki Xətai xalq ədəbiyyatına, folklorumuza, klassik ədəbi irsimizə ehtiram bəsləmiş, onu həm maddi, həm də mənəvi olaraq (öz poeziyasında) qoruyub inkişaf etdirmişdir, prezident Heydər Əliyev də bütün hakimiyyəti illərində bu xəzinəni tarixi miras halında qiymətləndirmək, ayrı-ayrı sənətkarlara mənəvi abidələr qoymaqla öz “Şah babasının” əsl layiqli varisi olduğunu sübut etmiş və etməkdədir.

Bu kontekstdə böyük maraq doğuran məsələlərdən biri və çox mühümü ondan ibarətdir ki, hər iki öndər, rəhbər, lider estetik hissə malik olmuş, estetik fəaliyyətin ədəbiyyat və memarlıq sahələrini gözəl təmsil edən fitri siyasətçilər kimi dünyada tanınmışlar.

Doğma ana dilində, aydın başa düşülən xalq ədəbi leksikonunda şerlər yazan Şah İsmayılla, bütün məruzə və nitqlərini ana dilində söyləyən, folklorumuzu, el deyimlərini gözəl bilən və əsl xalq ruhlu prezident Heydər Əliyevin bir-birinə nə qədər çox bənzəməsi öz-özlüyündə gözəl siyasət ideyasının dialektikasını da şərtləndirir və əyani misallarla təsdiq edir.

Hakimiyyətin idarə olunmasında N.Tusi “dərsləri” də ənənəni uca tutan Azərbaycan rəhbəri Heydər Əliyevin dövlət siyasətində təcrübədə sınaqdan keçmiş faktor kimi diqqəti cəlb edir.

Məsələn, Tusi belə hesab edir ki, ölkə başçısı atalıq, alicənablıq, mətinlik, tam əzm, səbirli olmaq cəhətlərinə yiyələndikdən sonra sadiq və əməli saleh köməkçilər əldə edə bilər.



Müasir anlama görə sadiq və əməlisaleh köməkçilər rəhbərin mühüm dövlət vəzifələrinə təyin etdiyi adamlar deməkdir ki, bu adamlardan təşkil olunmuş sistemə siyasi institut da deyilir.

Digər bir tərəfdən doğrudan da bu faktor idarəçilikdə zəruri, bəlkə Ən zəruri sahədir. Ona görə ki, heç bir ölkə başçısı nə qədər gücə, qüvvəyə malik olsa da, ölkəni təkbaşına idarə edə bilməz.

Azərbaycana uzun illər rəhbərlik edən Heydər Əliyev siyasi sistemində bütün digər dövlət quruculuğu işləri kimi bu məsələ də ciddi əsaslara bağlıdır.

Fikrimizcə məhz Tusi təbirincə cənab Heydər Əliyev atalıq, alicənablıq, tam əzm, səbirli olmaq cəhətlərinə yiyələnmiş bir dövlət rəhbəri olduğundandır ki, onun əməkdaşlıq etdiyi vəzifə adamları sadiq və əməlisaleh insanlardır.

Ölkə başçısının siyasi institutunun nümayəndələrinin xidmətlərini, fəaliyyətlərini öyrənməklə də ölkənin dövlət quruculuğunu müəyyən etmək olar.

Siyasətşünas alim, tarix elmləri doktoru Seyfəddin Qəndilovun aşağıdakı sitatda ifadəsini tapmış fikirləri bu baxımdan əhəmiyyətlidir. O yazır: “Hər bir görkəmli şəxsiyyətin, dövlət xadiminin böyüklüyü, müdrikliyi həm də onunla ölçülür və qiymətləndirilir ki, həmin rəhbər xalqa xidmətdən güc alan,

milli mənafeləri digər ikinci dərəcəli bütün mənafelərdən üstün tutan, bacarıqlı, istedadlı, səriştəli, idarəetmə işində kifayət qədər təcrübəsi olan xadimləri necə öz ətrafına toplaya bilir və onlardan vahid, yekdil komanda yaradaraq daxili və xarici siyasəti uğurla həyata keçirir. Bu beynəlxalq praktikada özünü çoxdan doğrultmuş idarəçilik meyarı və prinsipi gənc, müstəqil dövlətin öz istiqlaliyyətini möhkəmləndirməsi uğrunda mübarizəsi zamanı xüsusilə vacibdir. Azərbaycan xalqının xoşbəxtliyidir ki, ölkəmizin başçısı, müdrik siyasətçi Heydər Əliyev məhz belə yolla gedərək özünə layiqli komanda yaratmışdır və yeri gəldikdə onlardan fəxrlə söz açmağı da unutmur" [67].

Beləliklə, deyə bilərik ki, "sadiq və əməlisaleh köməkçilər" məsələsi ölkə başçımız cənab Heydər Əliyevin yeritdiyi müdrik, uzaqgörən siyasətin tərkib hissəsi olub, bu siyasətin gözəlliyini şərtləndirən ilkin əsaslardandır.

Ümumiyyətlə, prezident Heydər Əliyev öz idarəçiliyini təkcə birbaşa əməkdaşlıq etdiyi siyasi xadimlərlə deyil, xalqın qabaqcıl ziyalılarının, elm, təhsil, sənət və ədəbiyyat adamlarının iştirakı ilə formalaşdırmış ölkə rəhbərlərindəndir.

Prezidentin özü xarakteri, təbiəti, zəngin dünyagörüşü, nurlu zəkası ilə əsl ziyalılığı təmsil etdiyindən, daima ziyalılarla ünsiyyət saxlayır, onların fikirlərini, düşüncələrini qəbul edib, qiymətləndirir. Bu ziyalı-siyasi rəhbər əlaqəsi o qədər geniş və şaxəlidir ki, ayrıca bir əsərin mövzusu ola bilər.

Bu baxımdan Heydər Əliyevin Azərbaycan ziyalıları ilə görüşləri, bu görüşlərdə ölkə rəhbərinin Azərbaycanın elm, təhsil, sənət və s. sahələrini təmsil edən ziyalılara ünvanlanan dəyərli fikirləri diqqəti cəlb edir.

Prezident Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə belə görüşləri böyük bayram adlandırması, onlarla respublikanın ictimai-siyasi, elmi həyatı ilə bağlı fikirlərini bölüşməsi xüsusi əhəmiyyət kəsb edir.

Həmin tarixi çıxışından aşağıdakı sitat həm də prezidentin xalqın mənəvi dəyərlərinin inkişafında ziyalılara böyük etimad göstərməsini işıqlandırır.

"Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər də, ali məktəblər də inkişaf etməlidir. Ancaq bunlarda qayda-qanun olmalıdır. Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün istiqamətləri nkişaf edəcəkdir" [68].

Prezident Heydər Əliyev təkcə Azərbaycan ziyalılarını deyil, Türkiyədən, Cənubi Azərbaycandan olan ziyalıları, bütünlükdə ziyalılığı dəyərləndirir, hər bir ziyalının layiqincə qiymətləndirilməsinə çalışır.

İstər sovet dövründəki hakimiyyəti illərində, istərsə də Azərbaycan müstəqillik əldə etdikdən sonra seçildiyi ali dövlət vəzifəsində cənab Heydər Əliyev onlarla ziyalıya, sənət adamına yüksək dövlət adları, ordenlər, medallar verməklə, bu məramını əyani surətdə təsdiqləmişdir.

Bu baxımdan prezident Heydər Əliyevin 70-ci illərdə görkəmli drijor Niyazinin Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi istiqamətində qarşılaşdığı problemlərlə bağlı bir xatirəsi xüsusilə əhəmiyyətlidir.

"Bilirsiniz ki, o vaxtlar bizim bir neçə yazıçımız, şairimiz və bəstəkarlarımızdan mərhum Qara Qarayev, Fikrət Əmirov Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşlər. Niyazinin də bu adı almasına çalışdım. Qəribə bir hal meydana çıxdı. Məlum olduğu kimi, o vaxtlar Sosialist Əməyi Qəhrəmanı adı ən yüksək ad idi, bu ada layiq görülənlər ən xoşbəxt adamlar idi. Mən bu təklifi irəli sürəndə Moskvada araşdırdılar ki, bəstəkarlardan, yazıçılardan, şairlərdən, alimlərdən Sosialist Əməyi Qəhrəmanı var, ancaq drijorlardan yoxdur. Mənə dedilər ki, bəs necə ola bilər ki, Rusiyanın, Ukraynanın və başqa bö-



yük millətlərin, yaxud respublikaların drijorlarından Moskvanın məşhur simfonik orkestrlərinin və ya Böyük Teatrın orkestrinə rəhbərlik edən drijorlardan heç biri Sosialist Əməyi Qəhrəmanı adı almayıb, amma siz təkliflə xahiş edirsiniz ki, Niyaziyə belə ad verilsin. O vaxtlar mən bu söhbətləri Sovet İttifaqının ən yüksək səviyyələrində aparırdım. Onlarla danışarkən və öz təklifimi əsaslandırarkən deyirdim ki, əgər həmin drijorlar Sosialist Əməyi Qəhrəmanı adına layiqdirlərsə və siz indiyədək bu adı verməmisinizsə, bu, bəlkə də sizin səhvinizdir və öz işinizdir. Amma mən hesab edirəm və Azərbaycan respublikası adından bildirirəm ki, Niyazi bu ada layiqdir və bəlkə də təsadüfi deyil ki, bu adama layiq olduğu ad indiyədək ona təqdim edilməmişdir. Niyazi layiqlilərdən ən layiqlisidir. Şübhəsiz ki, mənim sözlərimin qarşısında durmaq çətin idi. Odur ki, təklifim qəbul edildi və Niyazi Keçmiş Sovet İttifaqının drijorları arasında birinci olaraq Sosialist Əməyi Qəhrəmanı adını aldı" [69].

Preziden 1998-ci ildə müstəqil Azərbaycanın dövlət mükafatlarını onlarla elm-mədəniyyət, incəsənət xadiminə təqdim edərkən ziyalıya qiymətin heç də idealogiya olmadığı, deməli, məhz yaradıcılığa, xalqa xidmətə görə verildiyi qənaətini bildirir ki, bu da dövlət rəhbərinin ölkənin ziyalı ordusuna ehtiram və inamını bir daha təsdiqləyir: "Sizlərin çoxunun burada qeyd etdiyiniz kimi keçmiş illərdə də

yüksək mükafatlara layiq olmusunuz. O mükafatlar da qiymətlidir, heç vaxt onları unutmaq lazım deyildir. Siz o mükafatları öz xalqınıza, vətəninizə, millətinizə görə almısınız. Sizin yaratdığınız əsərlər, yaradıcılıq fəaliyyətiniz birinci növbədə Azərbaycanın elmini, mədəniyyətini, incəsənətini inkişaf etdiribdir. Azərbaycanın elmi, mədəniyyəti əsirlər boyu inkişaf edibdir və heç vaxt biz fərq qoymamışıq - hansı şair, hansı yazıçı, hansı musiqiçi, hansı alim bunu hansı dövlətin vaxtında yaradıbdır, hansı hökmdarın vaxtında yaradıbdır. Bunları biz heç vaxt araşdırmamışıq və araşdırmaq da lazım deyil. Çünki insan və xüsusən yaradıcı insan öz həyatı dövründə yaratdığını birinci növbədə öz xalqı üçün yaradır, öz milləti üçün yaradır, öz ölkəsi üçün yaradır. Əgər onun yaratdığı əsər öz ölkəsinin hüdudlarından kənara çıxırsa və başqa bir ölkə tərəfindən də qiymətləndirilirsə, buna sadəcə sevinmək lazımdır" [70].

Ümumiyyətlə, deməliyik ki, ziyalı konsepsiyası Heydər Əliyev dövlətçiliyinin ən mühüm prinsiplərindən olub, gözəl siyasət məsələsini şərtləndirən əsas amillərdəndir.

Bizi burada maraqlandıran ziyalılarla, deməli xalqın görən gözü, düşünən ağlı ilə ölkə rəhbərinin güclü, qırılmaz, möhkəm əlaqəsidir ki, bu da müdrik siyasətçinin yeritdiyi siyasətin gözəlliyini təşkil edir.

Siyasətşünas alim, siyasət elmləri doktoru Rövşən Mustafayev "Fikir azaddır" kitabında cənab



Heydər Əliyevin ziyalılarla əlaqəsinin dövlət idarəçiliyi mexanizminin əsas məzmunu kimi izah edərək belə bir qənaətini bildirir: "Mövcud şəraitdə böhran vəziyyətindən uğurla çıxmağın yolu hakimiyyətin bütün təbəqələri intellektuallaşdırması, onun Azərbaycan ictimaiyyətinin intellektual-elita təbəqəsi ilə sıx birgə fəaliyyətidir" [71].

* * *

Bunun özü də bir daha siyasətin gözəlliyinin əsas bünövrəsi kimi diqqəti cəlb edir.

Estetikanın İnsan gözəlliyi məsələsi nə qədər geniş dairəli olsa da cənab Heydər Əliyevin siyasi fəaliyyətində bunu hərtərəfli surətdə təhlil edib qiymətləndirmək üçün geniş material vardır.

Belə ki, İnsan gözəlliyi bu siyasi fəaliyyətdə fiziki, bioloji, mənəvi-psixoloji cəhətlərdən dəyərləndirilmiş, uzun onilliklər boyu diqqət mərkəzində saxlanılaraq, daima inkişaf etdirilmişdir.

Bu cəhətlərdən biri, ilkini əlbəttə ki, İnsan azadlığının - şəxsiyyət azadlığının gözəlliyində cəmlənir.

İlk növbədə qeyd edək ki, İnsan azadlığına, hər bir vətəndaşın şəxsiyyət azadlığına diqqət, məsuliyyət hissi ilə yanaşma, ümumilikdə prezidentin insanlara münasibəti ilə şərtlənir.

Yəni möhtərəm prezidentimiz, cənab Heydər Əliyev təbiətən humanist, insanpərvər olduğundan

xalqa sonsuz məhəbbətlə yanaşır. Elə bir bayram, xalq şənliyi, həmçinin də ümummilli hüzn, mərasim tapmaq olmaz ki, cənab Heydər Əliyev orada xalqla bərabər öz hisslərini bölüşməsin.

Prezidentin çadırlarda yaşayan insanlarımızla möhkəm əlaqəsi, onların yaşayışını şəxsən gedib öyrənməsi, uşaqların, gənclərin, yaşlı nəslin, alimin, fəhlənin, neftçinin, bir sözlə bütün xalqın "dostu" olması faktları fikrimizi aydın şəkildə təsdiqləyir.

Digər bir tərəfdən ölkə başçısının vətəndaşlara diqqət və qayğısı qəbul edilən qanunlarda, ölkə konstitusiyasında öz ifadəsini tapır.

Məsələn, yeni qəbul edilmiş Konstitusiyada insan azadlığı məsələsinə geniş yer verilməsi barədə prezidentin Azərbaycan Respublikasının Milli Məclisinin ilk iclasındakı nitqində deyilir: "İnsan, vətəndaş hüquqlarının azadlıqlarının qorunmasına Konstitusiyanın çox hissəsi, demək olar ki, üçdə bir hissəsi həsr olunubdur. Bu da təbiidir. Biz keçmişdən, totalitar sistemdən yeni bir sistemə keçirik. Biz demokratiyanı inkişaf etdirməliyik, xalqımızı demokratiya yolu ilə aparmalıyıq, insanların hüquqlarının qorunmasının hər yerdə, hər sahədə təmin olunması üçün əsaslar yaratmalıyıq. Bütün bu əsasları da yeni qəbul olunmuş Konstitusiya verir və bütün təminatları biz Konstitusiyanın maddələrindən almışıq. Konstitusiya Azərbaycanda dövlət hakimiyyətinin təşkil olunmasını tam demokratik prinsiplər əsasında təsdiq edibdir" [72].



Göründüyü kimi bu fikirlər Heydər Əliyevin rəhbəri olduğu Azərbaycan dövlətində insan probleminin qoyuluşunu dolğun ifadə edir.

İnsanların demokratik bir cəmiyyətdə yaşamasını, ölkədə plüralizmin həyata keçirilməsini siyasi prinsip olaraq irəli sürən Heydər Əliyev bunu insan azadlığı məsələsi prizmasından əsaslandırır və əməli fəaliyyətində də sübut edir.

Prezidentin 1993-cü ildə Respublika ziyalıları ilə görüşündə söylədiyi, Azərbaycanın dövlət quruculuğunda siyasətin gözəlliyi sahəsində insan azadlığını əsaslandıran fikirlərini nəzərdən keçirməklə, bu problemə bir daha aydınlıq gətirmək istəyirik. Heydər Əliyev deyir: "...Bizim yolumuz siyasi plüralizm yoludur, biz bu yoldan dönməməliyik. Biz Azərbaycanda çoxpartiyalı sistem, çoxpartiyalı cəmiyyət üçün şərait yaratmalıyıq. Əmin olun ki, mən bu mövqeyimdən dönməyəcəyəm. Azərbaycanda insan azadlığı - bütün azadlıqlar təmin olunub. İnsan hüquqları, insan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir" [73].

Müstəqil Respublikamızın 1996-cı ilin iyun ayında insan hüquq və azadlıqlarının ifadəçisi olaraq Avropa Şurasına "xüsusi qonaq" statusu ilə qəbul olunması, ötən il isə artıq bu mötəbər durumun həqiqi

üzvü seçilməsi müdrik siyasətçinin şəxsiyyət azadlığı məsələsində irəliyə doğru atmış olduğu böyük bir addım kimi diqqəti cəlb edir.

Şəxsiyyət azadlığına yüksək münasibət Azərbaycan Prezidentinin respublikamızda Şərq miqyasında ilk dəfə olaraq ölüm hökmünü ləğv etməsi, hüquq və azadlıqlar sahəsində 125 beynəlxalq konvensiyanı və sazişi imzalaması ilə öz təsdiqini qazanmışdır.

1995-ci ildən başlayaraq amnistiya aktları, əhv fərmanları həyata keçirilmiş, onminlərlə azərbaycan vətəndaşı möhtərəm, cənab prezident Heydər Əliyevin İnsan azadlığına - şəxsiyyət azadlığına verdiyi qiymət sayəsində azad edilib, ailəsinə, övladlarının, doğmalarının, əzizlərinin yanına, ən ümdəsi sağlam cəmiyyət arasına qayıtmışdır.

İnsan azadlığının gözəlliyindən danışarkən burada böyük payı olan Qadınları yada salmamaq olmaz. Daha doğrusu Respublikamızda gedən dövlət quruculuğu işində dövlət rəhbərimizin Qadın məsələlərini ön plana çəkməsi həyati həqiqətlərini, onların hüquq və azadlıqlarının həqiqi təminatçısı olmasını, bu sahədə mühüm dövlət sənədləri imzalamasını tədqiqat materialına çevirməmək qeyri-elmi və qeyri-obyektiv olar.

BMT Dünya Qadın hərəkatçıları 1975-ci ili Beynəlxalq Qadın ili elan edəndə, cənab Heydər Əliyev dünya qadınlarının haqq səsinə əyləşdiyi ali kürsü - Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsindən səs verərək BMT qərarını rəsmən qəbul etmişdi.



Tezliklə bu dünya əhəmiyyətli tədbirlə bağlı Dövlət komissiyası yaradılması da Heydər Əliyevin qadın azadlığına yüksək rəhbər münasibətini əks etdirir.

1995-ci ildə möhtərəm prezidentimiz artıq hakimiyyətinin yeni, həm də respublikamızın müstəqillik əldə etdiyi bir dövründə respublika qadınlarının hüquqlarının təminatçısı olduğunu dünya əhəmiyyətli, bəşəri mahiyyət kəsb edən Fərmanla təsdiqlədi. Bu Fərman BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" konvensiyasına qoşulmaqla bağlı idi.

Fərmanın imzalanması və həyata keçirilməsi Azərbaycanın milli liderinin şəxsiyyət azadlığına münasibətini gözəl siyasətlə əks etdirir.

1995-ci ildə qabaqcıl qadınlarımızdan ibarət nümayəndə heyətinin Pekində keçirilən Dünya qadınlarının 4-cü Beynəlxalq Konfransına yollanması, hadisəsi də bunun bariz nümunəsidir.

Nəzərə aldıqda ki, həmin Konfransda dünya qadınları bəşər qadınının ən ali tələbləri "Qadın və yoxsulluq", "Təhsil və qadınların peşə hazırlığı", "Qadın və səhiyyə", "Qadınların insan hüquqları", "Qadın və zorakılıq", "Qadınların qanunvericilik orqanlarının işində iştirakı" və başqa bu kimi məsələləri müzakirə edib, qərarlar qəbul edəcəkdilər, onda dövlət rəhbərimizin Qadın məsələsini dövlət idarəçilik siyasətində necə uca tutub dəyərləndirdiyini aydın hiss etmək çətin olmaz.

1998-ci ildə Respublikada qadın hərəkatının mütəşəkkil şəkil alması, qadınların öz hüquqlarını daha uğurla həyata keçirməsi məqsədi ilə ümummilli lider, respublika prezidenti Heydər Əliyev Qadın problemləri üzrə Dövlət Komitəsi təsis etdi. Bu dövlət durumu pərakəndə halda fəaliyyət göstərən Azərbaycan qadın təşkilatlarını bir yerə cəmlədi.

Bu gün qadınlarımızın dövlət vəzifələrində, hüquq sahəsində, qanunvericilik sistemində təmsil olunması Qadın azadlığının, onların kişilərlə hüquq bərabərliyinin ən nümunəvi misalıdırsa, bunun insanların rifahı, qadın-ana fenomenin yüksəlişi, inkişafı işində aparıcı ideya olması əlbəttə ki, ölkə rəhbərinin siyasi fəaliyyətinin aparıcı prinsiplərindən biri kimi diqqəti cəlb edir.

Bundan başqa cənab Heydər Əliyev qadınlara cəmiyyətin idarə olunmasında əsas qüvvə kimi baxır, demək olar ki, dövlət əhəmiyyətli hər bir tədbirdə qadın əməyini, bütün real problemlərin həllində qadının rolunu ən qiymətli fikirlərlə dəyərləndirir.

Bu da çox xarakterik və maraqlı faktdır ki, cənab Heydər Əliyev qadın məsələsində, bəşərin bu ali gözəl varlığının daxili, etik-mənəvi gözəlliyi ilə bərabər, onun zahiri, fiziki, bioloji gözəlliyini də özünəməxsus inandırıcılıqla rəsm edir və ən əsas bununla estetikanın İnsan gözəlliyi bəhsinin predmet tələblərinə tam uyğun gələn tezislərlə çıxış edir.

* * *



Məlumdur ki, demokratiya anlayışının ifadə dairəsinə aid olan qanunun aliliyi, vətəndaşların hüquq bərabərliyi məsələləri, parlamentin hökumət üzərində üstünlüyü, qanunverici, icraedici, məhkəmə orqanlarının müstəqilliyi və s. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin idarəçilik sistemində işlək qüvvədə olub, insanlarımızın rifahı yolunu işıqlandırır.

Bu baxımdan şəxsiyyət azadlığının əsas prinsipi demokratiya olduğu kimi, demokratiyanın da bir əsas ifadəsi söz azadlığıdır.

Həqiqətdə demokratiya ideyasının özündə romantik bir təsəvvür yükləndiyindən müstəqilliyini yaxın onillikdə əldə etmiş, yəni müstəqilliyinin tarixi çox qısa olan Azərbaycan Respublikasında demokratiyanın, bu cür uğurla, hətta dinamik surətdə həyata keçirilməsi qeyd-şərtsiz ölkə başçımız, cənab Heydər Əliyevin yeritdiyi gözəl siyasətin bəhrəsidir.

Heç şübhəsiz ki, cəmiyyətin fikir ifadəsi olan Mətbuat - Kütləvi İnformasiya Vasitələri İnsanların Söz hüququnun təmsilçisi rolunu oynayır. Təsadüfi deyil ki, müasir düşüncə kütləvi olaraq Mətbuatı dördüncü hakimiyyət adlandırır və çox hallarda sağlam mətbuatın münasibətini qanuni, ədalətli “qərar” kimi qəbul edir.

Söz azadlığı funksiyasını öz üzərinə götürən Mətbuat demokratik cəmiyyətin, vətəndaş cəmiyyətinin elə əsl həqiqətdə əsas sütunlarından biridir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuatın üfüqləri həm miqyas baxımından, həm də fikir azadlığı baxımından xeyli genişlənmişdir (desək heç də səhv etmərik). Dövlət, hüquqi qanunlar mətbuatın daha da inkişaf etdirilməsi, demokratik prinsiplərin həyata keçirilməsini günbəgün gücləndirir.

1998-ci ildə mətbuat üzərindən senzurun götürülməsi haqqında qəbul edilmiş qərar, jurnalistlərin tam sərbəst fəaliyyəti bu sırada xüsusi əhəmiyyət daşıyan məsələlərdəndir.

Lakin etiraf edək ki, bizdə demokratiya anlayışı kimi, mətbuatın azadlığı məzmunu da müəyyən dairələr tərəfindən lazımi qədər düzgün dərk olunmur.

Məsələni bir qədər geniş rakursdan nəzərdən keçirdikdə hətta ölkə quruculuğumuza zidd mövqedə dayanan mətbuat mövqeyi nəzərə çarpır. Bəzi müxalifət partiyalarının ideya ifadəçisi olan müxalifət qəzetləri faktları çox vaxt təhrif edir, özlərindən siyasi ülliziyalar düşünüb kütləyə çatdırır, ölkə başçısını, yüksək vəzifəli dövlət məmurlarını, ziyalıları, yazıçıları və s. elitanı təhqir etməkdən çəkinmirlər. Bütün bu anarxiya ruhlu çıxışlar qəribə və qorxulu psixoloji bir haldır ki, demokratiya, söz azadlığı devizi altında həyata keçirilir.

Heç bir demokratik ölkədə şüurlu, savadlı, intellekt təbəqə təmsilçisi Jurnalist demokratik hüquqi qaydada - seçki yolu ilə seçilmiş Ölkə başçısının və ya parlament üzvlərinin şərəf və ləyaqətini təhqir



etmədiyi, istədiyi böhtanı, yoxlanmamış, təsdiqlənməmiş məsələləri kütləvi informasiya vasitələri ilə xalqın düşüncəsinə yeritmədiyi halda təəssüflər olsun ki, bizdə belə hallar ənənəvi şəkil almaqdadır. Bu cür mətbuat sahələri nümayəndələri bilərəkdən unudurlar ki, ən demokratik ölkədə xalqın ümumkütləvi seçimi ən ali qanundur və jurnalistlər də, müxalifət partiyaları liderləri də bu seçimə hörmət etməyə borcludurlar.

Digər qorxulu bir təmayül son vaxtlar müxalifət partiyaları qəzetlərinin öz böhtan dolu, qərəzçilik ruhlu yazılarını daha geniş yaymaq üçün Avropa Şurasına üzv olmağımızı, bu mötəbər durumun jurnalistlərə, söz azadlığına vermiş olduğu hüquqları əsas götürməkləridir. Onlar hər şeyi, bütün qanunsuzluqları Avropa Şurası ilə bir növ "qorxutmaqla" həll etməyə çalışırlar. Lakin bunun özü yetişən jurnalist nəslini qeyri-normal psixologiyada tərbiyə etməyə yönəlib. Qeyri-estetik bir hal kimi narahatlıq doğurmaya bilməz.

Digər tərəfdən əgər diqqət verilərsə, öz hüquqlarına bu qədər məsuliyyət tələb edən jurnalistlər heç professional olmayan, son dərəcə intellektsiz yazılarına görə məsuliyyət hiss etmirlər. Həmçinin də heç kəs onların "necə yazdığı"nın qiymətini vermir.

Təəssüflə qeyd edək ki, ölkə siyasətini bir müstəvidən tənqid edən dövlət quruculuğu işinə fayda vermək əvəzinə, ən xırda çatışmamazlığı şişirdən, uğur-

lardan sevinmək əvəzinə, hər vasitə ilə olursa-olsun tənqid edən, qəbuledilməzlik nümayiş etdirən gənc nəsli ideya ilə silahlandıranlar arasında elm adamlarına da təsadüf edirik.

Azərbaycan öz müstəqilliyini yenicə əldə edib, onun müstəqillik tarixi cəmisi onillik qısa bir dövrü əhatə edir. Həm də bu möhtəşəm hadisə Azərbaycan torpaqlarının böyük bir hissəsinin işğal olunduğu vaxta düşür. Bir milyondan artıq qaçqının, 200 mindən artıq Qərbi Azərbaycan didərgininin problemlərini həll etmək, saysız-hesabsız mühüm əhəmiyyətli məsələnin öhdəsindən gəlmək heç də asan deyildir. Bu cür mürəkkəb şəraitdə Azərbaycanın müdrik rəhbəri demokratiyanı inkişaf etdirmək işini də diqqətdən kənarlaşdırmır, əksinə həyata keçməsi üçün məqsədyönlü fəaliyyət göstərir.

Ölkə başçısı, cənab Heydər Əliyevin dərin məzmunlu çıxışlarında bu məsələnin daim diqqət mərkəzində saxlanması, bu sahədə görülən işlərdən, qarşıda dayanan vəzifələrdən söz açması özözlüyündə Azərbaycanda dövlət quruculuğunda demokratik prinsiplərin yüksək tutulduğundan xəbər verir.

Rəhbərin demokratiya haqqında düşüncələrini burada bir neçə tezis şəklində nəzərdən keçirmək yerinə düşər.

"Bəziləri belə hesab edirlər ki, Azərbaycanda demokratiya Böyük Britaniyada, Fransada, yaxud



ABŞ-dakı kimi olsun. Biz bu səviyyəyə çatmağa çalışırıq. Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir" [74]; "Yeni Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, hər yerdə insan azadlığı təmin edilməli, insan haqqları qorunmalı, vicdan azadlığı, din azadlığı təmin edilməlidir" [75]; "Demokratiya dövlətçiliyimizin əsasını təşkil edəcəkdir" [76]; "Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var!" [77].

Möhtərəm prezidentimizin əməl dostu, onunla bərabər uzun illər dövlət qulluğunda çalışmış tanınmış siyasi xadim Ramiz Mehdiyevin aşağıdakı sitatda ifadə olunan mühüm elmi əhəmiyyətə malik fikirlərini misal gətirməyi zəruri hesab edirik.

R.Mehdiyev hələ 1996-cı ildə "Ümummilli lider: tarixin sınağı və həqiqət anı" məqaləsində məhz bu məsələyə münasibət bildirərkən yazmışdır: "Tarixi saxtalaşdıran "ideoloqların" fikrincə, başqa bir sistemin daxilində yetişib formalaşan, həmin sistemə xidmət edən siyasi lider guya ümummilli liderə çevrilə bilməz. Yaxın və uzaq tarixi keçmişdən bunun tam əksini sübut edən onlarca misal gətirmək olar. Müxalifət yazarlarının özlərinin ümummilli liderlər siyahısına daxil etdikləri Atatürk əvvəlcə Osmanlı

imperiyasına sədaqətlə xidmət edən bacarıqlı generallardan biri idi. Lakin vətənin taleyi tələb etdikdə bu cəsur general Osmanlı sultanlarının deyil, türk xalqının istəklərinin təmsilçisi və müdafiəçisi oldu. Yaxud Çexoslovakiyadakı "mülayim inqilabın" rəhbəri Aleksandr Dubçeki götürək. Ölkənin kommunist istiqamətli siyasi elitasında təmsil olunmasına baxmayaraq, Dubçek lazımi anda millətinin azadlıq və müstəqillik hərəkatının liderinə çevrildi. Siyasi lider kimi qazandığı nüfuz və təcrübə isə bu prosesdə onun mövqelərini daha da möhkəmləndirdi. Təsadüfi deyil ki, görkəmli dövlət xadimi Uinston Çörçild Böyük Britaniyanın mənafeləri tələb etdikdə özünün siyasi baxışlarının hətta bir neçə dəfə dəyişməsinin mümkünlüyünü istisna etmirdi" [78].

Fəlsəfə elmləri doktoru Qoşqar Əliyevin "Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri" əsərində söyləmiş olduğu fikirlər də bu baxımdan əhəmiyyət kəsb edir və Heydər Əliyevin yeritdiyi siyasətin gözəlliyini müəyyənləşdirməyə kömək edir. "Milli ideyalara vurğunluq, milli xüsusiyyətləri qoruyub-saxlamaq, milli adət-ənənələri daha da dirçəltmək və milli özünəməxsusluğu yaşatmaq hələ 70-80-ci illərdə onun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdi. Məhz o dövrdə Azərbaycan dili ilk dəfə olaraq Konstitusiyada dövlət dili kimi təsbit edilmiş, milli dilin, milli ədəbiyyat və incəsənətin inkişafı üçün hər cür şərait yaradılmışdı. Həmin dövrdə xalqın milli özünüdərki xeyli sürətlənmiş, milli şüurumuz isə ölçüyəgəlməz dərəcədə yetkinləşmişdi. Azərbaycan xalqının milli-mənəvi simasının, milli həyatın özünəməxsus cəhətlərinin sürətli inkişafı məhz bu dövrlərə aiddir [79].

Bütün rəhbərliyi dövründə xalqla bərabər olmuş, ən çətin vaxtlarında xalqdan güc almış, bunu dərin məzmunlu çıxışlarında daima qürur hissi ilə vurğulamış cənab Heydər Əliyev "Mənim həyatım da, fəaliyyətim də yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır. Mənim başqa məqsədim, amalım yoxdur. Bunu isə mən xalqla birlikdə, xalqın dəyərli insanları, hörmətli adamları ilə, xalqın irəli çəkdiyi nümayəndələri ilə birlikdə edə bilərəm" [80] və ya "Bizim hamımızın bir vətəni var - bu Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq - bu Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir!" [81] sitatlarından ucalan yüksək vətənpərvər, xalq ruhlu ideyalardan da göründüyü kimi humanist, kütləni, deməli xalqı, deməli milləti sevən bir rəhbər olmuş və bu gün də bu amalla yaşayır və çalışır.

Demokratiyaya, onun bir hissəsi olan Söz azadlığına respulikada geniş meydan verildiyinin aydın ifadəsidir ki, bu ii prezident cənab Heydər Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

Bundan başqa, mətbuat işçilərinin həqiqi dostu Heydər Əliyev onların nəşriyyatlara olan borclarının dondurulması, respublikada mətbuat işinin yüksəlməsi üçün KİV-ə böyük məbləğdə kreditlərin verilməsi, qəzetlərin digər ciddi problem məsələlərinin xeyli yüngülləşdirilməsi və s. üçün sərəncamlar, fərmanlar imzalamaqla bir daha dövrümüzün qüdrətli dövlət başçısı olduğunu sübut etmişdir.

* * *

Prezidentin dövlətin idarəetmə işində fəaliyyətini göstərən müdrik dünyagörüşü dünya üzərinə səpələnmiş azərbaycanlılarla münasibətdə özünü daha parlaq büruzə verir.

Dərin zəkası, dolğun dünyabaxışı, uzaqgörən siyasətçi düşüncəsi, bütövlükdə fenomen şəxsiyyət xüsusiyyətləri ilə azərbaycanlı adını bütün Yer kürəsində ləyaqətlə təmsil edən Heydər Əliyev bütün azərbaycanlıları vəhdətə, həmrəyliyə, əl-ələ verməyə çağırır.

Prezidentin 1998-ci ildə dünya azərbaycanlılarına ünvanlanmış müraciətində biz bunun şahidi ola bilərik. O deyir: "Hal-hazırda qarşımızda duran ən vacib və tale yüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək,



beynəlxalq aləmdə mədəni, istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

XXI əsrin astanasında dünya azərbaycanlılarının həmrəyliyinə daha böyük ehtiyac vardır" [82].

Göründüyü kimi, prezident dünya azərbaycanlılarını vəhdətə, həmrəyliyə, əl-ələ verməyə çağırır ki, bu öz-özlüyündə gözəl, müdrik siyasətin işıqlı ifadəsi olaraq respublikamızda iqtidar hakimiyyətinin ideya xəttini ifadə edir.

Azərbaycan diasporu problemini öz dövlət idarəçiliyində diqqət mərkəzində saxlayan cənab Heydər Əliyevin bu sahədəki geniş fəaliyyəti artıq elmi tədqiqatların mənbəyi olmuş, bir sıra alim və mütəxəssislər, xüsusilə də fəlsəfə elmləri doktoru, professor Vəli Həbiboğlu tərəfindən diqqətlə təhlil edilib qiymətləndirilmişdir.

V.Həbiboğlunun 1999 və 2001-ci ildə yenidən daha dolğun şəkildə nəşr etdirdiyi "Heydər Əliyev və Azərbaycan diasporu" kitabı cənab Heydər Əliyevin dünya üzünə səpələnmiş soydaşlarımıza diqqətini, etimadını, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsində onların qüvvəsinə inamını zəngin fakt və dəlillərlə əks etdirir. V.Həbiboğlunun "Heydər Əliyev və Azərbaycan diasporu" kitabından Heydər Əliyevin yeritdiyi siyasətin gözəlliyi və bu ideyanın əsasında dayanan həmrəylik, vəhdət fəlsəfi məsələsi ilə bağlı bir təhlil-qiymətləndirmə

ilə tanış olmaq, fikrimizcə, yerinə düşər. "Bütün fəaliyyəti boyu dünya azərbaycanlıları arasında milli həmrəyliyin yaranması və güclənməsini arzulayan, bu sahədə hələ sovetlər dövründə konkret addımlar atan Heydər Əliyev cənabları SSRİ-nin dağılması ərəfəsində, yəni 1991-ci il dekabr ayının 16-da hər il dünya azərbaycanlılarının HƏMRƏYLİK və milli BİRLİK gününün dekabrın 31-də keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Milli Məclisinin sədri olduğu vaxt fərman vermişdir. O vaxt Naxçıvanda belə bir fərmanın imzalanması Heydər Əliyev cənablarının böyük siyasi uzaqgörənliyini bir daha sübuta yetirir.

Görkəmli siyasətçi hələ o vaxt Azərbaycan prezidenti deyildi... Həmişə olduğu kimi yenə də Azərbaycanın sabahını, gələcəyini fikirləşirdi, dövlətçiliyimizin möhkəmlənməsi, milli suverenliyimizin saxlanması və qorunması naminə dünya azərbaycanlıları arasında milli həmrəyliyin və milli birliyin yaradılmasını başlıca amil hesab edirdi. Onun Naxçıvanda bu sahədə atdığı addım sonralar Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən bəyənildi və hər il dekabrın 31-ni bütün dünya azərbaycanlılarının həmrəylik günü kimi keçirmək barədə sərəncam verildi" [83].

On ildən artıq bir müddətdə Azərbaycan diasporu xeyli inkişaf etmiş, dünyanın bir çox ölkələrində onun qurumları, cəmiyyətləri yaranmış, öz ətrafına



İrandan, Türkiyədən, eyni zamanda Azərbaycandan olan soydaşlarımızı toplamışdır.

Ötən il dünya azərbaycanlılarının Bakıda keçirilən ilk qurultayı bir daha sübut etdi ki, Azərbaycan rəhbəri Heydər Əliyev müstəqil respublikamızı bütün dünyadakı azərbaycanlıların vətəni hesab edir və çalışır ki, dünyanın 70-ə yaxın ölkəsində yaşayan 50.000000-dan artıq soydaşımız müstəqil Respublikamızı vətəndaşı olduqları ölkədə təmsil etməklə bütün dəyərlərimizi, eyni zamanda problemlərimizi Yer kürəsinin hər yerinə çatdırsınlar.

Bu isə həm siyasi, həm mənəvi meyardır. Bununla həm siyasətin müdriklikdə əks olunan gözəlliyini, həm də mənəviyyatın yüksəkliyində ifadəsini tapan gözəlliyin estetikliyini müəyyən etmək mümkün olur.

* * *

Heydər Əliyev elə nadir fitri məharətə malik siyasətçidir ki, bütün dünyəvi, bəşəri məsələlərə eyni diqqət və qayğı ilə yanaşır və gözəl siyasəti ilə hər bir sahənin aparıcı olaraq irəlidə getməsinə nail olur.

Bəşər üçün insan, onun azadlığı, özünü vətəndaş kimi dərki nə qədər mühüm amildirsə, bu insanın sağlamlığı ilkin şərtdir və məhz bundan irəli gələrək cənab Heydər Əliyev bütün rəhbərlik dövründə Azərbaycan səhiyyəsinin inkişafına çalışmış, insanın

sağlamlığı kimi əsl estetik gözəlliyin mənbəyi olan səhiyyəmizi gücləndirmişdir.

Səhiyyə sağlamlığa xidmət edir. Sağlamlıq isə həm insanın fiziki, həm mənəvi gözəlliyini ifadə edir.

Digər bir tərəfdən səhiyyənin gözəl təşkili həm də mədəniyyət deməkdir. Onun dünya səviyyəsinə qalxması ölkənin mədəniyyətinin yüksəlişini təmin edir.

Cənab Heydər Əliyevin rəhbərliyi ilə yüzlərlə səhiyyə obyekti, xəstəxana və poliklinikalar, sanatoriya və kurortlar yaradılmış, neçə-neçə tibb işçisinə ən mötəbər rəsmi dövlət adları verilmişdir.

Heydər Əliyev səhiyyə işçilərinə dərin ehtiram bəsləyərək, onların yubiley tədbirlərinin dövlət səviyyəsində keçirilməsi üçün tapşırıqlar verməklə də bilavasitə onların zəhmətini gözəllik yaradanlarla eyni tutaraq mənəviyyat mənbəyi adlandırır.

* * *

Heydər Əliyevin ölkəmizdə yeritdiyi gözəl siyasətdə və ya müdrik siyasətin gözəlliyində sağlamlığın şaxələndiyi idman sahəsi də ayrılmaz bir qolu təşkil edir. İlk əvvəl qeyd edək ki, Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərliyi dövründə idmanımız öz səviyyəsinə və məzmununa görə intibah keçirmiş, çiçəklənmiş, qüvvətlənmişdir.

1992-ci ildə Azərbaycanda Milli Olimpiya Komitəsinin yaradılması, bu böyük idman mədəniyyəti



durumunun Beynəlxalq Olimpiya Komitəsinə daxil olması, 1996-cı ildən başlayaraq isə Azərbaycan idmançılarının Olimpiya oyunlarında iştirakı, Azərbaycanı dünyada tanıdan nailiyyətlər əldə etməsi, ən əsası respublikamızın Olimpiya əsri adlanan XXI əsrə yüksək idman uğurları ilə qədəm basması bunun bariz nümunəsidir.

Ölkə başçımız Milli Olimpiya Komitəsinin fəaliyyəti ilə yaxından maraqlanır, estetik gözəlliyin ən dolğun sahələrindən biri olan milli idmanın inkişafına xüsusi diqqət yetirir.

Ölkə rəhbərinin idman tədbirlərində iştirakı, idmançılarla görüşləri, demək olar ki, adət halını almışdır.

Prezident belə görüşlərindən birində demişdir: "Mən bu gün sizinlə, idmanıçlarla yenidən görüşümdən çox məmnunam. Bilirsiniz ki, mən keçmiş zamanlarda həm Azərbaycanda, həm də Moskvada çox rəhbər işlərdə olmuşam. Ancaq mənim idmançılarla belə tez-tez görüşüm keçmiş zamanlarda olmayıbdır. Bu nəyi göstərir? Mənim buna həvəsim həmişə olubdur. Ancaq bunun üçün şərait lazımdır. İndi siz, idmançılar bu şəraiti yaradırsınız, müxtəlif belə tədbirlər keçirirsiniz. Bizim xalqımızı, vətəndaşlarımızı sevindirirsiniz. Ona görə də mən daha tez-tez sizinlə görüşür, sizə öz sözlərimi deyir, tövsiyələrimi verirəm" [84].

Biz prezidentin bu çıxışında onun estetik gözəlliklə bağlı bəzi mülahizələri ilə də tanış oluruq ki, bu öz

növbəsində Siyasətdə estetik şüurun təsirini əhəmiyyətli dərəcədə ifadə edir:

"Mən burada nə görürəm? Birincisi, Milli Olimpiya Komitəsinin ÇOX GÖZƏL TƏŞƏBBÜSÜNÜ. İkincisi, burada görülən işlərin - memarlıq işlərinin, həm layihə işlərinin, həm də inşaat işlərinin YÜKSƏK KEYFİYYƏTİNİ. Üçüncüsü, bu da çox əsasdır. Azərbaycanda müəyyən məqsədlərə xidmət edəcək yeni, gözəl bir bina yaranıbdır...

...Bir də ki, bu, gözəl memarlıq abidəsidir, şəhərimizi gözəlləşdirir. Hər yaranan şey xalqa qalır, millətə qalır, insanlara qalır. Heç kəs yaratdığını özü ilə o dünyaya aparmır. Ona görə də mən bu gün çox sevinirəm.

Eyni zamanda, hesab edirəm ki, bayaq dediyim kimi Milli Olimpiya Komitəsi başladığı bu xeyirxah işi davam etdirəcəkdir" [85].

Ölkə rəhbərinin idmanın inkişafı ilə bağlı göstərişləri özünün müdrik siyasət ruhu ilə bütün əlaqədar sahə adamlarını cəlb edir və respublikada insan gözəlliyinin, təbiət gözəlliyinin rifahı işi gündən günə sürətli və dinamik inkişafını yaşayır.

* * *

Əlbəttə, hər bir ölkənin daxili və xarici siyasəti onun dövlət siyasətini təmsil edir. Elə əslində məhz bu iki amil dövlətinin inkişafını müəyyən edir.



Eyni zamanda, xarici və daxili siyasət bir-birindən asılı, bir-biri ilə əlaqəli sahələrdir ki, onlar dövlətin güclənməsi və ya zəifləməsinə böyük təsir göstərir.

Hər bir siyasi mədəniyyətdə daxili və xarici diplomatiya dövlət rəhbərinin yeritdiyi siyasətdən, daha konkret olaraq dövlət rəhbərliyindən asılı olur ki, bu da təbii şəkildə bu və ya digər rəhbərin siyasi səriştəsini ifadə edir.

Bu baxımdan dünya şöhrətli siyasətçi Heydər Əliyevin daxili və xarici diplomatik siyasəti bütün mahiyyəti ilə, müdrikliyi ilə tanınır və gözəl siyasət kimi qəbul edilib, yüksək qiymətləndirilir.

Azərbaycanın müstəqillik dövründə bu panorama daha geniş və dolğundur. Heydər Əliyev xüsusilə müstəqillik dövründə yeritdiyi siyasətlə Azərbaycanın daxilində dövlətçiliyi möhkəmləndirmiş, yeni yaranmış müstəqil respublikada qanunun aliliyinin həyati təsdiqi yolunda irəliyə mühüm addımlar atmış, iqtisadiyyatın güclənməsi üçün əməli tədbirlərin həyata keçirilməsi işini sürətləndirmiş, keçid dövrü kimi xarakterizə olunan tarixi mərhələdə Azərbaycan xalqını üzləşdiyi və həmçinin üzləşəcəyi bütün ciddi sosial-siyasi maneələrdən, çətinliklərdən çıxarmışdır.

Məhz daxildə olan sabitlik, hər sahədə görünən sivil qaydada inkişaf dünyanın ən tanınmış dövlətlərinin Azərbaycana marağını xeyli artırmış, son on ildə respublikamız dünya siyasi are-

nasında sayılıb-seçilən dövlətlərlə çiyin-çiyinə dayanmışdır.

Xarici əlaqələr Azərbaycanın dünyada sadəcə olaraq tanınmasını şərtləndirməyib, həm də daxili iqtisadiyyatını möhkəmləndirmiş, insanların rifahını yüksəltmişdir.

Müdrik siyasətin ifadəsi olan bu gözəl siyasət həm də özündə sırf estetik məzmun daşıyan məsələləri birləşdirir.

Belə ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ölkəmizə gələn dünya rəsmiləri ilə görüşlər, habelə ölkə rəhbərimiz cənab Heydər Əliyevin xaricə səfərlərində apardığı danışıqlar, dünya dövlətləri ilə Azərbaycan arasında daim qarşılıqlı faydalanma zəminində imzalanmış sazişlər, siyasi, iqtisadi, sosial-mədəni istiqamətdə dövlətlərarası əlaqələrə dair çoxsaylı sənədlər estetik forma və məzmunun zənginliyi ilə daim əhəmiyyətli olmuşdur.

Nitqlərin, çıxışların, razılaşmaların bütün daxili və zahiri təbiətində estetik keyfiyyətlər aydın surətdə görünmüşdür.

Burada Azərbaycan rəhbəri cənab Heydər Əliyevin estetik xarakterdə olan gözəl davranışı, tərəf müqabilləri ilə gözəl ünsiyyəti, hətta mənalı mimika, jestlər və başqa estetikliyə aid cəhətləri xüsusi olaraq qeyd olunmalıdır.



Cənab Heydər Əliyevin bu özünəməxsusluqdan yaranan yüksək mədəniyyətli münasibəti onun yeritdiyi dərin siyasi məzmunlu ideyanı qüvvətləndirir, onun irəli atdığı, müdafiəsinə çalışdığı fikrin estetik forma həllinə çevrilir, ümumi işin xeyrinə yönəlir.

Bütün bunlar isə, yəni siyasət və estetika bir-biri ilə daxili dinamik əlaqədə gözəl siyasət üçün möhkəm bir əsas yaradır.

Burada mühüm bir məsələ də diqqəti cəlb edir. Bu, Heydər Əliyevin hakimiyyətə sivil qaydada, demokratik siyasi mədəniyyət xarakterində, deməli mədəni yollarla, estetik, yəni gözəl formada gəlməsidir.

Dünyada bütün sivil üsullar, qaydalar möhkəm əsasları özündə cəmlədiyindən əlbəttə ki, estetik gözəllik istisna təşkil etmir və hakimiyyətə sivil qaydalarla, demokratik şəkildə gəliş siyasi inkişafla bərabər estetik şüurun yüksəlişini də ifadə edir. Bu baxımdan ədəbiyyatşünas alim Yaşar Qarayevin aşağıdakı siyasi müstəvidə olan təhlillərini estetik gözəllik prizmasından da qiymətləndirmək olar. O yazır: “Heydər Əliyev üçün rəyasət heç vaxt fövqəlməqsəd olmayıb. O heç vaxt hakimiyyətə tankda gəlməyib və hakimiyyətdən təyyarə ilə qaçmayıb. Arxaik, populist iqtidar davası və belə davaların çevriliş, qəsd, piket, terror, bazar, küçə, vağzal... kimi üsulları əvvəldən bu bioqrafiyaya yaddır” [86].

Fikrimizcə, burada "bioqrafiya" ilə yanaşı "bu şüura, bu dünyagörüşünə" sözü də yerinə düşərdi və onda nadir siyasətçilər sırasını ləyaqətlə təmsil edən möhtərəm ölkə başçımızın bütün qeyri-demokratik, qeyri-sivil təmayüllərdən uzaq olmasının səbəbləri sırasında onun estetik şüurunun fəal təsiri olması həqiqətləri qabarıqlaşardı.

Beləliklə, deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin yeritdiyi siyasət bütün məzmun və forma xüsusiyyətlərinə görə Gözəl Siyasət ideyasını tamamlayır.























8th Islamic Summit Co
8èm Conférence Isla
Téhéran












OSCE
Summit 96




















HÜSEYN CAVİD





## IV HİSSƏ

# MÜDRİK SİYASƏT VƏ FƏCİLİK, EYBƏCƏRLİK, DƏHŞƏTLİLİK KATEQORİYALARININ GÖZƏLLİYİN XEYRİNƏ ZƏİFLƏMƏSİ PROSESİ

Məlumdur ki, faciə əsərinin əsas spesifik xüsusiyyətlərindən - "sirrlərindən" biri iztirabdan sevincə keçidlə müəyyən olunur. Bundan irəli gələrək faciə əsərlərinin ölümsüzlüklə də bağlayırlar.

Dünya xalqlarının faciə əsərləri tarixindən buna çox misallar gətirmək olar. "Əzab-ölüm-iztirab-sevinc" - bu formula bütün janrlarda olan faciə əsərlərinin tipoloji mahiyyəti hesab olunur.

Estetik təhlillərdən alınan ümumi qənaətə görə bu ondan irəli gəlir ki, insan "yoxluqla" barışa bilmir, "ölüm haqda düşüncələr ölümsüzlüyə gətirib çıxarır... Faciə yerinə qayıtmaz itki haqqında hüzünlü mahnı ölümsüzlüyün şən, sevincli himnidir. Faciənin məhz bu dərin təbiəti o vaxt təzahür edir ki, hüzn yerini sevincə, ölüm - ölümsüzlüyə verir" [87].

Doğrudan da faciəli ölmüş bir insan ürəkdə, yaddaşda daima yaşayır, yoxluqdan necə danışmaq

olar?! Yoxluq olmayan yerdə də əlbəttə ki, qəm-qüssə deyil, sevinc, nikbinlik olacaqdır.

Faciəni bu kimi xüsusiyyətlərinə görə fəlsəfi sənət adlandırırlar.

Şübhəsizdir ki, sənətdəki Fəciliklərin əsasında həyat, cəmiyyət, insan münasibətləri dayanır.

Bu baxımdan bəşər tarixi də faciə əsərləri tarixi qədər zəngin, dolğundur.

Məsələ ondadır ki, sənət faciənin qarşısını almağa mənəvi olaraq qadirdir, bəşər tarixi isə həm mənəvi olaraq, həm maddi olaraq.

Fikirlərimizin bu istiqamətində biz artıq insan cəmiyyətləri üçün xarakterik, tarixi ənənəvi siyasi mədəniyyətlər, yəni dövlət siyasətləri məsələsi üzərinə gəlib çıxırıq ki, bu da qeyd-şərtsiz insan cəmiyyətlərinin daxil olduqları dövlətlər, ən əsası bu dövlətləri idarə edən liderlər, onların yeritdiyi siyasətin müdrikliyindən, deməli, gözəlliyindən çox aslı olur.

Buna monoqrafiyanın əvvəlki hissələrində olduğu kimi Azərbaycan prezidenti möhtərəm Heydər Əliyevin dövləti idarəetmə təcrübəsindən dolğun misallar gətirə bilərik.

Məlumdur ki, xalqımız tarixi boyu, həmçinin də bizə zamanca daha yaxın olan XX əsrdə çox milli faciələr, soyqırımlar, insan tələfatları ilə qarşılaşmışdır.

Xüsusilə son dövrlərdə və respublikamızın ikinci dəfə müstəqillik əldə etdikdən sonra başına gəlmiş bir çox qanlı faciələr - 20 Yanvar faciəsi, Xocalı soyqırımı və başqa bu cür insan iztirabı, insan itkisi ilə nəticələnmiş hadisələr Azərbaycan dövlətinin rəhbəri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin diqqəti mərkəzində olmuş və möhtərəm prezidentimiz bu müthiş terrorların beynəlxalq ictimaiyyətin diqqəti mərkəzinə çatdırılması, onları əks etdirən sənət əsərlərinin yaradılaraq əbədiləşdirilməsi üçün mühüm qərarlar qəbul etmiş, ciddi tapşırıqlar vermişdir.



Prezident Heydər Əliyevin Xocalı soyqırımının ildönümü tədbirlərindən birində etdiyi çıxış bu baxımdan fikrimizi təsdiqləyə bilər. Bu çıxışda cənab Heydər Əliyev eyni zamanda fəciliyin qəhrəmanlıq dolu nikbin sonluq məsələsinə də toxunur ki, bu da təbii olaraq xalqımızın mübarizəsinə onun nikbin baxışını ifadə edir: "...Xocalı soyqırımı Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımdır. Bu bizim tariximizdə belə də həkk olmalıdır. Bu soyqırımın nə qədər vəhşiliklə edildiyini və nə qədər insaniyyətdən kənar bir hadisə olduğunu biz gərək daim xalqımıza anladaq, bütün xalqlara anladaq, dünya ictimaiyyətinə anladaq. Bu faciəni heç vaxt unutmaq olmaz. Və zaman keçdikcə, əksinə bu faciəni biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik, hamı bilsin ki, xalqımızın başına nə kimi faciə gəlibdir və eyni zamanda xalqımız öz

azadlığı, öz vətəni, öz torpağı uğrunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir" [88].

Prezidentin həmin çıxışında mühüm əhəmiyyət kəsb edən bir tövsiyəsi də dövlətin törədilmiş faciəyə münasibətini əks etdirir: "Mən tövsiyə edirəm ki, xocalıların adından, bəlkə də Azərbaycan ziyalılarının adından, ayrı-ayrı təşkilatların adından dünya ictimaiyyətinə Xocalı soyqırımının 4-cü ildönümü ilə bağlı müraciətlər göndərilsin. Birləşmiş Millətlər Təşkilatına göndərilsin, dünyada insan hüquqlarını qoruma komitəsi var, oraya gönədirilsin, başqa beynəlxalq təşkilatlara gönədirilsin" [89].

Maraqlıdır ki, prezident Heydər Əliyev xalqın mənəvi faciə hadisəsinin estetik ifadəsi haqda da düşünür, estetik fəaliyyət sahələri işçilərini bu milli xalq faciəsini sənət əsərlərinə köçürmək, Xocalı soyqırımına həsr olunmuş əsərlər yaratmaq tapşırığını da verir ki, bu artıq əyani surətdə dövlət rəhbərimiz Heydər Əliyevin siyasətlə estetikanın əbədi əlaqəsi yüksək şüuruna malik olduğunu təsdiqləyir: "Bilirsiniz, tək onunla kifayətlənmək olmaz ki, Xocalı soyqırımı haqqında bir kitab da yazıldı, bir film də çıkildi. O vaxtlar, təzə-təzə, hələ o yaralar soyumamış bu barədə məlumat çatdırıldı. Yox, daim etmək lazımdır, daim! Hər il, hər gün! Beş il də bundan sonra, on il də bundan sonra! Bunu unutmaq olmaz!" [90].



Prezidentin "bunu unutmaq olmaz" tapşırığı ilə bu gün çox səsləşən bir hadisədir ki, Azərbaycan Respublikasının Milli Məclisinin builki iclaslarında da Xocalı soyqırımı gündəlikdə duran, geniş və ciddi müzakirələrin obyektinə çevrilmiş bir məsələdir.

1990-cı ildə baş vermiş 20 Yanvar faciəsi də möhtərəm Heydər Əliyevin xüsusi diqqəti nəticəsində Milli Məclisimizə çıxarılmış, bunun qanlı terror hadisəsi olması barədə ilk dəfə olaraq 1994-cü ildə şəxsən prezident Heydər Əliyevin təşəbbüsü ilə qərar qəbul edilmişdir.

Bu çıxışla dövlət başçımız tərəfindən irəli sürülmüş fikirlərdə biz respublikamızda gedən quruculuq işlərində siyasətlə estetikanın yaxın əlaqəsinin təminatı, mənəvi-estetik dəyərlərə, ictimai-siyasi hadisələr müstəvisində yer verilməsi, onların əhəmiyyətinin qüvvətləndirilməsi məsələləri ilə yaxından tanış oluruq.

Ölkə rəhbərinin çıxışları eyni zamanda insan cəmiyyəti daxilində bütün fəcilik hadisələrini pisləməsi, bəşəriyyətin dinc şəraitdə əmin-amanlıqla yaşaması ideyasını gücləndirir ki, bu da şübhəsiz, bir dövlət rəhbəri olaraq gözlənilən və gözlənilməyən bütün qanlı hadisələrin qarşısını kəsmək məqsəd-məramını əks etdirir.

Estetikanın gözəllik kateqoriyası ilə əks qütbdə dayanan digər kateqoriyalar qorxululuq, eybəcərlilik və dəhşətlilikdir. Bütün mənəvi dəyərlər, o

cümlədən fəcilik kimi qorxululuq, dəhşətlilik, eləcə də eybəcərlik kateqoriyalarında cəmiyyət həyatında ifadəsinə geniş misallar vardır və həmçinin də bu keyfiyyətlər yaranan əsərlərdə, meydana çıxan sənət əsərlərində öz dolğun obrazını tapır.

Qorxululuq keyfiyyəti cəmiyyət həyatında dövlətçilik nöqteyi-nəzərindən ilk növbədə qanunvericiliyin pozulmasında, siyasi qruplaşmaların seperatçılıq əməllərində, dövləti dağıtmaq meyllərində və s. özünü biruzə verir.

Bu hal, bu təmayül güclənərsə, dövlətin varlığı qorxu altına alınır və dövlətin varlığını müəyyən edən insan kütləsi - xalq maddi-mənəvi cəhətdən sarsılmaq qorxusu keçirir.

Buna görə də bütün dövlətlərdə yeridilən siyasət bu qorxunun yaranmasına, baş verdiyi halda isə qarşısının vaxtında alınmasına diqqətli mövqedə dayanır. Gənc respublikamızda da belə qorxulu vəziyyətlər yaranmış, cənab Heydər Əliyevin müdrik siyasətinin nəticəsi olaraq vaxtında qarşısı alınmışdır. Heç təsadüfi deyil ki, respublikamızda fəaliyyət göstərən çoxsaylı müxalifət partiyaları liderləri, funksionerləri də dövlətçiliyin parçalanması - Azərbaycan Respublikasının ərazi bütövlüyünün dağıdılmasında günahı olmuş şəxslərin cəzalandırılmasını doğru hesab edib, ölkə rəhbərimizin yeritdiyi siyasəti dəstəkləmişlər.



Prezident Heydər Əliyevin yeritdiyi uzaqgörən siyasət dövlət sərhədlərimiz, ərazi bütövlüyümüz kimi, ayrı-ayrı hər bir vətəndaşımızı da əhatə edir.

Bütün xalq, bütün millət kimi tək-tək insanların da qorxusuz, sakit, dinc, xoşbəxt yaşaması onun dövlət quruculuğunun əsas tərkib hissəsidir.

Heydər Əliyevin 1994-cü ildə xalqımızın itkin düşmüş vətəndaşlarının taleyi ilə məşğul olmaq üçün xüsusi qərarla "İtkin düşmüş və əsir götürülmüş şəxslərlə iş üzrə Dövlət Komissiyası" yaratması buna əyani bir misaldır.

Komissiyanın işinə əlaqədar təşkilatlar, habelə respublikanın tanınmış ziyalılarının daxil olunması və onların bu sahədə ciddi işlər apararaq bir qrup vətəndaşımızı qorxu, işgəncə-əsirlik kimi arxaik - vəhşi təəssüratlardan - vəziyyətdən çıxarıb evlərinə, əzizlərinin yanına qaytarmaları bütün respublika ictimaiyyətinə yaxşı məlumdur.

İstər fəcilik, istər dəhşətlilik, qorxululuq, eybəcərlik kateqoriyalarının məna, təsir, ideya istiqamətində respublikamızda cərəyan etmiş bir çox hadisələri xatırlamaq və onların dövlət diqqəti, şəxsən cənab Heydər Əliyevin xüsusi nəzarəti altında həll edildiyinə geniş misallar gətirmək olar.

Məsələn, ölkə başçısı MOK-nin yeni iqamətgaha köçməsi ilə bağlı tədbirdə Azərbaycan idmançılarına, bununla bütün Azərbaycan gəncliyinə mü-

raciət edərkən bu mühüm məsələyə, yəni mənəviyyat məsələsinə xüsusilə toxunaraq demişdir: "...Qeyd etmək istəyirəm ki, son onilliklərdə dünyada, demək olar ki, bütün ölkələrdə, təəssüflər olsun, müxtəlif mənfi vərdişlərin, insanların sağlamlığına, təkcə fiziki yox, əqli sağlamlığına böyük zərbələr vuran vərdişlərin və adətə çevrilmiş halların geniş yayıldığı bir vaxtda gərək hər ölkə, hər dövlət, hər xalq öz insanlarının bütün mənfi yollara düşməsinin qarşısını alsın.

...Bizim xalqımız, millətimiz öz tarixi adət-ənənələrinə görə, öz mentalitetinə görə başqa xalqlara nisbətən belə mənfi hallara o qədər meylli olmayıbdır. Ancaq indi dünya getdikcə bir-birinə yaxınlaşdığı bir zamanda, qloballaşma istiqamətinin meydana çıxdığı bir zamanda və bəzi ölkələrdə mövcud olan əxlaq pozuntularına, narkomaniyaya və başqa cür hallara azadlıq verildiyi, hətta bəzi hallarda onların qanuniləşdirildiyi bir vaxtda biz nə qədər diqqətli olmalıyıq, nə qədər sayıq olmalıyıq. Millətimizi keçmişdən indiyə qədər olduğundan da çox qorumalıyıq və bu istiqamətdə bədən tərbiyəsinin, idmanın çox böyük rolu vardır. Birincisi, biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu Azərbaycan vətəndaşlarının hərtərəfli gələcəyi üçün təməldir" [91].



Fikrimcə, cənab Heydər Əliyevin ötən il 13 avqust tarixində vermiş olduğu mənəviyyat məsələləri ilə bağlı bir Bəyanat da xalqımızın bütün təbəqələrdən və bütün yaş dövrlərindən olan vətəndaşlarının yaddaşında dərin iz salmışdır.

Bu Bəyanat respublikamızda baş alıb gedən əxlaqsızlıq, restoran və barlarda hökm sürən milli mənəviyyata, adət-ənənələrimizə zidd hərəkətlərlə bağlı idi.

Prezidentimiz bu Bəyanatında gənclərimizi cəlb etməyə başlamış və artıq onların arasında ənənəvi hal almış əxlaqsızlıq meyllərini kəskin tənqid edir və bütün ictimaiyyəti bu cür qəbuledilməz halları aradan qaldırmağa çağırırdı.

Fikrimizin təsdiqi üçün Prezidentin bu Bəyanatından bir neçə məqama diqqəti yönəltməyi zəruri hesab edirik.

"Bu fürsətdən istifadə edərək, bir-iki məsələyə də toxunmaq istəyirəm. O da ondan ibarətdir ki, biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaq dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" [92].

Prezident bu Bəyanatında xalqımızın milli psixologiyasına xas "ağsaqqal" nəsihəti xarakterində olan məhz mənəvi-estetik məzmunlu nitqlə tövsiyədə in-

sanları gözlənilən eybəcərliklərdən, fəciliklərdən xəbərdar edib, geri çəkir. Həm də biz prezidentin bu nitqində xalq dili, xalq ruhunu müşahidə edirik ki, bu da sözsüzdür ki, özündə dərin estetiklik keyfiyyətlərini cəmləyir. Məsələn, prezident bütün xalq kütlələrinə üzünü tutaraq deyirdi:

"Bizim millətimizdə, xalqımızda, azərbaycanlılarda namus-qeyrət həmişə ən yüksək keyfiyyət hesab olunubdur. Amma namusunu, qeyrətini, şərəfini alçaldan insanlar özləri-özlərini bu uçuruma salırlarsa, artıq başqalarının da mənəviyyatını pozurlar. Biz bunlara dözə bilmərik və xalqımız da dözməməlidir. Təəssüflər olsun ki, bizim cəmiyyətimizdə çoxları bunu görür, amma buna münasibətini bildirmir. Yaxud da üzünü o tərəfə döndərir: "mənə nə dəxli var." Bu desə ki, "mənə nə dəxli var", o birisi desə ki, "mənə nə dəxli var", onda bizim millətimiz ayrı-ayrı təxribatçıların əli ilə getgedə əlbəttə ki, çox böyük çətinliklərlə rastlaşacaqdır" [93].

Aşağıdakı sitat isə prezidentin milli-mənəvi, deməli, həm də estetik dəyərlərin keşiyində qətiyyətlə dayandığını və xalqa müraciətlə bu mirası qorumağı, uca tutmağı nəinki tövsiyə etdiyini, hətta öz xüsusi intonasiya təbiəti ilə "tələb etdiyini" göstərir:



"Hər bir insan özü öz mənəviyyatını qorusun. Əgər görəndə ki, haradasa mənəviyyat pozulur, onun qarşısını alsın. Onun axarında getməsin. Parnoqrafiya halına düşmüş bəzi qəzetlər, jurnallar burada nəşr olunur və ayrı-ayrı adamlar tərəfindən alınır. Amma əgər onu nəşr edənlər bilsələr ki, bunlar alınmır, onlar nəşr etməzlər... Ona görə də mən həmin şəxslərə də müraciət edirəm ki, düşünsünlər: onlar Azərbaycan xalqına məxsusdurlar. Azəraycan xalqının milli-mənəvi dəyərləri onları bu günkü günə gətirib çıxarıbdır. Bunlara xəyanət etmək olmaz. Bu sözləri deyərkən mən xalqa müraciət edirəm, Azəraycan xalqını çağırıram ki, bizi narahat edən, bu nalayiq və cəmiyyətimiz üçün təhlükəli olan halların qarşısının alınması üçün hərə öz səyini göstərsin" [94].

Sitatlardan göründüyü kimi, bu məsələ həm qorxulu, faciəli, həm də eybəcərlik keyfiyyətlərini özündə birləşdirir ki, buna ölkə başçımızın hamıdan əvvəl səsini ucaltması, kəskin münasibətini bildirməsi, şübhəsizdir ki, Azərbaycan dövlət quruculuğunda mənəviyyatın dəyərləndirilməsi, onun qorunmasının mühümlüyünü əks etdirir.

Əxlaqsızlıqla məşğul olan gənclər təbii olaraq yad təsirlərə uyaraq narkotik maddələrə də aludə olur. Digər tərəfdən isə dövrümüzün ən dəhşətli xəstəlikləri Spid, narkomaniya ilə qarşılaşırlar.

Fikirləşdikdə ki, gənclər hər bir xalqın gələcəyidir, onda bu qorxulu vəziyyətin xalqların təmsil olunduqları dövlətlər tarixi üçün, o cümlədən gənc müstəqil respublika üçün necə bir ciddi mənəvi əsas təşkil etdiyi heç kəsə sir qalmaz.

Gəncliyin sağlam olması, sağlamlığın şərti idmanın kütləvi olması üçün məqsədyönlü işlər aparan cənab Heydər Əliyevin həmin bəyanatı verməsi bu baxımdan da təbii idi.

Tezliklə bu istiqamətdə aparılan işlər, gənclərin düzgün yola cəlb olunması tədbirləri həm də ali bir məramа, fəcilik, dəhşətlilik, eybəcərlik kimi mənfi qütbdə dayanan kateqoriyaların göəlliyin xeyrinə zəifləməsinə gətirib çıxarırdı.

Bu iş bu gün də davam etdirilir və əlbəttə ki, xalqımız öz gözəl mənəvi dəyərlərinin möhkəmlənməsi, cəmiyyət arasında gözəl, ülvi hisslərin genişlənməsi, bərqərar olmasına görə ilk növbədə Azərbaycanın dövlət rəhbəri cənab Heydər Əliyevə, onun yeritdiyi dövlət siyasətinə daim minnətdarlıq hissləri keçirir.

* * *

Siyasət və Estetika: təsir, əlaqə, münasibətlər mövzusunu Azərbaycan Respublikasının prezidenti, cənab Heydər Əliyevin siyasi fəaliyyət istiqamətində



öyrəndikcə öyrənmək, təhlilləri genişləndirdikcə genişləndirmək olar. Bunun üçün həm tarix, zaman - onillər var, həm də bu onillərdə yaranmış, təsdiqlənmiş fəaliyyət var.

Bu mövzunun elmi tədqiqat obyektinə çevrilməsi zərurətdən doğduğu kimi, zərurətə də xidmət edir. Belə ki, “Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin siyasi fəaliyyətində estetik kateqoriyaların inkişafı bir elmi problem olmaqla yanaşı, həm də bir qərinədən artıq bir dövrdə Azərbaycan tarixinin mədəni-mənəvi irsinin yaşam fəlsəfəsidir. Yaşanan fəlsəfənin tədqiq və təhlilləri isə xalqın mənəvi-estetik dəyərlərini üzə çıxarıb, yenidən xalqa bəxş edir. Məhz buna görə də biz bu monoqrafiyanı “Heydər Əliyev və mənəvi-estetik dəyərlər” adlandırmağı vacib bildik.

Möhtərəm Prezidentimiz, milli öndər cənab Heydər Əliyevin dərin məna və məzmun kəsb edən fikirləri burada çox xarakterik səslənir: “Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət edir” [95].

Bu bir həqiqətdir ki, ümummilli lider, Azərbaycan mənəvi dəyərlərinin əsl təəssübkeşi, keşikçisi cənab Heydər Əliyev özü də dilimizin inkişafına çalışması ilə, tariximizi əks etdirməsi, mənəviyyatımızı təhlil etməsi və ümumilikdə xalqımıza xidmət məramı ilə müəllim, alim qədər millətinin milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə fayda verir. Onun bir çox elm sahələrimiz kimi estetika elmini inkişaf etdirməsi də bu qəbildən olan yüksək mənəviyyata xidməti əks etdirir və biz çalışmalıyıq ki, estetik fikir tariximizdə cənab Heydər Əliyevin estetik təhlilləri elmi obyektivliklə tədqiq olunub, qiymətləndirilsin.



# NƏTİCƏ

Məlumdur ki, estetika tarixi avropasentrist mövqeyli münasibətlərlə nə qədər qarşılaşsa da, rəngarəng Misir miflərinə və yazı abidələrinə, əlvan hind təsəvvürlərinə, brahmanizm, veda ənənələrinə, habelə estetikanın ilk elmi rüşeymlərini əks etdirən Çin estetik irsinə əsaslanaraq qədim Şərq quldarlıq mədəniyyətinə aid olduğunu və zəngin antik Yunan və Roma estetik baxışlarına əhəmiyyətli dərəcədə təsir göstərdiyini sübut etmişdir.

Məzmunu etibarı ilə bu elm tarixən kainatla, psixologiya və şüurlu insan fəaliyyəti nəzəriyyəsi ilə bağlı olub, inkişaf prosesində öz predmet dairəsini xeyli genişləndirmiş və cəmiyyət həyatına fəal surətdə nüfuz etmişdir.

Təsadüfi deyil ki, müxtəlif zamanlarda gözəllik ideyası ilə insanların maddi-mənəvi arzu və diləkləri üst-üstə düşmüş və bundan irəli gələrək cəmiyyət özünün qlobal problemini həll edən qüvvəni “Gözəl” hesab etmişdir.

Gözəlliyin dünyanın dörd fəlsəfi başlanğıcının, habelə xeyrlilik, faydalılığın, bundan başqa insan iradəsinin, ağılın, tərəqqinin və s. müəyyən edildiyi bu baxımdan xarakterikdir.

Əlbəttə ki, bu amillər müxtəlif mərhələlərdə kütlələr üçün ahəngdarlığı, harmonikliyi təmin etmişdir.

Estetika tarixinə sənətin "Gözəl" hesab olunduğu, yüksək dəyərləndirildiyi dövrlər və nəzəriyyə məktəbləri də məlumdur.

Bunun əsasında isə fikrimizcə ən əvvəl estetikanın yuxarıda qeyd etdiyimiz kimi ta qədimdən bu və ya digər xalqın sənət (burada sənət dedikdə bütün bədii yaradıcılıq nəzərdə tutulur - *X.Q.*) yaradıcılığı ilə bağlı olması fikri dayanır. Sənət insanları mənən saflaşdırır, kamilləşdirir və onları əbədi harmonikliyi tənzimləyəcək səviyyəyə qaldırır.

Təsadüfi deyil ki, bütün sənətlər daima bəşəri hisslər ifadə etmiş, insanları "Gözəl duyğulara", "Gözəl mənəviyyata", "Gözəl zövqə" və s. çağırmışdır.

Bu da bir həqiqətdir ki, estetika hər hansı bir xalqın sənətlər tarixi ilə güclü əlaqədə olduğu kimi, milli sənətlər də mənsub oldduqları xalqın tarixi ilə qırılmaz tellərlə bağlıdır.

Məsələyə bu nöqteyi-nəzərdən yanaşdıqda "Xalq - tarix - sənət - estetika" formulu üzərinə gəlib çıxırıq ki, bu da təbii olaraq Estetikanın xalqlar tarixi üçün qanunauyğun, dialektik bir hadisə - Dövlətlərlə, dövlət rəhbərlərinin yeritdiyi siyasətlərlə əlaqə məsələsini qabarıqlaşdırır.

Beləliklə, deyə bilərik ki, əgər Estetika sənətlə, Sənət xalqla, Xalq tarixlə, Tarix - Dövlət - Siyasət -



Liderlə əlaqədardırsa və ya bu faktorlar arasında güclü transformasiya, rabitə, təsir, əlaqə mövcuddursa, onda estetika və milli psixologiya, estetika və milli etnos, estetika və etika, habelə mənəviyyat, o cümlədən Estetika və Siyasət mövzularını elmi cəhətdən öyrənmək, bu və ya digər problem, məsələni qiymətləndirmək zərurət təşkil edir.

Bu zərurətdən irəli gələrək biz Siyasət və Estetika: təsir, əlaqə, münasibətlər mövzusunu estetik kateqoriyaların siyasi idarəetmə ilə sintezi istiqamətində araşdırıb, elmi cəhətdən qiymətləndirməyi məqsədəuyğun hesab edirik.

Əlbəttə, heç şübhəsiz ki, siyasi sistemi, siyasi mədəniyyəti yaradan, daşıyan fenomenlər ideyası mövcuddur.

Belə ki, siyasi idarəetmədən bəhs edərkən, siyasətçi - siyasi xadim, lider - prezident faktoru mühüm əhəmiyyət kəsb edir.

Buna görə də biz araşdırmaların əsaslandırılması üçün XX əsrin bizim Azərbaycan gerçəkliyinə, xalqımızın ictimai-siyasi, mədəni həyatına bəxş etdiyi, dünya şöhrətli siyasətçi, ümummilli lider, Azərbaycan Respublikasının prezidenti, cənab Heydər Əliyevin siyasi fəaliyyətinə müraciət etdik.

Təhlillərimizin istiqamətində ilk öncə gəldiyimiz qənaət bundan ibarət oldu ki, siyasətin daxil olduğu, siyasətin ifadə etdiyi gözəllik estetik məzmununu

xalqların, millətlərin iradəsinin əks olunduğu cəmiyyət qanunlarını yazan, dövləti idarə edən sistemlər, dövlətlərin rəhbərləri, tarixən şah - hakim, müasir düşüncə terminləri ilə desək, siyasi lider, prezident təmin edir. Belə ki, məntiqi olaraq, dünyanın gözəllik məzmunu siyasi liderin, prezidentin, ölkə rəhbərinin ziyalı mənindən, bu mənin ifadə etdiyi siyasi səriştədən, dünyagörüşündən və s. psixoloji-intellekt cəhətlərindən asılı olur.

Ölkə başçısından aslı olaraq cəmiyyətdə yaşam fəlsəfəsi müsbət kateqoriyaları, məsələn, gözəlliyi, ülviliyi, eləcə də faciliyi, eybəcərliyi inkişaf etdirə bilər. Nəticədə dövrün gözəli Sülh (yəni, harmoniya - Gözəllik!) də ola bilər, əksinə Müharibə həqiqətləri (yəni, qeyri-gözəllik - eybəcərlik!) də...

Bunun nəticələri isə istər-istəməz insanların şüurundakı gözəllik keyfiyyətlərini bu və ya digər istiqamətdə hərəkət etdirər.

Bu fikirlərin Heydər Əliyev siyasi idarəetmə prinsipləri ilə əlaqəsinin təsdiqi üçün tarixi estetikadan, konkret olaraq qədim Yunan filosofları Sokratdan, Platondan, Azərbaycan filosofu Nəsirəddin Tusidən, habelə müasir elmi qiymətləndirmələrdən gətirdiyimiz misallar əhəmiyyətli dərəcədə faydalı oldu.

Monoqrafiyanın predmet xüsusiyyətlərindən irəli gələrək biz diqqəti cənab Heydər Əliyevin apardığı dövlət quruculuğu işlərinin xarakterik siyasi məzmun keyfiyyətləri ilə estetik kateqoriyaların sintezi üzərinə yönəldərək dövlət başçımızın Dil, Din, Sülh məsələsi sahəsindəki siyasətini - Ülvilik estetik kateqoriyası ilə, onun 30 illik fəaliyyəti dövründə Azərbaycanda şəhərsalma, gözəl, yaraşıqlı binaların tikintisi, habelə zavodların, səhiyyə, mədəniyyət ocaqlarının və s. yaradılması quruculuq işlərini estetikanın təbiətdəki, praktik aləmdəki gözəllik kriteriyaları ilə müqayisə etdik.

Ümummilli liderin demokratiyanın gücləndirilməsi, idmanın inkişafı, mətbuat - söz azadlığının təmin olunması və s. sahələrdə gördüyü sivil fəaliyyətlə estetikanın şəxsiyyət azadlığı, eyni zamanda bunların ayrılmaz keyfiyyəti olan fiziki gözəllik (deməli, insan gözəlliyi) kateqoriyası arasında məntiqi əlaqəni diqqətlə nəzərdən keçirdik. Ümumilikdə bu və digər problem məsələləri biz aşağıdakı hissələr daxilində araşdırıb öyrəndik.

Birinci hissə: Siyasətdə dil, din, sülh problemi və Ülvilik kateqoriyasının təzahür və inkişaf məsələləri.

İkinci hissə: Siyasəti və Estetik gözəlliyin əbədi keyfiyyətlərinin yüksəliş məsələləri.

Üçüncü hissə: Dövlət İdarəçiliyində Siyasətin gözəlliyi məsələsi.

Dördüncü hissə: Müdrik siyasət və facilik, eybəcərlik, dəhşətlilik, kateqoriyalarının Gözəlliyin xeyrinə zəifləmə prosesi.

"Heydər Əliyev və mənəvi-estetik dəyərlər" monoqrafiyasında bu hissələrin elmi cəhətdən əsaslandırılması üçün cənab Heydər Əliyevin nitqləri, məruzə və çıxışları, onun tərəfindən imzalanmış rəsmi dövlət sənədləri, qəbul edilmiş qərarlar, ölkə başçımızın geniş çalarlı, dolğun irsi - zəngin istinad mənbəyimiz oldu.

Problemin təhlilləri prosesində ölkə başçımızın siyasi fəaliyyəti, eyni zamanda estetik görüşləri ilə dərindən tanışlıq bizə böyük öndər, dünya şöhrətli siyasətçi cənab Heydər Əliyevin fəlsəfi dünyagörüşünün müəyyən tərəflərini görmək imkanını da verdi.

Belə ki, biz müəyyən etdik ki, cənab Heydər Əliyevin dünya görüşü fəlsəfi əsaslara bağlı olub, dünya siyasi xadimləri arasında çox az təsadüf edilən nadir lider keyfiyyətlərini özündə birləşdirir.

Bu keyfiyyətlər Heydər Əliyev siyasətinin gözəlliyini ilk növbədə özünəməxsusluqla, ayrıca sistem, məktəb xarakteri ilə təmin və təsdiq edir. Doğrudan da bu bir həqiqətdir ki, Heydər Əliyev dövlət idarəçiliyində aparıcı ideya, yaradıcı siyasi və fəlsəfi təfəkkürdən bəhrələnir.

Belə ki, Heydər Əliyev siyasətində Şərq siyasi-fəlsəfi ənənəsinin tarix baxımından bizə nisbətən daha yaxın olan, humanist "Qandizm" köklərini də, irs varislik nöqeyi-nəzərindən əhəmiyyət kəsb edən Şah İsmayıl Xətai fəlsəfəsinin, dünyagörüşünün xarakterik cəhətlərini də görmək mümkündür.



Qandizm fəlsəfəsinin bütün bu şərtləri, prinsipləri: əmin-amanlıq, sülh (dinc müqavimət) ideyası ilə tamamlanır ki, biz bu böyük insanın siyasət nəzəriyyəsi ilə Azərbaycanın ölkə rəhbəri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin dövlət idarəçiliyi siyasətində səslənən, uyğun gələn telləri aydın görürük.

Bunu prezident Heydər Əliyevin Azərbaycanın istiqlaliyyətinə dinc yolla, siyasi danışıqlarla nail olunması, işğal olunmuş torpaqların sülh şəraitində geri qaytarılması, stabilliyin möhkəmləndirilməsi sahəsində qəbul etdiyi, təsdiqlədiyi, çoxsaylı və mühüm tarixi əhəmiyyət kəsb edən dövlət qərarları, fərmanlar, sərəncamlar aydın surətdə təsdiqləyir.

Əlbəttə, dediyimiz kimi uzaqgörən bir siyasətçi, fitri siyasi səviyyəyə malik Heydər Əliyev öz idarəçiliyində Qandizmi xeyli inkişaf etdirmiş, onda öz dövrü, öz xalqı üçün xarakterik olan siyasi məsələlərə və həmçinin fəlsəfəsindəki müəyyən prinsiplərə yaradıcı şəkildə yanaşmışdır.

Həmçinin də Şah İsmayıl Xətai kimi möhtərəm, cənab Heydər Əliyev də Azərbaycan dövlətinə əsl vətənpərvər kimi xidmət etmiş, hakimiyyətə - Azərbaycan KP MK-nın birinci katibi, sonra isə SSRİ-nin daha məsul dövlət vəzifəsinə, habelə Azərbaycanın parçalanmaq, dağılmaq təhlükəsinin yarandığı, iqtisadi-siyasi qüvvəsinin zəiflədiyi bir vaxtda respublikanın Ali Sovetinin sədr kürsüsünə məhz Azərbaycan dövlə-

tinin gücləndirilməsi naminə gəlmişdir. Şah İsmayıl Xətai Azərbaycan dövlətinin başında dayandığı dövrdə olduğu kimi Heydər Əliyevin rəhbərlik etdiyi illərdə də şəhərlər, kəndlər gözəlləşdirilmiş, insanların həyat səviyyəsi daim yaxşılaşdırılmışdır.

Bu irs-varislik H.Əliyev siyasətində xalqla, xalqın yenilməz gücünə arxalanmaqda da özünü əks etdirir.

Məhz bu xalq ruhu, xalqa bağlılıq hissindən irəli gələrək hər iki Azərbaycan Dövlət Rəhbəri öz idarəçilik siyasətlərində Siyasətin Gözəlliyini şərtləndirən bir mühüm məsələnin həllinə - Milli Dilin Dövlət statusu almasına, ölkə dxilində genişlənməsinə, inkişafına çalışmışlar.

Başqa bir təsir, əlaqə ilə də tanış ola bilərik. Necə ki Xətai xalq ədəbiyyatımıza, folklorumuza, klassik ədəbi irsimizə ehtiram bəsləmiş, həm maddi, həm də mənəvi olaraq (məsələn, öz poeziyasında) qoruyub inkişaf etdirmişdir, prezident Heydər liyev də bütün hakimiyyəti illərində bu xəzinəni tarixi miras halında qiymətləndirmək, ayrı-ayrı sənətkarlara mənəvi abidələr qoymaqla öz "Şah babasının" əsl layiqli varisi olduğunu sübut etmiş və etməkdədir.

Bu kontekstdə böyük maraq doğuran məsələlərdən biri və çox mühümü ondan ibarətdir ki, hər iki öndər, rəhbər, lider estetik hissə malik olmuş, estetik fəaliyyətin ədəbiyyat və memarlıq sahələrini gözəl təmsil edən fitri siyasətçilər kimi dünyada tanınmışlar.



Təhlillərdən alınan daha bir qənaitimiz ondan ibarət oldu ki, Heydər liyev idarəetmə sahəsində fəlsəfənin əsas məsələlərindən biri olan "Əksliklərin mübarizəsi və vəhdəti"ndən yaradıcı olaraq çıxışlar edir.

Dünya dövlətləri ilə, habelə dünya üzünə səpələnmiş çoxmilyonlu Azərbaycan diasporu ilə, istərsə də respublikamızda yaşayan müxtəlif millətlərdən olan insanlarla, həmçinin də müxtəlif siyasi partiyalarla, müxalifət qəzetləri ilə Heydər Əliyev münasibətləri məzmunu etibarı ilə onun vəhdət məsələsindən yaradıcı təfəkkürlə çıxışlar etməsini, ən əsas onun fəlsəfi məktəbi və dünyagörüşünü əks etdirir.

Heydər Əliyevin gözəl siyasəti forma və məzmunun tamlığı, bitkinliyi baxımından da müsbət qarşılanır.

Belə ki, ölkədə qəbul edilmiş qərarlar vaxtı-vaxtında icra olunur, qanunların aliliyi prinsipi qorunur, dövlətin yeritdiyi sülh və sabitlik, insanların rifahı məsələləri öz real, həyati ifadəsini tapır və s.

Fəlsəfə elmləri doktoru Telman Hacıyevin monoqrafiyada sitat gətirilən fikirlərindən aşağıdakı kiçik bir parça da irəli sürülən ideyanı möhkəmləndirir: "Müstəqillik, hüquqi dövlət, demokratizm, millilik, milli irs, xüsusən də adət və ənənələr, dini münasibət və s. - bütün bunlar özü də fəlsəfi problemdir və onların işlənməsində, həyata keçirilməsində ölkə prezidenti yaxından iştirak edir. Bu xüsusilə özünü müstəqil dövlətimizin ilk Konstitusiyasının

hazırlanmasında göstərilir. Məhz Heydər Əliyevin bilavasitə iştirakı və rəhbərliyi ilə hazırlanan Konstitusiyamızda dövlət hakimiyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölündü. Və bu məsələnin həllində prezident bütün filosofların, xüsusilə Monteskyonun fikirlərinə istinad etdi, həmin ideyallara yeni ruh verdi. Təkmilləşdirdi. Bu baxımdan Heydər Əliyev Azərbaycan tarixində fəlsəfi ideyalarla hüquqi dövlət quran, onu inkişaf etdirən yeganə dahi şəxsiyyətdir və onun həyatı Azərbaycan fəlsəfi fikrinin şah əsəridir" [96].

Monoqrafiyada cənab Heydər Əliyevin siyasi idarəetmə sistemində estetik gözəllik fəlsəfi baxımdan yüksək qiymətləndirildiyi kimi, fəcilik, eybəcərlik, dəhşətlilik, qorxululuq kimi estetik kateqoriyaları ifadə edən mənəvi keyfiyyətlər də diqqətdən yayınmır, dövlət başçımız cəmiyyət həyatı üçün qəbuledilməz, ümumiyyətlə, bəşər tarixinə fayda verməyən, əksinə onun inkişafını ləngidən bu kateqoriyaları daim pisləyir, tənqid edir və bu yolda məqsədyönlü siyasət həyata keçirir.

Monoqrafiyada bu məsələlərə də aydınlıq gətirilmiş, problemin obyektiv qiymətləndirilməsi üçün bir sıra elmi, siyasi və estetik faktlardan istifadə olunmuşdur.

Monoqrafiyanın təhlillərindən alınan ən əsas qənaət isə bundan ibarətdir ki, "Siyasət və estetika: təsir, əlaqə, münasibətlər" mövzusu Azərbaycan prezidenti Heydər Əliyevin siyasi fəaliyyəti kontekstində. Bu mövzu və mövzu üçün seçilmiş mənbə-məxəz çox zəngindir və elmi əhatəliliki kəsb edir.



Həm də bu mövzunun elmi-tədqiqat obyektinə çevrilməsi zərurətdən doğduğu kimi, zərurətə də xidmət edir. Belə ki, Azərbaycan Respublikasının prezidenti, cənab Heydər Əliyevin siyasi fəaliyyətindən estetik kateqoriyaların inkişafı bir elmi problem olmaqla yanaşı, siyasət və estetika: təsir, əlaqə, münasibətlər məsələsinin öyrənilməsinə xidmət etməklə bərabər, həm də bir qərinədən artıq dövrdə Azərbaycan tarixinin yaşam fəlsəfəsidir. Yaşam fəlsəfəsinin tədqiq-təhlilləri isə xalqın mənəvi-estetik dəyərlərini üzə çıxarıb, yenidən xalqa bəxş edir.

Məhz buna görə də biz bu monoqrafiyanı "Heydər Əliyev və mənəvi-estetik dəyərlər" adlandırmağı vacib bildik.

Əlbəttə, bu monoqrafiya "Siyasət və Estetika" mövzusunda ilk elmi addım olduğu üçün təbii olaraq, kitabda bütün məsələlər öz ifadəsini tapmamışdır.

Bununla da mövzunun davam etdirilməsi zərurəti vacib şərt kimi qarşıda dayanır.

İkinci: Bu "birincilik" məsələsi problemi sırf nəzəri-metodoloji aspektdən təhlil etmək işini də bir qədər çətinləşdirmişdir.

Üçüncüsü: Monoqrafiyanın annotasiyasında qeyd olunduğu kimi kitab müəyyən ixtisarlarla çap olunur və bundan irəli gələrək də cənab Heydər Əliyevin siyasi fəaliyyəti, eyni zamanda estetika məsələləri və bunların sintez xüsusiyyətləri tam dolğunluğu və xronoloji sistemlik üzrə təhlil olunmamışdır.

Lakin monoqrafiyada qarşıya qoyulmuş problem - nəzəri əsaslar, elmi faktlar, dəlillər vasitəsilə və həmçinin müəllifin elmi qənaətləri ilə xeyli dərindən təhlil olunmuş, qiymətləndirilmişdir.

İnanırıq ki, "Heydər Əliyev və mənəvi-estetik dəyərlər" kitabı geniş ictimaiyyət, Heydər Əliyev məktəbi dinləyiciləri, Heydər Əliyev dövlətçiliyini öyrənən geniş və çoxsaylı auditoriya tərəfindən maraqla qarşılanacaqdır.



# ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev Heydər. Müstəqillik yolu. Bakı, 1997, s.65.
2. Борев Ю. Эстетика. М., Полит-лит, 1988, с.47.
3. Мамедзаде И. Гражданское общество и национальная идеология. Баку, 1995, с.5.
4. Sipovski V. Sokrat və onun dövrü. B., "Elm", 1995, s.76-77.
5. Гилберт К., Кун Г. История эстетики. М., Изд. Иност. лит. 1960, s.37.
6. Tusi Xacə Nəsirədddin. Əxlaqi-Nasiri. Bakı, "Elm", 1989, s.209-210.
7. Yenə orada.
8. Yenə orada.
9. ASE, IV cild. Bakı, 1980, s.131.
10. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 1997, 5-ci kitab, s.16.
11. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 1997, 3-cü kitab, s.366-368.
12. Mehdiyev Ramiz. Azərbaycanın inkişaf dialektikası. Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2000, s.15.
13. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.26.
14. Mehdiyev Ramiz. Azərbaycanın inkişaf dialektikası. Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2000, s.36.
15. Əliyev Heydər. Müstəqillik yolu. B., 1997, s.117.
16. Zərdabi Həsən bəy. Seçilmiş əsərləri. B., Azərnəşr, 1960, s.137.
17. Mehdiyev Ramiz. Azərbaycanın inkişaf dialektikası. Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2000, s.13.
18. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.125.

19. Əliyev Heydər. Müstəqillik yolu. B., 1997, s.98-100.
20. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.10.
21. Əliyev Heydər. Dinimiz xalqımızın mənəvi sərvətidir. B., 1998, s.10.
22. Yenə orada. s.117.
23. Yenə orada. s.25, 29-30.
24. Yenə orada. s.38, 36, 44, 57, 58.
25. Yenə orada.
26. Marksist-leninçi estetikanın əsasları. B., "Maarif", 1979, s.55.
27. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 1997, 4-cü kitab, s.11-12.
28. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 3-cü kitab, B., Azərnəşr, 1997, s.162-163.
29. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab, B., Azərnəşr, s.50.
30. Yenə orada. s.59.
31. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, B., Azərnəşr, 1997, s.13.
32. Heydər Əliyev və muzeylərimiz. B., Şur, 1999, s.6.
33. Yenə orada. s.17-18.
34. Yenə orada. s.38.
35. Kitabxana işinə dair normativ sənədlər. B., 2001, s.6-7.
36. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 3-cü kitab, B., Azərnəşr, 1997, s.473.
37. Yenə orada. s.475.
38. Cəfərov Cəfər. Seçilmiş əsərləri. II c., Azərnəşr, 1968, s.199.
39. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 2-ci kitab, B., Azərnəşr, s.174-175.
40. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, B., 1997, s.11.



41. Yenə orada. s.10.
42. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.27.
43. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab, B., Azərnəşr, 1997, s.160-161.
44. Yenə orada.
45. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, B., 1997, s.231-232.
46. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.35.
47. Yenə orada. s.35-36.
48. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, B., Azərnəşr, 1997, s.157.
49. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.44.
50. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 2-ci kitab, B., Azərnəşr, 1997, s.97.
51. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.56.
52. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 2-ci kitab, B., Azərnəşr, 1997, s.94-95.
53. Yenə orada. 363-364.
54. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.76.
55. Yenə orada. s.86.
56. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 2-ci kitab, B., Azərnəşr, s.157.
57. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab, B., Azərnəşr, 1997, s.159-160.
58. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 3-cü kitab, B., Azərnəşr, 1997, s.127-128.
59. Yenə orada. 42-44.
60. Yenə orada. s.160.
61. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, B.,

Azərnəşr, 1997, s.83.
62. Yenə orada. s.154.
63. Mehdiyev Ramiz. Azərbaycanın inkişaf dialektikası. B., Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2000, s.264.
64. ASE. B., 1979, III c., s.34.
65. Hacıyev T. Heydər Əliyevin həyatı Azərbaycan fəlsəfi fikrinin zirvəsidir. Yeni Azərbaycan qəz., 3 aprel 1996.
66. Anar. Şairin şərəfi. Şah İsmayıl Xətai. B., "Elm", 1998, s.48.
67. Mehdiyev Ramiz. Azərbaycanın inkişaf dialektikası. B., Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2000, s.4.
68. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab, B., Azərnəşr, 1997, s.162.
69. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 2-ci kitab, B., Azərnəşr, 1997, s.250.
70. Əliyev Heydər. Ədəbiyyatımızın yüksək borcu və amalı. B., 1999, s.481-482.
71. Mustafayev Rövşən. Fikir azaddır. B., 2000, s.85.
72. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 5-ci kitab, B., Azərnəşr, s.6.
73. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab, B., Azərnəşr, s.152.
74. Əliyev Heydər. Müstəqillik yolu. B., 1997, s.21.
75. Yenə orada. s.27.
76. Yenə orada. s.35.
77. Yenə orada.
78. Mehdiyev Ramiz. Azərbaycanın inkişaf dialektikası. B., 2000, s.34.
79. Əliyev Qoşqar. Çağdaş, demokratik proseslərin bəzi fəlsəfi problemləri. B., "Təbib", 1997, s.117-118.
80. Əliyev Heydər. Müstəqilik yolu. B., 1997, s.118.
81. Yenə orada. s.117.



82. Xalq qəzeti. 25 dekabr 1998.
83. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. B., 1999, s.18-19.
84. Olimpiya jurnalı. B., 2001, s.37.
85. Yenə orada. s.35-36.
86. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Elm", 1998, s.128.
87. Борев Ю. Эстетика. М., Полит-лит, 1988, s.67-68.
88. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 1997, 5-ci kitab, s.358.
89. Yenə orada. s.359.
90. Yenə orada.
91. Olimpiya jurnalı. B., 2001, s.33-34.
92. Azərbaycan Prezidenti Heydər Əliyevin Bəyanatı. Azərbaycan qəz., 14 avqust 2001-ci il.
93. Yenə orada.
94. Yenə orada.
95. Əliyev Heydər. Müstəqillik yolu. B., 1997, s.45.
96. Yeni Azərbaycan qəzeti. 3 aprel, 1996-cı il.

# MÜNDƏRİCAT

MƏNƏVİ-ESTETİK DƏYƏRLƏRİ İNKİŞAF ETDİRƏN QÜDRƏTLİ ŞƏXSİYYƏT (*Ön söz*) ........ 3
GİRİŞ ........ 8
I HİSSƏ SİYAƏTDƏ ÜLVİLİK KATEQORİYASININ TƏZAHÜR VƏ İNKİŞAF XƏTTİ ........ 29
II HİSSƏ. SİYASƏT VƏ ESTETİK GÖZƏLLİYİN ƏBƏDİ KEYFİYYƏTLƏRİNİN YÜKSƏLİŞ MƏSƏLƏLƏRİ ........ 47
III HİSSƏ. DÖVLƏT İDARƏÇİLİYİNDƏ SİYASƏTİN GÖZƏLLİYİ MƏSƏLƏLƏRİ ........ 107
IV HİSSƏ. MÜDRİK SİYASƏT VƏ FƏCİLİK, EYBƏCƏRLİK, DƏHŞƏTLİLİK KATEQORİYALARININ GÖZƏLLİYİN XEYRİNƏ ZƏİFLƏMƏSİ PROSESİ ........ 145
NƏTİCƏ ........ 159
ƏDƏBİYYAT SİYAHISI ........ 171

**Redaktor: N.Məmmədli**
**Redaktor müavini: İ.Zeynalov**
**Texniki redaktorlar: R.Quliyev, E.Hacıyev**
**Korrektorlar: M.Tağıyeva, S.Məlikova**
**Kompüter tərtibçisi: A.Məmmədova**
**Yığılmağa verilmiş 29.03.2002. Çapa imzalanmış 30.04.2002.**
**Şərti çap vərəqi 11. Sifariş № 93.**
**Kağız formatı 60x841/16. Tiraj 3000. Qiyməti müqavilə ilə.**

**Kitab "Nurlan" nəşriyyat - poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.**
**Müəssisənin direktoru N.B.Məmmədli.**
**Tel. 8-50-311-41-89.**
**Ünvan: Bakı 48, Qaraçuxur qəs. Qumluq küç.69.**